Xalqın qəzeti!

# Xalq qəzeti

№ 287 (30403) 30 dekabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# “Sülhlə imitasiya” dövrü bitdi

*Rəsmi Bakının təkliflər paketinə İrəvanın cavabı, hələlik, qeyri-müəyyəndir*

**Anlayış göstərmək problemin həllinə doğru aparan ilkin amildir. Əgər tərəflər bunun ardınca qarşılıqlı etimad mühitini yaradacaq xoşməramlı addımlar atsalar, deməli, anlaşılmazlığın tam aradan qalxmasına lap az qalacaq.**



Ermənistan və Azərbaycan arasında sülhə nailolma prosesinin indiki həlledici mərhələsində müsbət sonluğun əldə olunması üçün İrəvanın siyasi iradə göstərməsinə ehtiyac duyulur. Bunu Nikol Paşinyanın kabineti də yaxşı anlayır. Elə son günlər rəsmi İrəvan təmsilçilərinin bir-birinin ardınca sülh sazişinin imzalanması ilə bağlı nikbin açıqlamalar verməsi bu siyasi iradənin nümayişi kimi qəbul edilə bilər.

* * *

Ermənistan baş naziri Nikol Paşinyan, parlament sədri Alen Simonyan, Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və xarici işlər naziri Ararat Mirzoyan son günlər çıxış və müsahibələrində sülh sazişinin aktuallığından bəhs edirlər. Azərbaycan Prezidenti İlham Əliyevlə N.Paşinyan arasında Sankt-Peterburqda MDB Sammiti çərçivəsində ayaqüstü söhbətdə də elə bu məsələ müzakirə olunub. A.Simonyan rəsmi Bakının bu istiqamətdə atdığı addımları alqışlayıb. O vurğulayıb ki, Azərbaycan Cənubi Qafqazda sülhün bərqərar olmasına töhfə verən addımlar atır, İrəvanla Bakı arasında razılaşma mümkündür. Erməni spikerin sözlərinə görə, sülh heç vaxt bu qədər yaxın olmayıb. Simonyan bir az da irəli gedərək ermənilərin yaşamaq üçün Azərbaycana, azərbaycanlıların isə Ermənistana gedəcəklərini istisna etmədiyini, bu iki xalqın öz aralarında ticarət edəcəyinə inandığını dilə gətirib. Düzdür, bu zaman o, belə bir perspektivin nə qədər yaxın olduğunu dəqiqləşdirməkdə çətinlik çəksə də, fəqət, arzu və niyyətinin saf olduğuna inanmaq istərdik.

Yeri gəlmişkən, baş nazirin özü də yaxın vaxtlarda Azərbaycanla sülh sazişinin imzalanmasının real göründüyünü dekabrın əvvəlində dənizə çıxışı olmayan ölkələrin nazirlər iclasının açılış mərasimində bəyan etmişdi.

*(ardı 4-cü səhifədə)*

## Tarixi “İmarət” Ağdamın bugününə qayıdır



**Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu il dekabrın 24-də Ağdamda olarkən şəhərin keçmişində “İmarət” adı ilə tanınan tarixi kompleksə də baş çəkmiş, burada aparılan elmi-tədqiqat və bərpa-quruculuq işləri ilə tanış olmuşlar.**

Xatırladaq ki, dövlət başçısı işğaldan azad edilmiş Ağdam şəhərində Dövlət Bayrağımızı ucaldarkən ilk baş çəkdiyi ünvanlardan biri Qarabağ xanlarının ata-baba mülkü və axırət evi olan “İmarət” tarix-memarlıq kompleksi olmuşdu. Prezident o zaman Qarabağın keçmişi ilə bağlı bu önəmli tarixi məkanın tədqiqi və layiqincə bərpası barədə göstəriş və tövsiyələrini vermişdi.

*(ardı 12-ci səhifədə)*

## Səkkiz kəndimizin qaytarılacağı gün uzaqda deyil

Bu məsələyə sərhədlərin delimitasiyası prosesi çərçivəsində baxılacaq



**Yola saldığımız ildə Qarabağ iqtisadi rayonunun bütün ərazisində suverenliyini tam təmin edən ölkəmiz üçün hazırda həllini gözləyən əsas məsələlərdən biri işğal altında olan 8 kəndimizin gələcək taleyidir. Qeyd edək ki, bunlar Qazax rayonunun Bağanis Ayrım, Xeyrimli, Barxudarlı, Sofulu, Yuxarı Əskipara, Aşağı Əskipara və Qızıl Hacılı kəndləri, həmçinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndidir.**

Bu məsələ ölkəmiz üçün hər zaman aktual olub: İstər 30 ilə yaxın davam edən işğal dövründə, istərsə də ondan sonra rəsmi Bakı işğal altındakı kəndlərin qaytarılması məsələsini müxtəlif platformalarda daim qaldırıb. Oktyabrın 7-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə telefon danışığı zamanı Prezident İlham Əliyev Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək onların işğaldan azad olunmasının vacibliyini vurğulayıb.

Eyni zamanda, son vaxtlar iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyası məsələsində müsbət irəliləyişlər nəzərə çarpır. Xüsusilə, noyabrın 30-da Azərbaycan–Ermənistan şərti sərhədində iki ölkənin baş nazirlərinin müavinləri – Şahin Mustafayev və Mher Qriqoryanın rəhbərliyi etdikləri dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların iclasında müəyyən nəticə əldə olunub.

*(ardı 4-cü səhifədə)*

## Maliyyə sabitliyi davamlı inkişafı stimullaşdırır

**Azərbaycan Respublikası Mərkəzi Bankının 2024-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində 2023-cü ildə ölkədə makroiqtisadi sabitlik göstəricilərinin yaxşılaşdığı və iqtisadi artımın davam etdiyi bildirilib.**

*(ardı 9-cu səhifədə)*




## “Rəngli inqilablar serialı”nın Serbiya variantı?

Səhifə ⇒ 15

## Azərbaycan Demokrat Firqəsi Milli Hökumət idealını yaşadır

Səhifə ⇒ 13

Replika

## “Ostap Benderin möhürü”



Söhbət heç də on iki stuldan birindəki brilyantları axtarıb tapmağa çalışan fırıldaqçıdan getmir

**Azərbaycanın tarixin arxivinə göndərdiyi qondarma “dqr” rejiminin sonuncu separatçıbaşı “prezidenti” Samvel Şahramanyan İrəvan küçələrində rəsmi kortej və cangüdənlərin müşayiəti ilə hərəkət edirmiş. Yəni, Qarabağdan köçmüş ermənilərin hökumətdən minimum “payok” umduğu bir vaxtda fərari Şahramanyan dövlət başçılarına xas ədə ilə olmayan “səlahiyyət və imtiyazlarını” nümayiş etdirirmiş.**

Amma Xankəndinin “sonuncu padşah”ı çox uzağa gedə bilməyib. Ermənistan Daxili İşlər Nazirliyinin yol polisi keçmiş separatçı-xunta rejimin səlahiyyətlərindən könüllü imtina etmiş eks-başçısı Samvel Şahramanyanı avtomobilini mühafizəçilər və kortejin müşayiəti ilə idarə etdiyinə görə saxlayıb. Hadisə barədə ictimaiyyəti məlumatlandıran yerli “Hraparak” qəzetinin yazdığına görə, polis Şahramanyana bildirib ki, o, qanunla kortejin müşayiəti ilə avtomobil idarə etmək hüququna malik deyil. Ermənistan DİN xəbəri təsdiqləyərək belə bir əlavə açıqlama verib ki, separatçılar yol hərəkəti qaydalarını pozduqlarına görə saxlanılıb, amma, protokol tərtib edilməyib, sadəcə, xəbərdarlıq edilib.

*(ardı 3-cü səhifədə)*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və bəzi fərmanlarının ləğvi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176; 2002, № 8, maddə 478; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2007, № 11, maddə 1117; 2008, № 8, maddə 719; 2010, № 10, maddə 845; 2015, № 5, maddə 541; 2017, № 3, maddə 366, № 12 (I kitab), maddə 2277; 2018, № 12, maddə 2563; 2023, № 2, maddə 238, № 3, maddə 352) 2-ci hissəsinin altıncı, doqquzuncu və iyirminci abzaslarında "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**2.** "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 134 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 304; 2004, № 1, maddə 19; 2017, № 12 (I kitab), maddə 2278) 2-ci hissəsinin üçüncü abzasında "və Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**3.** "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 185 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 495; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2019, № 2, maddə 230) 2-ci hissəsinin üçüncü abzasında "Ali Dövlət Hakimiyyəti və idarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi, öz səlahiyyətləri hüdudlarında" sözləri "Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**4.** "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 iyun tarixli 353 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 432; 2002, № 8, maddə 478; 2003, № 10, maddə 585; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2008, № 8, maddə 719; 2019, № 2, maddə 230; 2021, № 6 (I kitab), maddə 568; 2023, № 7, maddə 951) 2.4-cü bəndində "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**5.** "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241; 2020, № 7, maddə 883, № 11, maddələr 1345, 1356; 2021, № 6 (I kitab), maddə 565, № 12, maddə 1424; 2022, № 5, maddə 452, № 8, maddə 863, № 12, maddə 1406; 2023, № 1, maddə 98) 2-ci hissəsinin onuncu abzasında "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**6.** "Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 500 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 398; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2007, № 9, maddə 874; 2017, № 3, maddə 353) 2-ci hissəsinin ikinci və üçüncü abzaslarında "Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti" sözləri ilə əvəz edilsin.

**7.** "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli, 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 489; 2004, № 8, maddə 616; 2005, № 1, maddələr 15, 19; 2006, № 9, maddə 743; 2008, № 7, maddələr 612, 619, № 8, maddə 719; 2009, № 4, maddə 226; 2014, № 10, maddə 1213; 2015, № 9, maddə 977; 2016, № 1, maddə 44; 2017, № 3, maddələr 358, 381; 2018, № 6, maddə 1220, № 10, maddə 1989; 2021, № 1, maddə 41) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2-ci hissədə "xüsusi dövlət mühafizə xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizlik xidməti, xüsusi rabitə və informasiya təhlükəsizliyi dövlət xidməti, strateji obyektlərin mühafizəsi dövlət agentliyi" sözləri ilə əvəz edilsin;

7.2. həmin Fərmanla təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi şəxslərinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahı əldə etməsi, saxlaması və təyinatı üzrə istifadə etməsi Qaydaları"nın 4-1-ci hissəsinin birinci və ikinci cümlələrində "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin;

7.3. həmin Fərmanla təsdiq edilmiş "Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları"nın 3-cü hissəsinin ikinci və üçüncü cümlələrində "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin.

**8.** "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 903 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 432; 2007, № 6, maddə 601; 2008, № 9, maddə 797, № 11, maddələr 966, 969; 2014, № 4, maddə 364; 2018, № 7 (I kitab), maddə 1472; 2022, № 5, maddə 476) 2.3-cü bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**9.** "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 66 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 339) 3-cü hissəsi ləğv edilsin.

**10.** "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 104 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 612; 2005, № 8, maddə 701; 2006, № 3, maddə 231; 2008, № 11, maddə 966; 2017, № 8, maddə 1528; 2022, № 1, maddə 18) 2.5-ci və 2.6-cı bəndlərində "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**11.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485; 2006, № 11, maddə 948; 2008, № 11, maddə 969; 2009, № 4, maddə 226, № 10, maddə 785; 2010, № 2, maddə 80; 2012, № 12, maddə 1242; 2013, № 5, maddə 494, № 12, maddə 1538; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384; 2017, № 5, maddə 775, № 8, maddə 1521; 2018, № 9, maddə 1840; 2022, № 2, maddə 106, № 5, maddə 471, № 8, maddə 845, № 12, maddə 1437) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. I hissənin 2-ci bəndi üzrə:

11.1.1. doqquzuncu abzasda "dövlət mühafizəsi obyektləri" sözləri "mühafizə olunan şəxslər" sözləri ilə əvəz edilsin;

11.1.2. onuncu abzasda "mühafizə olunan" sözləri "qorunan və strateji" sözləri ilə, "dövlət mühafizəsi obyektlərinin" sözləri "mühafizə olunan şəxslərin" sözləri ilə, "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

11.1.3. on dördüncü abzas aşağıdakı redaksiyada verilsin:

"PTX – Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti;";

11.1.4. on yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda on səkkizinci və on doqquzuncu abzaslar əlavə edilsin:

"XRİTDX – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti;

SOMDA – Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.";

11.2. II hissənin 1–5-ci bəndlərinin, III hissənin 10-cu bəndinin, IV hissənin

13-cü, 16-cı, 17-ci, 23-cü, 25-ci bəndlərinin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda "XDMX" akronimi "PTX, XRİTDX, SOMDA" akronimləri ilə əvəz edilsin;

11.3. V hissə üzrə:

11.3.1. 32-ci, 34-cü, 35-ci, 36-cı, 38-ci, 39-cu bəndlərin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda "XDMX" akronimi "PTX, XRİTDX, SOMDA" akronimləri ilə əvəz edilsin;

11.3.2. 33-cü bənd üzrə:

11.3.2.1. "Dövlət sirrinə aid edilən məlumatlar" sütununda "Dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan" sözləri "Mühafizə olunan şəxslərin, qorunan və strateji" sözləri ilə əvəz olunsun və həmin sütuna "həmin" sözündən sonra "şəxslərin və" sözləri əlavə edilsin;

11.3.2.2. "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda "XDMX" akronimi "PTX, XRİTDX, SOMDA" akronimləri ilə əvəz edilsin.

**12.** "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 709; 2006, № 5, maddə 404, № 11, maddə 947; 2007, № 6, maddə 601; 2009, № 4, maddə 226; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 3, maddələr 374, 382, № 6, maddələr 1066, 1095, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2322; 2018, № 6, maddə 1237; 2019, № 7, maddə 1215; 2020, № 8, maddə 1033; 2022, № 5, maddə 471, № 8, maddələr 840, 894; 2023, № 1, maddə 93, № 2, maddə 230, № 4, maddə 479, № 9, maddə 1285) 2.9-cu bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**13.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 798, № 10, maddə 918; 2006, № 5, maddə 408; 2007, № 3, maddə 232, № 8, maddə 765; 2008, № 1, maddə 7, № 8, maddə 719; 2009, № 3, maddə 163; 2013, № 6, maddə 654; 2014, № 2, maddə 112, № 9, maddə 1027, № 10, maddə 1220; 2015, № 7, maddə 829; 2016, № 1, maddə 45, № 6, maddə 1039, № 8, maddə 1375; 2017, № 3, maddə 353, № 8, maddə 1521, № 11, maddə 1996; 2018, № 3, maddə 436, № 9, maddə 1840; 2019, № 7, maddə 1224; 2022, № 5, maddə 471, № 8, maddə 838; 2023, № 2, maddə 245, № 3, maddə 358, № 4, maddə 502, № 8 (I kitab), maddə 1149) ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı"nın "Xüsusi icazə verən icra hakimiyyəti orqanı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

13.1. 3-cü hissədə "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin;

13.2. 12-ci hissədə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin;

13.3. 17-ci hissədə "və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**14.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 228; 2009, № 11, maddə 883; 2013, № 6, maddə 631; 2016, № 9, maddə 1467; 2017, № 5, maddə 756; 2018, № 2, maddə 185, № 12 (I kitab), maddə 2580; 2019, № 2, maddə 231, № 4, maddə 653, № 7, maddə 1220, № 8, maddə 1390; 2021, № 7, maddə 740, № 8, maddə 910; 2022, № 6, maddə 610, № 12, maddə 1412; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 noyabr tarixli 2359 nömrəli Fərmanı) 2.5-ci bəndində "və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**15.** "Hərbi nəqliyyat vəzifəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 233; 2017, № 11, maddə 2013, № 12 (I kitab), maddə 2279; 2022, № 4, maddə 324) 1.4-cü bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə, "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**16.** "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 aprel tarixli 396 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 328; 2010, № 10, maddə 846; 2015, № 2, maddə 109; 2017, № 12 (I kitab), maddə 2280) 2.2-ci bəndinin ikinci abzasında "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**17.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 7 iyun tarixli 417 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 494; 2014, № 9, maddə 1027; 2017, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2304; 2018, № 10, maddə 2009, 2022, № 5, maddə 471) ilə təsdiq edilmiş "Fövqəladə hallarda, fövqəladə və ya hərbi vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

17.1. 2-ci hissənin "Telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin növü" sütununda "Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

17.2. 4-cü hissənin "Səlahiyyətli dövlət hakimiyyəti orqanının adı" sütununda "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**18.** "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının icrası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 465 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 742; 2015, № 10, maddə 1112; 2017, № 3, maddə 353) 2-ci hissəsində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**19.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 dekabr tarixli 498 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1045; 2017, № 12 (I kitab), maddə 2281; 2018, № 6, maddə 1223; 2021, № 9, maddə 987) 2-ci hissəsində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**20.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 dekabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1046; 2017, № 9, maddə 1655; 2018, № 5, maddələr 953, 970; 2022, № 6, maddə 610, № 8, maddə 867) 2.3-cü bəndi ləğv edilsin.

**21.** "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyanın tərkibinə dair bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 iyun tarixli 590 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 603; 2010, № 2, maddə 91; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 1, maddə 51, № 8, maddə 1521; 2018, № 9, maddə 1840; 2022, № 5, maddə 469; 2023, № 3, maddə 342) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

21.1. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi";

21.2. "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi" abzası aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi".

**22.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258, № 12, maddə 1058; 2009, № 2, maddə 75, № 7, maddə 532, № 8, maddə 618, № 10, maddə 776; 2010, № 2, maddə 88, № 7, maddə 610, № 8, maddə 717, № 9, maddə 770; 2011, № 4, maddə 282, № 10, maddə 891; 2012, № 8, maddə 787; 2013, № 9, maddə 1046, № 11, maddələr 1321, 1339; 2014, № 2, maddə 122, № 9, maddələr 1027, 1062; 2015, № 2, maddə 121, № 5, maddələr 521, 543, № 9, maddə 989; 2016, № 2 (II kitab), maddə 228, № 3, maddə 470, № 5, maddələr 869, 879, № 9, maddə 1464, № 10, maddə 1643, № 11, maddə 1816; 2017, № 2, maddələr 173, 185, № 5, maddələr 776, 817, № 8, maddə 1521; 2018, № 2, maddə 189, № 3, maddə 449, № 4, maddələr 662, 682, № 8, maddə 1688, № 9, maddə 1840, № 10, maddə 1985, № 11, maddə 2264, № 12 (I kitab), maddələr 2565, 2585; 2019, № 6, maddə 1009; 2020, № 6, maddə 705, № 11, maddə 1356; 2021, № 1, maddə 34, № 2, maddə 129; 2022, № 2, maddə 96, № 5, maddə 469, № 8, maddə 867) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

22.1. 8.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

"8.13. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti:

8.13.1. xaricə daimi yaşamağa getmək hüququ "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsi ilə müəyyən edilmiş qaydada məhdudlaşdırılmış dövlət sirri ilə işləməyə buraxılan və ya əvvəllər buraxılmış Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin əməkdaşları və ya sabiq əməkdaşları haqqında məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi;

8.13.2. əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi məqsədilə məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi;

8.13.3. Sistemdə tətbiq olunan informasiya mühafizə, o cümlədən şifrləmə vasitələrinə aid təkliflərin verilməsi.";

22.2. aşağıdakı məzmunda 8.13-1-ci və 8.13-2-ci bəndlər əlavə edilsin:

"8.13-1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

8.13-1.1. xaricə daimi yaşamağa getmək hüququ "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsi ilə müəyyən edilmiş qaydada dövlət sirri ilə işləməyə buraxılan və ya əvvəllər buraxılmış Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşları və ya sabiq əməkdaşları haqqında məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi;

*(ardı 5-ci səhifədə)*

# Paşinyanın “Qarabağ və qılınc” məntiqinə Sarkisyanın reaksiyası

## Yaxud xəstə erməni təxəyyülündəki sərsəmliyə sözardı

**Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan uzun müddətdir qoruduğu sükutu, nəhayət ki, pozdu. O, çoxdandı ölkənin baş naziri Nikol Paşinyana ittiham yağdıranların cərgəsində yer almırdı. Görünür, daha bekarçılıqdan bezib...**



Məlum olduğu kimi, N.Paşinyan, bir qayda olaraq, Qarabağdan danışanda bölgənin itirilməsinin qaçılmazlığı üzərində dayanır. Eyni zamanda, mövcud xüsusda özündən əvvəlki hakimiyyəti günahlandırmaq yolunu tutur. Nikol bir neçə həftə əvvəl ölkənin İctimai televiziyasında sualları cavablandırarkən də həmin fikirləri təkrarlaması ilə yadda qaldı. Bildirdi ki, 2016-cı ildən sonra Qarabağın əldən çıxması qaçılmaz idi.

Paşinyan haqlıdır, amma müəyyən mənada. Məsələ burasındadır ki, Azərbaycan cəmiyyətində hər zaman Qarabağ əzmi olub. Dövlətimiz, şəxsən Prezident İlham Əliyev illərlə bu əzmi diri saxlamağı bacarıb. Ulu öndər Heydər Əliyev, az qala, bütün çıxışlarında Qarabağa qayıdacağımızı böyük əminliklə vurğulayıb. Əlbəttə, Ermənistan hakimiyyəti – Paşinyana qədərki Koçaryan-Sarkisyan rejimi buna əhəmiyyətsiz yanaşıb...

Qeyd edək ki, erməni beyin mərkəzləri Qarabağla bağlı, hətta, nəsillərin dəyişməsi üzərinə hesablamalar aparırdılar. Təxminən on, iyirmi, otuz, qırx ildən sonra bölgə, ümumən işğal olunmuş Azərbaycan əraziləri məsələsi azərbaycanlılar arasında necə qarşılanacaq? Yəni, ümid edirdilər ki, ölkəmizin gələcək nəsli Qarabağı ümumiyyətlə unudacaq.

Paşinyan ona görə haqlıdır ki, məhz yuxarıda haqqında söz açdığımız düşüncəyə ən böyük zərbə 2016-cı ilin aprelində vuruldu. Aprel müharibəsində qazandığımız ciddi uğur həmin beyin mərkəzlərinin planlarını alt-üst etdi, hesablamalarının yanlışlığını ortaya qoydu. Məlum oldu ki, Azərbaycanın gənc nəsli üçün də Qarabağ məsələsi son dərəcə aktualdır. Cənab İlham Əliyev əbəs yerə vurğulamamışdı: “Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər”

Bəli, 2016-cı ildən sonra Ermənistanın bütün gözləntiləri, hesablamaları puç oldu. Amma, demək olmazdı ki, ölkənin o zamankı hakimiyyəti Qarabağı dinc yolla təhvil verməyi düşünürdü. Yenə də danışıqları imitasiya edirdi. Yeri gəlmişkən, bu mənada Paşinyan komandasının ekslərdən “görüb-götürdüyü” bir çox cəhətlər var. Nəzərə alaq ki, 2020-ci ildən 2023-cü ilin sentyabrınadək Ermənistanın hazırkı iqtidarı status-kvonu saxlamağa çalışırdı.

Əlqərəz,Sarkisyanın Paşinyanı Qarabağı, guya, bilərəkdən Azərbaycana verməsi ilə bağlı vurğuladıqları tam cəfəngiyyatdır. Hər halda, “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verən Paşinyan idi, Sarkisyan belə danışacaq qədər əbləh ola bilməzdi. Amma o, məsələn, Ermənistanın bütün dərsliklərində, xəritələrində Qarabağı ölkəsinin ərazisi kimi göstərmişdi. Bununla bağlı poçt markaları buraxdırmışdı. Əlqərəz, mətləbə qayıdaq.

“Düzünü desəm, bu çıxışda çoxlu yalan və saxtakarlıq gördüm. Lakin bir vacib faktı açıq şəkildə vurğulamalıyam: Ermənistanın rəhbəri Dağlıq Qarabağı bilərəkdən qurban verdiyini etiraf etdi. O, bəzi qılınclardan danışdı. Guya Dağlıq Qarabağ məsələsi Ermənistanın başının üstündə asılmış qılınc idi. Mən sadəcə, başa düşmədim ki, o, hansı qılınclardan danışır və ya onları Ermənistanın başının üstündən kim asmışdı. Dağlıq Qarabağın yekun statusu ilə bağlı beş dəfə yazılı bəyanatlar verən və məsələnin azad iradə yolu ilə həll olunmalı olduğunu deyən həmsədrlərmi? Kimdən danışırdı? Bəlkə Azərbaycana təhvil verdiyi milyardlarla dəyərində olan pulsuz silahı Ermənistana bağışlayan ölkə haqqında danışır?”, – deyən S.Sarkisyan hiddətini gizlətməyib.

Paşinyanın Qarabağ məsələsinin heç bir paketdə həll edilməməsi, 2016-cı ildən sonra artıq dövlətçiliyin ləğvi məsələsinin gündəmə gətirildiyi barədə bəyanatına toxunan eks-prezident baş naziri yalan danışmaqda ittiham edib: “Yalan deyir. Biz açıq-aydın dedik ki, bütün sənədlər əlimizdədir. Heç olmasa, bildirdiklərinin ehtiva edən bir sənəd göstərsin və desin ki, bununla Dağlıq Qarabağ problemi bağlanmışdı. Elə sənədlər var ki, onlara əsasən Dağlıq Qarabağın yekun statusu oranın öz iradəsi ilə müəyyən edilməli idi”.

BMT-nin sənədində müvəqqəti statusun ləğvinin nəzərdə tutulmasının doğru olub-olmaması ilə bağlı aydınlaşdırıcı suala Serj Sarkisyan belə cavab verib: “Xeyr, sizi inandırım ki, Kazandan sonra danışıqlarda əhəmiyyətli heç nə dəyişməyib. Hansı şəkildə ifadəsini tapmasından asılı olmayaraq, Dağlıq Qarabağın yekun statusu oranın azad iradəsi ilə müəyyən edilməli idi. Dəyişikliklər gözlənilən idi. Lakin onlar əhəmiyyətli deyildi. Dağlıq Qarabağın öz seçkili orqanları ilə respublikanın həyatını idarə etmək imkanı var idi”.

Bəli, Sarkisyanın söylədikləri artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin həlli müstəvisində yaşanmış “böyük ədalətsizlik”lərin kiçik təsvir səhnəsi idi. Onun sözlərindəki konkret məqamlar, üzərində dayanılmalı mətləb deyil. Çünki dövlətimiz heç vaxt Qarabağın bu və ya digər dərəcədə Azərbaycandan ayrı tutulmasını təsdiqləyən sənədə imza atmamışdı və atmayacaqdı da. Əsas məsələ Sarkisyanın dilə gətirdiklərindən hansı qənaətin hasil olmasıdır. Qənaət isə budur ki, Sarkisyan Paşinyanı münaqişəni uzada bilməməkdə günahlandırır. Hesab edir ki, Qarabağın “seçkili hakimiyyəti” var idi və bu, artıq dünyaya göstərilməli olan fakt və gerçəklik, hesablaşılmalı məqam sayılırdı. Yeri gəlmişkən, Paşinyan da bu ilin yayında “Qarabağın seçkili hakimiyyəti var” fikrini dilinə gətirmişdi. Yəni, ekslərin yolu ilə getmək istəmişdi. Ümumən, Ermənistan düz 2020-ci ildən başlayaraq, bölgəni ayrıca subyekt kimi vurğulamaq yolu tutmuşdu.

Sonda bir vacib məqamı vurğulayaq. Bəli, bildirdik ki, heç bir Ermənistan hakimiyyəti Qarabağı bizə xoşluqla verən deyildi və bu, tam aydındır. Əsas məqam Qarabağ məsələsinin Ermənistanın siyasi düşüncə sisteminin alt qatına yeriməsidir. Əslində, istər, Paşinyanın özündən əvvəlkiləri ittiham etməsi, istərsə də, ekslərin hazırkı baş naziri günahlandırmaları sağlam düşüncə kasadlığının təzahüründən başqa bir şey deyil. Bu tendensiya isə qorxuludur. O qədər qorxuludur ki, Ermənistanı tamamilə məhvə apara bilər. Görünür, Sarkisyan da məhv prosesini yaxınlaşdırmağa çalışanlardandır və əslində, bu, heç də təəccüblü deyil. Çünki məntiqlə Qarabağ amili, qonşuların torpaqlarına qəsb üzərində qurulmuş və belə bir xətti ideologiyaya çevirmiş müasir Ermənistan Respublikası “hədəflərinə” nail olmursa, onun məhvə məhkumluğu qaçılmazdır. Bu mənada Paşinyanın Qarabağ məsələsinin Ermənistanın başının üstündə asılmış qılınc olduğunu bildirməsində böyük həqiqət var.

***Ə.CAHANGİROĞLU***
***XQ***

(əvvəli 1-ci səhifədə)

Ermənistan qanunvericiliyinə əsasən, yalnız bu rəsmi şəxslərin kortejlə gəzmək hüququ var: baş nazir Nikol Paşinyan, parlamentin spikeri Alen Simonyan, ölkə prezidenti Vaaqn Xaçaturyan və xarici işlər naziri Ararat Mirzoyan.

Ləğv edilmiş xunta rejiminin sonuncu başçısının imzaladığı fərmanla 2024-cü il yanvar ayının 1-də Qarabağdakı separatçıların indi İrəvana sığınmış tör-töküntüləri tamamilə fəaliyyətini dayandırmalıdır. Bu barədə qərar Bakının sentyabr ayında həyata keçirdiyi antiterror tədbirlərindən sonra qəbul edilib.

Yeri gəlmişkən, onu da xatırladaq ki, bir neçə gün əvvəl erməni mətbuatı Xankəndidəki keçmiş separatçı-xunta rejiminin sonuncu “rəhbəri” Samvel Şahramanyanın, guya, qondarma qurumu buraxması barədə qərarını ləğv etdiyini yayıb. “Joğovurd” qəzeti isə Şahramanyanın “artsax”ın buraxılması barədə qərarı ləğv edən yeni sənəd imzaladığını, ki, “Qarabağ klanı”nın fəallaşmasının arxasında həm daxildəki revanşist-separatçılar, həm də xaricdəki “erməni təəssübkeşləri” dayanır. Onların əsas məqsədinin isə sülh prosesini pozmaq olduğu məlumdur.

Maraqlıdır ki, Şahramanyan özü “ictimai dövriyyəyə” buraxdığı sərsəm iddiası barədə açıqlama verməyə ürək eləmir. Yuxarıda qeyd etdiyimiz kimi, Ermənistan parlamentinin bir çox deputatları “möhürsüz” Samvel Şahramanyanın hər hansı “fərman” vermək səlahiyyətinə malik olmadığını sərt şəkildə ifadə edirlər. Onlar yaxşı anlayırlar ki, bu cür avantürist iddialar Ermənistan üçün siyasi başağrısına çevrilə bilər.

Burada maraq doğuran digər məsələ hökumətin Qarabağdan köçən ermənilərə ayırdığı büdcə vəsaitinin necə xərclənməsidir. Axı rəsmi İrəvan 100 minlik köçkün ordusu üçün xaricdən də əlavə maliyyə mənbələri axtarırdı. Bu məqsədlə Fransadan, ABŞ-dan on milyonlarla dollar vəsaitin köçürüldüyü barədə xəbərləri rəsmi media qurumları yaymışdı. Bəs həmin pulların aqibəti necə oldu? Deyəsən, əsl məqsəd bu vəsaitin arxasına keçməkdir.

# “Ostap Benderin möhürü”





amma hələlik həmin sənədin ictimaiyyətə açıqlanmadığı barədə yazıb.

Şahramanyanın razılaşdırılmamış “özbaşınalığına” rəsmi İrəvanın reaksiyası özünü çox gözlətməyib. Parlamentdə Paşinyanın başçılıq etdiyi “Mülki Müqavilə” partiyasının deputatı Artur Hovhannisyan “möhürlü, amma portfelsiz dövlət başçısının” cəfəng “qərarına” sərt reaksiya verib. O, ölkələrində yalnız Ermənistan hakimiyyət nümayəndələrinin fərman və sərəncamlar imzalama səlahiyyətində olduğunu bildirib. Onun ardınca milli assambleyadakı “Şərəfim var” fraksiyasının deputatı Tiqran Abramyan məlum hadisə ilə bağlı ikibaşlı bəyanat verib: “Hökumət xırda oğru rolunu oynayaraq “artsax”-la bağlı simvola, institusional quruma bənzəyən hər şeyi məhv etmək istəyir. Bunun üçün əlindən gələni edir. Mesaj açıqdır, “artsax prezident institutu” və ya “artsax hakimiyyəti” artıq yoxdur”.

***

Abramyan haqlıdır. Ermənistan hakimiyyəti Samvel Şahramanyanın maşınını saxlamaqla “artsax artıq yoxdur” mesajını verir. Amma bu mesajı verməyə İrəvanı hansı qüvvənin təhrik etdiyini bilmirik. Sadəcə olaraq, Şahramanyanın “özbaşınalığına” rəsmi İrəvanın bu cür reaksiyasından saxtakarlığın və “erməni hiyləgərliyinin” qoxusu gəlir. Nə olursa-olsun, bu məsələ artıq onların daxildə həll etməli olduqları işdir. Kənardan görünən odur

İlya İlf və Yevgeni Petrovun “12 stul” əsərindəki xarizmatik fırıldaqçı, məşhur “cinayətkar qəhrəman” Ostap Bender brilyantların gizlədildiyi 12 stuldan birinin axtarışına çıxır və bu axtarış çeşidli macəralarla müşayiət olunur. Baş qəhrəman həmin stulu ələ keçirməkdən ötrü yüz oyundan çıxır, insanlara min cür kələk gəlir. Bu zaman o, stul komplektinə malik hansısa evin yiyəsi, yaxud mülkün sahibi ilə yanaşı, bütöv kütləni belə aldatmaqdan çəkinmir, hətta istəyinə nail olur. Deyəsən, Şahramanyan da Ostap Benderin “zəngin təcrübə”sindən bəhrələnərək, hoqqabazlığın işinə yarıyacağını düşünürmüş. Fəqət “brilyantaxtaran” adamyeyən Elloçkanın başını tovlayıb, adi çaydanı xəzinənin gizlədildiyi ehtimal olunan stulla dəyişdirməyi bacarmışdısa, bu, heç də o demək deyil ki, cibində “ölü möhür” gəzdirən Şahramanyan eyni dələkliyi Qarabağ ermənilərinin başında edə bilər. O, artıq “möhürünü və mürəkkəbqabını” rahatlıqla İrəvanın mərkəzi küçələrindəki zibil qutularından birinə tullaya bilər. Amma həmin ünvana maşınsız getməyi məsləhətdir. Yoxsa, Ermənistan DİN bu dəfə onu “ictimai asayişi pozduğuna görə” həbs edə bilər.

***İ.HƏSƏNQALA***
***XQ***

**Replika**

# Qoymayın, üstümüzə kiçik Kennedi gəlir...

## Yaxud balaca Robertin böyüməyəcək arzularına rekviyem əvəzi

**ABŞ-da seçkiqabağı mühit dinamik olur. Bu dinamikliyə rəng qatan namizədlərdir. Onların içərisində isə mütləq bir bambılı tapılır. Ancaq əvvəlki dövrlərlə müqayisədə hazırda bambılıların sayı bir deyil, ikidir. Birincini tanıyırsınız. Söhbət hind əsilli Vivek Ramasvamidən gedir. 38 yaşlı Vivekin erməni təəssübkeşi olduğu məlumdur. Ancaq bu yazıda biz ikinci bambılıdan söz açacağıq.**

Yəqin, Kennedi soyadı hər kəsə yaxşı məlumdur. O da məlumdur ki, ABŞ prezidenti olmuş Con Kennedi 1968-ci ildə sui-qəsd nəticəsində qətlə yetirilmişdi. İndi həmin Kennedinin qardaşı oğlu kiçik Robert Kennedi ABŞ-ın dövlət başçısı olmağa iddialıdır. Roma papasından daha çox katolik olmağa da, həmçinin. Yəni, o, ermənilərin özündən də betər ermənıyə çevrilməyi hədəf seçib. Bambılılıq da elə bundadır.

Beləliklə, kiçik R.Kennedi özünün “X” sosial şəbəkəsindəki hesabında bildirib ki, “ABŞ hökuməti beynəlxalq ictimaiyyəti Qarabağ ermənilərinin öz ata-baba yurdlarına təhlükəsiz qayıtmalarını təmin etmək və ərazinin öz müqəddəratını təyinetmə hüquqlarını qorumaq üçün addımlar atmağa səfərbər etməlidir”.

Əlbəttə, Azərbaycan cəmiyyəti üçün ABŞ prezidentliyinə namizədlərin erməni təəssübkeşliyi tanış mənzərədir. Hazırkı Prezident Cozef Baydenin də bir vaxtlar bu sayaq davrandığının şahidinə çevrilmişdik. Ancaq, bir qayda olaraq, erməni qövmündə illüziya yaradan belə fikirlər sonradan gerçəkliklə uzlaşmır və haylarda dərin xəyal qırıqlığı yaradır. Heç şübhəsiz, R.Kennedi də prezident seçiləcəyi təqdirdə, vəziyyət göstərdiyimiz kimi olacaq. Əsas məsələ isə bu cür məsuliyyətsizlərin Birləşmiş Ştatlarda ali vəzifə tuta bilməsidir. Görünür, ABŞ liberalizmi özünün deqredasiya mərhələsini yaşamaqdadır...

R.Kennedinin, görünür, tarix bir yana, beynəlxalq hüquqdan belə anlayışı yoxdur. Xəbəri yoxdur ki, qədim Azərbaycan torpağı olan Qarabağ, həm də beynəlxalq hüquqla ölkəmizin ərazisidir və təmsil etməyə çalışdığı ölkə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyıb. Görünür, Birləşmiş Ştatlardakı erməni lobbi və diaspor təşkilatlarının təmsilçiləri onun beynini necə doldurublarsa, bu prinsipləri saymazdan gəlir. Saymazdan gəlir və onların tirtajladıqları tezisləri təkrarlayır. Məsələn, bildirir ki, guya, Azərbaycan 2020-ci ildən başlayaraq, Qarabağ ermənilərinə qarşı amansız etnik təmizləmə siyasəti aparmaqdadır. Daha sonra isə çərənləyir ki, bu ilin sentyabrında Azərbaycan hücuma başlayıb və 120 minlik erməni əhalisini bütünlüklə qovub. Çox güman, antiterror tədbirlərinin bitdiyindən xəbərsizdir. Gələn çıxışlarında “qəhrəman artsaxlıların” Azərbaycana qarşı hələ də mübarizə apardıqlarını, döyüşdüklərini yazsa, qətiyyən təəccüblənmərik. Ağzına gələni deyə, təfəkkürününün ən mücərrəd guşəsində bəslədiyi primitivliyi yazıya çevirə, hər cür məsuliyyətsiz bəyanat səsləndirə bilər. Axı, ABŞ prezidentliyinə namizəddir...

Göründüyü kimi, kiçik Kennedi məsələyə daha “sistemli” yanaşmaqdadır. Hiss olunur ki, erməni lobbisi onu yaxşı təlimatlandırıb. Hər halda, Qarabağı “ən qədim erməni ərazisi” adlandırması sıradan bir deyim sayıla bilməz. Onun “sistemli” yanaşması baxımından növbəti detal erməni məsələsini İsrail–HƏMAS müharibəsindən üstün tutmasıdır. Üstün tutur və ittiham yağdırır. Sən demə, dünya “ermənilərin Qarabağdan qovulmalarına” biganə münasibət bəsləyirmiş. Bu, tipik erməni avantürizminin zay məhsulu olan ifadədir.

Ardınca R.Kennedi obrazlı desək, barıtı bir qədər də artırır və təxminən belə bir fikir işlədir: Qarabağdakı etnik təmizləməni boş-boş pisləmək kifayət deyil, durumu köklü şəkildə dəyişmək üçün sözdən əmələ keçmək şərtdir. “Bu, dinc sanksiyaların işə yaraya biləcəyi bir vəziyyətdir. Birləşmiş Ştatlar bu regionda hələ də təsir rıçaqlarına malikdir və o, bu gücdən humanitar faciəni aradan qaldırmaq, regiondakı bütün xalqları səfərbər etmək üçün istifadə edə bilər”.

Hər şey bir yana, görəsən, ABŞ regiondakı hansı xalqları Azərbaycana qarşı səfərbər edəcəkmiş? Bu adamın Cənubi Qafqazdan, deyəsən, heç xəbəri yoxdur və bu təfəkkür sahibi Birləşmiş Ştatların prezidenti olmağa iddialıdır. Həqiqətən, çox gülünc mənzərədir. Daha gülməlisi isə kiçik R.Kennedinin Ermənistanın



dənizə çıxışının təmin edilməli olduğuna dair yazdıqlarıdır. Belə getsə, adam “dənizdən dənizə böyük Ermənistan” qurmaqdan da söz salacaq.

Amma hələlik bildirir ki, Amerika Türkiyə və Azərbaycan tərəfindən Ermənistanın blokadasını aradan qaldırmağın yollarını axtarmalıdır. Sən demə, dənizə çıxışı olmayan Ermənistanın qonşu ölkələrin limanlarına çıxışı olmalıdır. Elementar sual yaranır: qonşu ölkələr Ermənistana öz limanlarından istifadə imkanı yaratmırlarsa, buna ABŞ nə edə bilər? Ümumiyyətlə, nə isə edə bilərmi? Hələ biz soruşmuruq ki, Ermənistan öz problemini niyə özü həll etmir? Görünür, ona görə həll etmir ki, kiçik R.Kennedinin ABŞ prezidenti seçilməsini gözləyir. Gözləyir ki, bu şəxs Ermənistanın başının üstündəki “qara buludları dağıtsın”. Axı, adam əminlik yaradır: ABŞ prezidenti postuna seçilsəm, Ermənistan Respublikasının və Qarabağın bərpasına töhfə verəcəm.

Əlbəttə, cənab Kennedi Qarabağın bərpasına töhfə verməyi çox arzulayırsa, ona şərait yaratmaq mümkündür. Yəni, bunun üçün zəhmət çəkib ABŞ prezidenti olmağına heç bir ehtiyac yoxdur. Məsələn, gəlib Qarabağdakı tikinti briqadalarının birində palçıq qarışdıran işləyə bilər. Onsuz da bu ağılla başqa işə yaramaz. Əbəs yerə dünyanı, xüsusən də Cənubi Qafqazı qarışdırmağa çalışmasın. Qarışdırmaqdan söz düşmüşkən, R.Kennedi Ermənistana və “Qarabağın müstəqilliyinin tanınmasına” necə kömək göstərəcəyindən də yazıb. Sən demə, bunun üçün diplomatiyadan, iqtisadi rıçaqlardan, sanksiyalardan və ABŞ-ın mənəvi nüfuzundan istifadə edəcəkmiş. Mənəvi nüfuz – bu da təzə çıxdı, deyəsən.

Amma güman edirik ki, namizədin bir sözü ermənilərin xoşuna gəlməyəcək. O, ən sonda deyir ki, Qarabağa və Ermənistana kömək üçün dinc vasitələrdən yararlanacaq. Bu boyda odlu-alovlu danış-danış, axırda da de ki, dinc vasitələrdən yararlanacam. Heç şübhəsiz, bu mətni oxuyan sıravi erməni avantüristi, heç nə bildirməsə də, əlini əlinə vurub bu sözü mütləq deyəcək: “Ayə, sən Allah bəsdi, boş-boş danışma!”.

Sonda xatırladaq ki, ABŞ-da prezident seçkiləri 2024-cü il noyabrın 5-nə təyin edilib. Güman edirik ki, kiçik R.Kennedi o zamanadək özünün erməni sevdasının təsviri baxımından daha “fundamental yeniliklərə” imza atacaq. Yəni, hələ vaxta var. Təkrar düşünmək, düz yola qayıtmaq üçün də həmçinin.

***Əvəz RÜSTƏMOV***
***XQ***

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və bəzi fərmanlarının ləğvi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

**(əvvəli 2-ci səhifədə)**

8.13-1.2. əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi məqsədilə məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi;

8.13-1.3. Sistemdə tətbiq olunan informasiya mühafizə, o cümlədən şifrləmə vasitələrinə aid təkliflərin verilməsi;

8.13.1.4. fəaliyyət istiqamətlərinə uyğun olaraq sistemdaxili audit fəaliyyətinin həyata keçirilməsi.

8.13-2. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi:

8.13-2.1. xaricə daimi yaşamağa getmək hüququ "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsi ilə müəyyən edilmiş qaydada dövlət sirri ilə işləməyə buraxılan və ya əvvəllər buraxılmış Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşları və ya sabiq əməkdaşları haqqında məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi.";

22.3. 9-cu hissədə "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**23.** "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 dekabr tarixli 361 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1061; 2014, № 9, maddə 1027; 2017, № 8, maddə 1521; 2019, № 2, maddə 231; 2022, № 5, maddə 470) 3.2-ci bəndində "Dövlət Mühafizə Xidməti öz səlahiyyətləri daxilində" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**24.** "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793; 2014, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1194; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 384, № 5, maddə 761, № 7, maddələr 1322, 1335, № 8, maddə 1521; 2018, № 5, maddə 906, № 9, maddə 1844, № 12 (I kitab), maddə 2609; 2020, № 5, maddə 560; 2021, № 6 (I kitab), maddə 596; 2022, № 5, maddə 470, № 8, maddə 844, № 12, maddə 1447; 2023, № 7, maddə 977) 28.9-cu bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**25.** "Azərbaycan Respublikası dövlət orqanlarının internet informasiya ehtiyatlarının və elektron poçt ünvanlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 19 iyun tarixli 654 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 548) 2-ci və 3-cü hissələrində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**26.** "Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" Azərbaycan Respublikasının 2012-ci il 12 iyun tarixli 376-IVKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 19 iyun tarixli 664 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 558) 3.1-ci bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin.

**27.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 844; 2016, № 7, maddə 1264; 2019, № 3, maddə 418) ilə təsdiq edilmiş "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"nin 1.2-ci bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**28.** "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2253; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217; 2022, № 5, maddə 475, № 10, maddə 1153, № 11, maddə 1264; 2023, № 1, maddə 84, № 2, maddə 245, № 5, maddələr 658, 665, № 7, maddələr 957, 969, № 8 (I kitab), maddə 1176; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 noyabr tarixli 2352 nömrəli Fərmanı) 7-ci hissəsində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**29.** "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 dekabr tarixli 794 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1268; 2013, № 7, maddə 800, № 12, maddə 1511; 2016, № 2 (II kitab), maddə 262; 2017, № 6, maddə 1091, № 10, maddə 1807; 2018, № 3, maddə 432, № 6, maddə 1217, № 10, maddə 2011; 2019, № 12, maddə 1951) 1 – 4-cü hissələri ləğv edilsin.

**30.** "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 107; 2014, № 9, maddə 1027; 2017, № 8, maddə 1521, № 11, maddə 1994; 2022, № 5, maddə 474) 6-cı hissəsində "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**31.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 mart tarixli 833 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 235; 2014, № 9, maddə 1027; 2017, № 3, maddə 353; 2018, № 9, maddə 1839; 2019, № 3, maddə 410, № 12, maddə 1928; 2021, № 12, maddə 1430; 2022, № 5, maddə 476) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin 3.1.12-ci yarımbəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**32.** "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 803; 2014, № 9, maddə 1050, № 11, maddələr 1382, 1413, № 12, maddə 1588; 2015, № 10, maddə 1121; 2016, № 6, maddələr 1020, 1044, № 11, maddə 1827; 2018, № 7 (I kitab), maddə 1476; 2019, № 7, maddə 1240; 2020, № 6, maddə 703; 2021, № 1, maddə 36; 2023, № 2, maddə 237, № 3, maddə 351, № 5, maddə 643) 5.5-ci bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**33.** "Uyğun milli teletibb sistemlərinin yaradılması, onların gələcək inkişafı və istifadəsində MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığı haqqında" Sazişin təsdiqi və həmin Saziş üzrə səlahiyyətli orqanların müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 138 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 354) 2-ci hissəsində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**34.** "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1053-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 21 noyabr tarixli 365 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1405; 2017, № 12 (I kitab), maddə 2283) 3-cü hissəsində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**35.** "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 125; 2017, № 2, maddə 175, № 7, maddə 1349, № 11, maddə 2016; 2018, № 8, maddə 1689; 2019, № 4, maddə 660; 2021, № 4, maddə 317, № 5, maddə 445) 7-ci hissəsində "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**36.** "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 aprel tarixli 503 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 382; 2016, № 5, maddə 858, № 7, maddə 1265; 2017, № 8, maddə 1521; 2022, № 5, maddə 472) aşağıdakı dəyişikliklər edilsin:

36.1. 6-cı hissədə "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

36.2. həmin Fərmanla təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemindən istifadə qaydaları" üzrə:

36.2.1. 5.1.2-ci yarımbənddə "Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin;

36.2.2. 6.2-ci bənddə "Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**37.** "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 39-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 yanvar tarixli 727 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 49, № 8, maddə 1379; 2019, № 1, maddə 53; 2022, № 4, maddə 324) 2.2-1-ci bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**38.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505, № 6, maddə 795, № 7 maddələr 946, 953, 976, № 8, maddələr 1139, 1166, 1180; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 dekabr tarixli 2380 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

38.1. 4.4-cü və 4.47-2-ci bəndlərdə "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

38.2. 4.13-cü bənddə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin;

38.3. 4.47-1-ci bənddə "və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**39.** "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1019; 2017, № 2, maddə 172, № 6, maddə 1099; 2021, № 1, maddə 43) 7-ci hissəsində "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**40.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1641; 2017, № 6, maddə 1098, № 12 (I kitab), maddə 2273; 2018, № 4, maddə 663, № 10, maddə 1987; 2019, № 4, maddə 612; 2021, № 9, maddə 982) ilə təsdiq edilmiş "ASAN Viza" sistemi haqqında Əsasnamə"nin 6.14-cü bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**41.** "Azərbaycan Respublikasının "Şücaətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 356-VQD nömrəli Qanununun tətbiqi və "Hərbi xidmət sahəsində bəzi medallarla təltif edilmə qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 25 iyun tarixli 282 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1143 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2061) 2-ci hissəsində "və Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**42.** "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 366-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 dekabr tarixli 1152 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2070) 3-cü hissəsi ləğv edilsin.

**43.** "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 52; 2019, № 11, maddə 1715; 2022, № 8, maddə 857) 4.3-cü bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**44.** "Rəqəmsal ticarət qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 199; 2018, № 6, maddə 1236; 2021, № 1, maddə 43; 2022, № 12, maddə 1442; 2023, № 2, maddə 245, № 8 (I kitab), maddə 1147) 1.6-cı bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**45.** "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 504-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 mart tarixli 1286 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 364) 3.2-ci bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**46.** "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1317 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 531) 2.4-cü bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**47.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407,1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505, № 6, maddə 795, № 7, maddələr 946, 953, № 8 (I kitab), maddələr 1139, 1166, 1172, 1179, 1180, № 9, maddə 1284; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 4 dekabr tarixli 2370 nömrəli və 13 dekabr tarixli 2380 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

47.1. 55-2.4-cü bənddə "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin;

47.2. 55-2.7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 55-2.8-ci və 55-2.9-cu bəndlər əlavə edilsin:

"55-2.8. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti adından – Xidmətin rəisi, onun müavinləri, Xidmətin Aparatının müvafiq strukturlarının rəhbərləri (rəisləri);

55-2.9. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi adından – Agentliyin rəisi, onun müavinləri, Agentliyin Aparatının müvafiq strukturlarının rəhbərləri (rəisləri).";

47.3. 65-1-ci hissədə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə, "Feldyeger Rabitəsi İdarəsinin" sözləri "Xidmətin Aparatının müvafiq strukturunun" sözləri ilə əvəz edilsin.

**48.** "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1645; 2019, № 6, maddə 1031; 2021, № 1, maddə 44; 2022, № 5, maddə 467, № 8, maddə 856; 2023, № 2, maddə 245, № 8 (I kitab), maddə 1147) 5.3-cü bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**49.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 968-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1806 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 170) 4.2-ci bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**50.** "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 mart tarixli 1885 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 435; 2022, № 11, maddə 1264) 6-cı hissəsində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**51.** "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət qurumlarına təqdim etdiyi hesabatların formaları və onların təqdim edilməsi Qaydası"nın və "Dövlət qurumlarının dövlət xəzinədarlığı məlumatlarına real vaxt rejimində çıxışının təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 may tarixli 72 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 940, № 12 (I kitab), maddə 2556; 2019, № 5, maddə 834; 2022, № 8, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:

***(ardı 6-cı səhifədə)***

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və bəzi fərmanlarının ləğvi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

**(əvvəli 5-ci səhifədə)**

51.1. 6-cı hissədə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin;

51.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət qurumlarının dövlət xəzinədarlığı məlumatlarına real vaxt rejimində çıxışının təmin edilməsi Qaydası"nın 3.1 – 3.3-cü bəndlərində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**52.** "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908, № 12, maddələr 1369, 1416; 2022, № 4, maddələr 305, 306, № 5, maddələr 443, 448, № 10, maddə 1136, № 12, maddə 1438; 2023, № 1, maddə 89, № 2, maddə 245, № 3, maddə 359, № 4, maddə 474, № 6, maddə 781, № 7, maddə 959) 10.1-ci bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**53.** "Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 258 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1821) 2.3-cü bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**54.** "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2014; 2020, № 4, maddə 399; 2021, № 9, maddə 977; 2022, № 5, maddə 462) 2-ci və 9-cu hissələrində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**55.** "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 10 yanvar tarixli 462 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 52) 3.2-ci bəndi ləğv edilsin.

**56.** "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi tibb sahəsində təhsil və əməkdaşlıq haqqında Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 20 fevral tarixli 534 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 233) 2-ci hissəsində "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**57.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 fevral tarixli 535 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 234) ilə təsdiq edilmiş "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"nin 5.15-ci bəndində "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**58.** "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1010; 2020, № 8, maddə 1043; 2022, № 5, maddə 463) aşağıdakı dəyişikliklər edilsin:

58.1. 6-cı hissədə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin;

58.2. həmin Fərmanla təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"nın 9-cu hissəsi üzrə:

58.2.1. beşinci abzasda "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

58.2.2. səkkizinci abzasda "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**59.** "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940; 2020, № 7, maddə 897, № 9, maddə 1147; 2022, № 3, maddə 228, № 9, maddə 1036; 2023, № 4, maddələr 486, 489) 2.2-ci bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

**60.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251; 2022, № 8, maddələr 874, 885; 2023, № 7, maddə 945) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 3.0.17-ci yarımbəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**61.** "e-KOB evi" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 9 avqust tarixli 1415 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 907; 2022, № 5, maddələr 448, 464) 3.3-cü bəndinə "Təhlükəsizliyi" sözündən sonra "Dövlət" sözü əlavə edilsin.

**62.** "Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi haqqında Əsasnamənin və Agentliyin strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 28 noyabr tarixli 752 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1112; 2016, № 2 (II kitab), maddə 263; 2019, № 12, maddə 1951) ləğv edilsin.

**63.** "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi haqqında Əsasnamənin, onun strukturunun, habelə hərbi qulluqçularının və mülki işçilərinin ümumi say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 fevral tarixli 1227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 171; 2018, № 10, maddə 2021; 2022, № 8, maddə 871) ləğv edilsin.

**64.** "Hərbi xidmət sahəsində bəzi medallarla təltif edilmə qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 25 iyun tarixli 282 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 6, maddə 483; 2007, № 6, maddə 661; 2008, № 6, maddə 486; 2012, № 11, maddə 1098; 2016, № 12, maddə 2061; 2018, № 3, maddə 482) 1-ci hissəsində "və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisinə, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisinə və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**65.** "Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 17 sentyabr tarixli 394 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 712; 2005, № 4, maddə 300, № 6, maddə 494; 2007, № 10, maddə 1009; 2009, № 7, maddə 589; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384; 2018, № 8, maddə 1677; 2019, № 2, maddə 294; 2022, № 12, maddə 1516; 2023, № 3, maddə 391) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

65.1. "Azərbaycan Respublikası daxili işlər nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini";

65.2. "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin müavini" abzası aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi rəisinin müavini".

**66.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 mart tarixli 2715 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 208; 2009, № 2, maddə 66; 2016, № 6, maddə 1090; 2017, № 9, maddə 1699; 2018, № 7 (II kitab), maddə 1516; 2019, № 6, maddə 1125; 2020, № 1, maddə 58; 2021, № 2, maddə 150; 2022, № 8, maddə 926) ilə təsdiq edilmiş "Ezamiyyə xərclərinin 1 günlük normalarına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

66.1. 2-ci və 3-cü hissələrin "Rəhbər işçinin vəzifəsi" sütununda "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin;

66.2. "Qeyd" hissəsi üzrə:

66.2.1. 2-ci bəndə "edilmiş" sözündən sonra "təsdiqedici" sözü əlavə edilsin;

66.2.2. aşağıdakı məzmunda 5-ci bənd əlavə edilsin:

"5. Mühafizə olunan şəxslərin səfərləri zamanı təhlükəsizliyi təmin edən Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşlarının mehmanxana xərcləri təqdim edilmiş təsdiqedici sənədlərə əsasən faktiki xərclərə uyğun olaraq ödənilir.".

**67.** "2008-ci il oktyabrın 10-da Bişkek şəhərində Azərbaycan Respublikası tərəfindən qeyd-şərt ilə imzalanmış "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 1187 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 993) 2-ci hissəsində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinə, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinə" sözləri ilə və "etsin" sözü "etsinlər" sözü ilə əvəz edilsin.

**68.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 275; 2019, № 5, maddələr 877, 899; 2020, № 8, maddə 1065, № 11, maddə 1377; 2022, № 5, maddə 532, № 8, maddə 912; 2023, № 3, maddə 390) ilə təsdiq edilmiş "2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

68.1. 5.3.2-ci yarımbənddə "XDMX" akronimi "XRİTDX" akronimi ilə əvəz edilsin;

68.2. "Akronimlər" hissəsində "XDMX – Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "XRİTDX – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**69.** "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 571; 2019, № 2, maddə 306, № 6, maddə 1129; 2022, № 5, maddə 532; 2023, № 3, maddə 390) aşağıdakı dəyişikliklər edilsin:

69.1. 1-ci hissədə "Dövlət Mühafizə Xidməti rəisinin müavini - Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin;

69.2. 2-ci hissədə "Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin.

**70.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1276; 2020, № 12 (III kitab), maddə 1537; 2023, № 3, maddə 390, № 4, maddə 534) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın "4. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər planı" hissəsinin 4.4.33-cü yarımbəndində "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 dekabr 2023-cü il**

## Şabran rayonunun Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi (11 km)–Ağalıq–Daşlıyataq–Günəşli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Dörd min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi (11 km)–Ağalıq–Daşlıyataq–Günəşli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,0 (bir) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 dekabr 2023-cü il**

## Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 350,0 (üç yüz əlli) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 dekabr 2023-cü il**

## Masallıda MSK-nın regional seminarı

**Gələn il fevralın 7-də ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçkilərin şəffaf, azad və ədalətli təşkili məqsədilə Mərkəzi Seçki Komissiyası paytaxt Bakı ilə yanaşı, regionlarda da tədbirlər təşkil edir.**

Mərkəzi Seçki Komissiyasının Hüquq və İnsan Haqları İnstitutu ilə birgə layihəsi çərçivəsində "Seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr edilən" növbəti regional seminar Masallı rayonunda baş tutub.



Tədbirdə Hüquq və İnsan haqları üzrə mütəxəssislər, eləcə də region üzrə 19 dairə seçki komissiyasından Ekspert qruplarının üzvləri iştirak edib.

Mərkəzi Seçki Komissiyasının üzvü Tofiq Həsənov seminarda "Seçki hüquqlarının pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırması prinsipləri" mövzusunda geniş məruzə edilib.

Hüquq və İnsan Haqları İnstitutunun Ekspert şurasının üzvü Vəfaddin İbayev "Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququ (I hissə)" mövzusunda təqdimatla çıxış edib.

Həmçinin iştirakçılar əyani vəsaitlərdən istifadə etməklə bağlı ətraflı məlumatlandırılıblar.

Digər çıxış edənlər "Seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması, Ekspert qruplarının fəaliyyətinin əsasları", "Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququ (II hissə)", seçkilərlə bağlı Ekspert qruplarının fəaliyyətlərinin əsasları, kazuslar üzrə praktiki məşğələlər, sınaq testlərin həlli və digər məsələlər barədə məlumat verib.

Tədbirin praktiki hissəsi başa çatandan sonra MSK nümayəndələri seçki qanunvericiliyi və ekspert fəaliyyəti ilə bağlı kazuslar üzrə məşğələlər keçib, dairə seçki komissiyalarının üzvləri sınaq testlərinin həllinə cəlb olunublar.

Ekspert qrupunun üzvləri üçün hazırlanan, onlara yardımçı olacaq yeni yaddaş kitabçası paylanılıb.

***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının ötən illərdə əldə etdiyi nailiyyətlər dünya azərbaycanlıları üçün sevindirici və qürurvericidir.

Cənab Prezident, Siz xaricdəki Azərbaycan diasporuna hər zaman xüsusi diqqət göstərirsiniz. "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif edilənlər sırasında ABŞ-da diaspor fəalı olaraq mən də varam. Bu diqqət Azərbaycan həqiqətlərinin Birləşmiş Ştatlarda yayılması, ölkəmizin təbliği işində məni daha çox ruhlandırır.

Fürsətdən istifadə edərək Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Sizə uzun ömür, cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər və qarşıdan gələn prezident seçkilərində qələbə arzulayıram.

**Dərin hörmətlə,**

***Bədir MƏMMƏDLİ,***
***ABŞ Azərbaycanlıları Şəbəkəsinin həmtəsisçisi və İdarə Heyətinin üzvü***

*

**Möhtərəm cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə davamlı uğurlar diləyirəm.

Sizin müdrik rəhbərliyiniz və komandanlığınızla 44 günlük Vətən müharibəsində qazanılan Zəfərlə torpaqlarımız işğaldan azad olundu, bu ilin sentyabrında cəmi bir sutka ərzində keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Bu möhtəşəm nailiyyət ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə ən böyük töhfə oldu.

Sizin Xankəndidə, Xocalıda və digər ərazilərdə Dövlət Bayrağımızı ucaltmağınızı biz – xaricdə yaşayan azərbaycanlılar böyük qürurla izlədik. Sizin uzun illər davam edən və neçə-neçə nəslə acı talelər yaşadan böyük bir münaqişəni kökündən həll etməyiniz Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Möhtərəm cənab Prezident, 2024-cü ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkilərində Sizə uğurlar arzu edir və inamlı qələbənizə inanırıq. Biz – Avropada yaşayan azərbaycanlılar Vətən üçün qəti sözünü deməyə heç vaxt çəkinməyən rəhbərimizlə fəxr edirik.

**Dərin hörmətlə,**

***Sahil QASIMOV,***
***Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti***

*

**Zati-aliləri, hörmətli cənab Prezident.**

Böyük Britaniyadakı Azərbaycan icması və "Qarabağ" məktəbinin kollektivi adından və şəxsən öz adımdan Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırıram. Sizə möhkəm cansağlığı, tükənməz enerji və sevimli ölkəmizə xidmətdə davamlı müvəffəqiyyətlər arzulayırıq.

Siz Azərbaycan xalqının vətənpərvər və fədakar oğlu, müdrik liderimiz, zəmanəmizin görkəmli siyasi xadimisiniz. Sizin rəhbərliyinizlə rəşadətli ordumuzun Vətən müharibəsində qazandığı Qələbə nəticəsində torpaqlarımız işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu, keçmiş məcburi köçkünlərin yurd həsrətinə son qoyuldu. Çox fərəhli haldır ki, ölkəmizin suverenliyinin tam bərpa edilməsi ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilinə təsadüf etdi. Bu, Sizin rəhbərliyinizlə əldə olunan möhtəşəm nailiyyətlərin sübutudur.

Cənab Prezident, Sizi, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirik. Sizin dünya azərbaycanlılarına diqqət və qayğınız bizi tarixi Vətənimizin uğurları ilə fəxr etməyə ruhlandırır, fəaliyyətimizi daha da stimullaşdırır. Gələn il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində Sizin namizədliyinizə yekdil dəstəyimizi ifadə edirik. Əminik ki, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə qarşıdakı illərdə daha böyük uğurlar əldə edəcəkdir.

**Dərin hörmətlə,**

***Fəridə PƏNAHOVA,***
***Britaniya Azərbaycan Cəmiyyətinin rəhbəri***

*

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi, möhkəm cansağlığı, ailə səadəti, firavanlıq və əmin-amanlıq arzularımızı çatdırırıq.

Sizin ölkəmizə fədakar rəhbərliyiniz sayəsində böyük uğurlar əldə olunub.

Sizə minnətdarlığımızı bildirir, qarşıya qoyduğunuz məqsədlərə çatmaqda tükənməz enerji və müvəffəqiyyətlər arzulayırıq. Rəhbərliyinizin bundan sonra da xalqımızın tərəqqisinə töhfələr verəcəyinə əminik. Sizin müdrikliyiniz və qətiyyətiniz bundan sonra da hamımıza nümunə olacaqdır.

2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərində dünya azərbaycanlıları olaraq Sizi dəstəkləməyə hazırıq.

Qarabağ Azərbaycandır!

**Dərin hörmətlə və xoş arzularla,**

***Almaniyada fəaliyyət göstərən "Xarı-Bülbül" Azərbaycan Mədəniyyət Evinin kollektivi***

*

**Möhtərəm cənab Prezident.**

Sizi Fransada yaşayan azərbaycanlılar, o cümlədən Lion şəhərində fəaliyyət göstərən Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının rəhbərliyi və bütün üzvləri adından doğum gününüz münasibətilə təbrik edirik. Siz adı tarixə qızıl hərflərlə yazılan sərkərdəsiniz. Otuz ilə yaxın müddətdə işğal altında qalmış Qarabağımızı Azərbaycan xalqına qaytardınız, müasir tariximizdə unudulmaz zəfərə imza atdınız. Bu il Qarabağın digər ərazilərinin də azad edilməsi və beləliklə, suverenliyimizin tam təmin edilməsi ili kimi daim xatırlanacaq. Buna görə Sizə minnətdarıq. Siz Azərbaycanın həll edilməsi çox çətin görünən böyük bir problemini birdəfəlik olaraq həll etdiniz və beynəlxalq arenada dövlətimizin mövqeyini daha da möhkəmləndirdiniz.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, uzun ömür, işlərinizdə müvəffəqiyyətlər arzu edirik. Siz Prezident kimi fəaliyyətinizin ilk günündən dövlətimizin gücünə güc qatdınız. Biz, dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlılar həmişə Sizin siyasətinizi dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Biz birlikdə güclüyük!

**Dərin hörmətlə,**

***Günel SƏFƏROVA,***
***Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının rəhbəri, Aytən MURADOVA,***
***Assosiasiya rəhbərinin müavini***

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Sizin həyata keçirdiyiniz düşünülmüş və uzaqgörən siyasət, atdığınız müdrik addımlar sayəsində Azərbaycan tarixinin ən şanlı səhifəsi yazılmış, 30 illik işğala son qoyularaq əzəli torpaqlarımız azad olunmuşdur. Bu uğurlar Vətəndən uzaqda yaşayan azərbaycanlılar tərəfindən də böyük qürurla və rəğbətlə qarşılanmışdır.

Sizin rəhbərliyinizlə Azərbaycanın daha da inkişaf edəcəyinə, daim zirvələr fəth edəcəyinə, zəfərlər qazanacağına inanırıq.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

**Hörmətlə,**

***Elxan MİRHƏŞİMLİ,***
***Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi***

*

**Hörmətli cənab Prezident.**

Kanadanın Alberta əyalətinin Kalqari şəhərindəki Azərbaycan icması adından Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırıram. Sizin rəhbərliyinizlə Azərbaycan davamlı şəkildə inkişaf edir, ölkənin beynəlxalq əlaqələri genişlənir. Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətləriniz həm ölkə daxilində, həm də xaricdə yüksək qiymətləndirilir. Bu uğurları böyük iftixar hissi ilə müşahidə edirik. Yorulmaz fəaliyyətinizə görə Sizə təşəkkürümüzü bildiririk.

Biz gələn ilin fevralında keçiriləcək, ölkəmizə daha parlaq gələcək vəd edən növbədənkənar prezident seçkilərində iştirak edərək Sizi dəstəkləyəcəyik. İnanırıq ki, Sizin uğurlu siyasətiniz sayəsində Azərbaycan daha da inkişaf edəcək, güclənəcək, həmişə böyük uğurlar qazanacaq.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə nailiyyətlər arzulayırıq.

**Hörmətlə,**

***Ceyhun NƏCƏFLİ,***
***Kanadadakı Alberta Azərbaycan Mədəniyyət Cəmiyyətinin rəhbəri***

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərdiyiniz ötən 20 il ərzində ölkəmiz böyük nailiyyətlər əldə etmiş, beynəlxalq arenada mövqelərini möhkəmləndirmişdir. Siz gördüyünüz işlərlə xalqın sevgisini, etimadını və rəğbətini qazanmısınız. İnanırıq ki, Sizin rəhbərliyinizlə respublikamız yeni-yeni zirvələr fəth edəcəkdir.

Fürsətdən istifadə edərək, Kanadadakı diaspor fəalı kimi mənim də "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunmağıma görə təşəkkürümü bildirirəm. Göstərilən diqqət fəaliyyətimizə güclü stimul verir.

Əziz Prezident, Sizə ən xoş arzularımı bildirir, qarşıdan gələn prezident seçkilərində uğurlar diləyirəm.

**Hörmətlə,**

***Nigar ƏLİYEVA,***
***Kanadada fəaliyyət göstərən "Qarabağ" Azərbaycan həftəsonu məktəbinin həmtəsisçisi***

*

**Hörmətli cənab Prezident.**

Kanadada yeni fəaliyyətə başlamış Recayna Azərbaycanlıları Mədəniyyət Assosiasiyası adından Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimizi, ən xoş arzularımızı çatdırırıq. Sizin rəhbərliyinizlə Azərbaycanda qazanılan nailiyyətlərlə fəxr edirik. Əminik ki, bu uğurlar hər bir vətənpərvər azərbaycanlını sevindirir. Sizin həyata keçirdiyiniz uğurlu siyasət sayəsində Azərbaycanın tərəqqi yolunda daha sürətlə irəliləyəcəyinə əminik.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər, yeni-yeni qələbələr arzu edirik.

**Hörmətlə,**

***Kanadada fəaliyyət göstərən Recayna Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının İdarə Heyəti***

*

**Möhtərəm cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizə Azərbaycanlı İş Adamları Birliyi (AZEBİ) adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Biz Gürcüstanda yaşayan azərbaycanlılar Sizin qayğınızı və dəstəyinizi hər zaman hiss edir, bunu yüksək qiymətləndiririk.

Azərbaycan dövləti Sizin rəhbərliyinizlə böyük uğurlar qazanır, beynəlxalq arenada nüfuzunun artırılması yolu ilə irəliləyir. Azərbaycanlı İş Adamları Birliyi olaraq Sizin həyata keçirdiyiniz məqsədyönlü siyasəti dəstəkləyir və bundan sonra da dəstəkləyəcəyik.

Hər zaman olduğu kimi, 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində də Sizin namizədliyinizi dəstəkləyəcəyik. Sizə uğurlar diləyirik.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və firavanlıq, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

Ən dərin ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Nəriman QURBANOV,***
***Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyinin (AZEBI) İdarə Heyətinin sədri***

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Bu il bütün azərbaycanlılar üçün əlamətdar il oldu. Hamımız böyük iftixarla Azərbaycanın suverenliyinin tam bərpa edilməsinin sevincini yaşayırıq.

Möhtərəm Prezident, hər bir azərbaycanlı kimi mənim də ən böyük arzum ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi olub. Bu arzumu müzəffər Ali Baş Komandan olaraq Siz reallaşdırdınız. Bu sevinci bizə yaşatdığınız üçün Sizə minnətdarıq. Sizinlə fəxr edirik. Sizə inanırıq. Əminik ki, Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan daim inkişaf edəcək, daha böyük uğurlar qazanacaq.

Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

**Hörmətlə,**

***Mətləb NƏCƏFOV,***
***Ukraynanın İvano-Frankovsk vilayəti diasporunun sədri***

*

**Möhtərəm cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin Mirqorod şəhər və Mirqorod rayon təşkilatının üzvləri adından ürəkdən təbrik edirik. Biz Vətəndən uzaqda olsaq da hər zaman Sizinləyik. Həyata keçirdiyiniz siyasət Azərbaycana və bütün dünya azərbaycanlılarına hər zaman böyük uğurlar gətirmişdir. İnanırıq ki, Sizin rəhbərliyinizlə bu uğurlar davamlı olacaqdır.

Cənab Prezident, fürsətdən istifadə edərək Ukraynaya göstərdiyiniz humanitar yardımlara görə Sizə minnətdarlığımızı bildiririk.

Sizə cansağlığı, gələn ilin fevralında keçiriləcək prezident seçkilərində müvəffəqiyyətlər arzulayırıq.

Yaşasın Azərbaycan!

Eşq olsun müzəffər Ali Baş Komandanımıza!

Qarabağ Azərbaycandır!

**Hörmətlə,**

***Zamir İSMAYILOV,***
***Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin Mirqorod şəhər və Mirqorod rayon təşkilatının sədri***

*

**Möhtərəm cənab Prezident.**

Dünya azərbaycanlılarının Lideri, müzəffər Ali Baş Komandan.

Moldova Azərbaycanlıları Konqresi və bu ölkədəki bütün Azərbaycan diasporu adından doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırıram. Sizə möhkəm cansağlığı, ailə səadəti, bütün təşəbbüslərinizdə uğurlar arzulayırıq.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Sizin tərəfinizdən parlaq şəkildə davam etdirilən inkişaf yolu ilə Azərbaycanın inamla irəliləməsini böyük fəxarətlə müşahidə edirik.

Siz ömrünüzün üçdəbirini Azərbaycana, onun xalqına fədakar xidmətə həsr etmisiniz. Prezident kimi son 20 il ərzində göstərdiyiniz xidmətlərin nəticəsidir ki, bu gün Azərbaycan inkişaf edərək Cənubi Qafqazın şəksiz liderinə çevrilib, dünya arenasında böyük nüfuz qazanıb. Bu, müstəsna vətənpərvərliyin, Vətənə bağlılığın sübutudur. Buna görə də Azərbaycan xalqı Sizə – ölkənin maraqlarını yorulmadan müdafiə edən, dövlətçiliyi qətiyyətlə qoruyan Liderinə dərin hörmət və rəğbət bəsləyir.

Cənab Prezident, gələn ilin fevralında keçiriləcək prezident seçkilərində Sizin parlaq qələbə qazanacağınıza tam əminik. Moldova Respublikasındakı Azərbaycan diasporu adından Sizə dəstəyimizi ifadə edirik.

**Hörmətlə,**

***Elçin BAYRAMOV,***
***Moldova Azərbaycanlıları Konqresinin sədri***

*

**Hörmətli cənab Prezident.**

Estoniyada fəaliyyət göstərən Türk məktəbinin kollektivi adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Sizin səmərəli fəaliyyətiniz nəticəsində əldə edilmiş uğurlar Azərbaycan xalqına həmişə sevinc bəxş edib. Bu sevinc dolu, xoşbəxt anların daimi olmasını arzu edirəm.

İnanıram ki, Azərbaycan getdikcə daha da inkişaf edəcək, firavanlaşacaqdır. Bu istiqamətdə fəaliyyətinizdə Sizə böyük nailiyyətlər diləyirəm.

**Hörmətlə,**

***Gülnarə VALS,***
***Estoniyada fəaliyyət göstərən Türk məktəbinin direktoru***

*

**Hörmətli cənab Prezident.**

Sizi "Sankt-Peterburqun və Leninqrad vilayətinin Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Şəhər İctimai Təşkilatı adından doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin uğurlu siyasətiniz sayəsində bu gün Azərbaycan iqtisadi, enerji və digər sahələrdə inkişafa görə dünyanın aparıcı ölkələrindən birinə çevrilib. Müdrik qərarlarınızla ölkədə bütün sahələrdə vacib islahatlar həyata keçirilmişdir. Siz qətiyyətli dövlət xadimi, güclü Lider kimi Azərbaycanda milyonların sevgi və hörmətini qazanmısınız, eyni zamanda, xaricdə böyük nüfuza maliksiniz. Azərbaycanın daha parlaq, xoşbəxt gələcəyi Sizin həyata keçirdiyiniz siyasətlə bağlıdır. Biz, Rusiyada yaşayan azərbaycanlılar tarixi Vətənimizdə gedən siyasi, iqtisadi, mədəni prosesləri diqqətlə izləyirik. Siz uzaqgörən siyasətiniz, uğurlu diplomatiyanız, qətiyyətiniz, böyük istedadınız sayəsində 44 günlük Vətən müharibəsində Qələbə qazanaraq torpaqlarımızı azad etməklə milyonlarla soydaşımızın arzusunu reallaşdırdınız. Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi inkişaf tariximizdə yeni mərhələ açdı və regionda geosiyasi vəziyyəti dəyişdi. Torpaqlarımız işğaldan azad ediləndən dərhal sonra orada Sizin rəhbərliyinizlə yenidənqurma, bərpa işlərinə başlanıldı. Sizin Birinci vitse-prezident xanım Mehriban Əliyeva ilə birlikdə həmin ərazilərə səfərlərinizi məmnuniyyətlə izləyirik. Sizin hər bir uğurunuz bizə böyük sevinc bəxş edir.

Cənab Prezident, Siz ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirərək xaricdə yaşayan azərbaycanlılara həmişə xüsusi diqqət və qayğı göstərmisiniz. Sizə minnətdarlığımızı bildiririk.

Sizə möhkəm cansağlığı, firavanlıq, Azərbaycan dövləti və xalqı naminə yeni ideyalarınızın və müdrik qərarlarınızın həyata keçməsində nailiyyətlər arzu edirik. Biz həmişə Sizi dəstəkləmişik və dəstəkləyəcəyik.

**Dərin hörmətlə,**

***Vaqif MƏMİŞOV,***
***"Sankt-Peterburqun və Leninqrad vilayətinin Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Şəhər İctimai Təşkilatının sədri***

*

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik.

Siz Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsinə nail olmuş, ölkənin daha da inkişafı, qüdrətlənməsi üçün böyük işlər görmüsünüz. Şuşada, Xankəndidə, Xocalıda və azad edilmiş digər torpaqlarımızda Azərbaycan Bayrağını ucaltmağınız hamımız üçün olduqca qürurvericidir. Fədakar xidmətlərinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

**Hörmətlə,**

***Aqil ƏLİYEV,***
***Rusiyanın Çuvaş Respublikasındakı Çuvaş–Azərbaycan Dostluq və Əməkdaşlıq Cəmiyyətinin sədri,***
***Nicat SƏFƏRLİ, sədrin müavini***

*

**Hörmətli İlham Heydər oğlu.**

Doğum gününüz münasibətilə Sizi "Birlik" Azərbaycan Milli-Mədəni Muxtariyyəti ictimai təşkilatının üzvləri adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə uğurla inkişaf etməkdə və sosial-iqtisadi tərəqqi yolunda irəliləməkdə davam edir, təkcə regional miqyasda deyil, həm də beynəlxalq arenada inamlı və nüfuzlu mövqelər qazanır.

Sizin daimi diqqətiniz sayəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, xüsusən Tatarıstan Respublikası arasında dostluğa, qarşılıqlı hörmətə və xalqlarımızın dəstəyinə əsaslanan əməkdaşlığın üfüqləri genişlənir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq, siyasi arenada isə yeni-yeni uğurlar və daim tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Ramiz MƏMMƏDOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Leninoqorsk şəhərinin və Leninoqorsk rayonunun Azərbaycan Milli-Mədəni Muxtariyyəti ictimai təşkilatının sədri***

*

**Hörmətli İlham Heydər oğlu.**

Şimali Osetiya-Alaniya Respublikasında Azərbaycanlılar Konqresinin üzvləri adından Sizi doğum gününüz münasibətilə təbrik edirik. Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, tükənməz enerji, yeni-yeni nailiyyətlər, Vətənimiz Azərbaycanın rifahı naminə xeyirxah işlərinizdə uğurlar arzulayırıq.

Siz müdrik dövlət başçısı, daim qələbələrə doğru irəliləyən enerjili, məsuliyyətli, təcrübəli şəxsiyyət kimi böyük nüfuza maliksiniz. Siz Azərbaycan Respublikasını keyfiyyətcə yeni inkişaf mərhələsinə çıxarmısınız. Bütün zəruri dəyişiklikləri tam qətiyyətlə və iradə ilə yerinə yetirirsiniz. Çoxtərəfli fəaliyyətiniz sayəsində Vətənimiz Azərbaycan Respublikası qüdrətini artırıb, müstəqilliyini möhkəmləndirib. Konstruktiv siyasətiniz beynəlxalq aləmdə geniş şəkildə təqdir edilir.

Hörmətli İlham Heydər oğlu, biz Sizinlə fəxr edirik. Siz bütün dünya azərbaycanlılarının Prezidentisiniz.

**Hörmətlə,**

***Şahin MƏMMƏDOV,***
***Rusiyanın Şimali-Osetiya-Alaniya Respublikasında Azərbaycanlılar Konqresinin fəxri prezidenti,***
***Murtuz GÜLMƏMMƏDOV,***
***Konqresin sədri***

*

**Hörmətli cənab Prezident.**

İcazə verin, Primorsk vilayəti Azərbaycan Diasporu "Dostluq" İctimai Təşkilatının adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim.

Siz bütün dünyada görkəmli siyasətçi və diplomat, müdrik və uzaqgörən dövlət xadimi, Vətənini sevən şəxsiyyət kimi tanınırsınız. Sizin ali dövləti vəzifədə müstəqil Azərbaycanın daha da inkişafı məqsədini daşıyan məhsuldar fəaliyyətiniz böyük rəğbətlə qarşılanır. Sizin rəhbərliyinizlə həyata keçirilən strateji kurs ölkənin regionda və beynəlxalq arenada nüfuzunun, rolunun durmadan artmasına yönəlib. Konfessiyalararası münasibətlərin möhkəmləndirilməsi işində böyük xidmətləriniz və səylərinizə görə Sizə minnətdarıq.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, güc-qüvvət, ailə səadəti, Azərbaycanın daha parlaq gələcəyi ilə bağlı planlarınızın və ideyalarınızın həyata keçməsini arzulayırıq.

**Hörmətlə,**

***Ramiz ZEYNALOV,***
***Rusiyanın Primorsk vilayəti Azərbaycan Diasporu "Dostluq" İctimai Təşkilatının sədri***

*

**Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.**

Sizi doğum gününüz münasibətilə Almaniya Federativ Respublikasının Bremen əyalətindəki azərbaycanlı icma adından səmimi-qəlbdən təbrik edirik. Siz Azərbaycanın dinamik inkişafı, beynəlxalq miqyasda nüfuzunun yüksəlməsi istiqamətində çox böyük işlər görmüsünüz. Vətən və xalq qarşısında göstərdiyiniz xidmətlər alqışalayiqdir.

İnanırıq ki, Sizin uzaqgörən siyasətiniz, fədakar fəaliyyətiniz Azərbaycana gələcəkdə yeni-yeni zəfərlər qazandıracaq.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, işlərinizdə uğurlar arzulayırıq.

**Hörmətlə,**

***Almaniyadakı Bremen Azərbaycan Mədəniyyət Evinin İdarə Heyəti***

*

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bütün dünya Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının siyasət, iqtisadiyyat, hərbi quruculuq, elm, təhsil, mədəniyyət və idman sahələrində əldə etdiyi misilsiz nailiyyətlərin şahididir. Əlbəttə, bu uğurların ən möhtəşəmi ölkəmizin tarixi Qələbəsidir. Sizin müdrik siyasətiniz, qətiyyətli, cəsarətli addımlarınız, Azərbaycan Ordusunun rəşadəti və qəhrəmanlığı sayəsində biz həmişəlik olaraq tarixi Qarabağ torpağımıza qayıtmışıq.

Əminəm ki, Azərbaycan Respublikası bundan sonra da əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Sizin davam etdirdiyiniz yolla irəliləyərək daha uca zirvələr fəth edəcək.

Bu xoş fürsətdən istifadə edərək Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Növbədənkənar prezident seçkilərində Sizin şəksiz qələbənizə, xalqımızın əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də düzgün və müdrik seçim edəcəyinə inanıram.

Rusiya Federasiyası Krasnoyarsk vilayətinin Krasnoyarsk şəhərində yaşayan və çalışan bir azərbaycanlı kimi Vətənimizlə bağlı qürur hissi keçirirəm. Əminəm ki, 2024-cü ildə nəzərdə tutduğunuz bütün xeyirxah təşəbbüsləriniz həyata keçəcək, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə yeni-yeni qələbələr əldə edəcəkdir.

**Dərin hörmətlə,**

***Ceyhun CƏFƏROV,***
***Rusiya Federasiyasında fəaliyyət göstərən Beynəlxalq Hüquqşünaslar İttifaqının Əlaqələndirmə Şurasının üzvü, Krasnoyarsk vilayəti üzrə rəhbəri***

# Prezidentə yazırlar: Sizin uğurlu siyasətinizi böyük maraqla və iftixar hissi ilə izləyirik

**Azərbaycandan xaricdə yaşayan soydaşlarımızdan, müxtəlif ölkələrdəki diasporumuzun nümayəndələrindən doğum günü münasibətilə Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevə təbrik məktubları gəlməkdə davam edir. Məktublarda soydaşlarımız doğum günü münasibətilə dövlətimizin başçısını təbrik edir, 2024-cü ilin fevralında keçiriləcək prezident seçkilərində onu dəstəkləyəcəyini bildirirlər. Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edirik.**



**İsveçdə fəaliyyət göstərən "Azərbaycan Naminə" Cəmiyyətinin sədri Nadir Hollenbrand dövlətimizin başçısını doğum günü münasibətilə ürəkdən təbrik edərək yazır:** "Sizin müdrik rəhbərliyinizlə Azərbaycan böyük nailiyyətlər qazanıb. Biz Sizin uzaqgörən siyasətinizin respublikamızı daim parlaq qələbələrə doğru aparacağına inanırıq. Hər zaman Sizin yanınızdayıq. Qarşıdan gələn növbədənkənar prezident seçkilərində Sizi dəstəkləyəcəyik".

**Napoli–Bakı Assosiasiyasının sədri Cuzeppe Kanilia məktubunda qeyd edir:** "Biz ölkənizə və onun vətəndaşlarına yorulmaz xidmətinizə görə Sizə minnətdarlığımızı bildiririk və hər zaman Sizi dəstəkləyəcəyik. Sizə həm şəxsi həyatınızda, həm də ali dövləti fəaliyyətinizdə uğurlar və xoşbəxtlik dolu bir il diləyirik".

**Almaniya–Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri Nuran Abdullayev:** "Sizə yaşadığım Almaniyada, eləcə də sıx əlaqədə olduğum digər Avropa ölkələrində hər zaman xalqının önündə qürurla dayanan və verdiyi hər bir sözü yerinə yetirən əvəzedilməz Lider kimi rəğbət bəslənilir. Bunu istər siyasi, istərsə də akademik arenada əcnəbi vətəndaşlardan eşitmək ürəyi daim Vətənlə döyünən bir azərbaycanlı kimi mənə böyük qürur hissi yaşadır.

Cənab Ali Baş Komandan, dövlətçilik ənənələrinə sadiq olan, dövlətçilik prinsiplərini əsas tutan gənclərə göstərdiyiniz xüsusi diqqət və qayğı məndə və digər gənc dostlarımızda hər zaman böyük ruh yüksəkliyi yaradıb. Siz gənclərə hər addımda insanın öz kökünə və tarixinə sadiqliyi, xüsusən də ata və onun vəsiyyətinin müqəddəsliyi dərsini nümayiş etdirirsiniz. O sadiqlik və ata vəsiyyəti ki, məhz onunla biz doğma Vətənimizi bu gün bütövləşən görmüşük.

Sizi əmin etmək istəyirəm ki, gələn il keçiriləcək və tariximizə Zəfər seçkiləri kimi düşəcək növbədənkənar prezident seçkilərində hər zaman dövlətçilik ənənələrinə sadiq olan biz gənclər Sizi – müzəffər Sərkərdəmizi dəstəkləyəcəyik".

**İsveç–Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri Sevda Daşova isə dövlətimizin başçısına təbrikini və dəstəyini bu sözlərlə ifadə edir:** "Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Bu illər ərzində Azərbaycan dövlətinin inkişaf etməsi, güclənməsi istiqamətində gördüyünüz bütün işlərə görə Sizə minnətdarıq. Vətəndən uzaq olsaq da, hər zaman Sizinləyik.

Daim Sizin diqqət və qayğınızı üzərində hiss edən Azərbaycan diasporu bundan sonra da əzmkarlığını artıracaqdır. Azərbaycanın milli maraqları bizim üçün ən vacib məsələdir. Sizinlə və uğurlu siyasətinizlə qürur duyuruq. Dünya azərbaycanlıları ətrafınızda tək yumruq kimi birləşmiş Azərbaycan xalqı ilə birlikdə həmişə Sizin arxanızdadır".

**Almaniyada yaşayan azərbaycanlılar adından doğum günü münasibətilə Prezident İlham Əliyevi ürəkdən təbrik edən Alman–Azərbaycan Dostluq Cəmiyyətinin sədri Lalə Məmmədli müraciətində bildirir:** "Biz Sizi Azərbaycanın inkişafına, xalqın rifahına yönəlmiş ölçülüb-biçilmiş siyasət yürüdən müdrik dövlət başçısı və əsl vətənpərvər şəxsiyyət kimi tanıyırıq. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası bundan sonra da demokratik dövlət quruculuğu, sabit iqtisadi və sosial inkişaf yolu ilə inamla irəliləyəcək. Sizin yorulmaz səyləriniz, xalqın etimadı, vətəndaşların həyatını daha da firavanlaşdırmaq üçün gördüyünüz işlər ali dövləti fəaliyyətinizdə uğurlarınızı daha da artıracaqdır. 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində Sizə uğurlar arzulayırıq".

**Azərbaycan–Niderland Odlar Yurdu Cəmiyyətinin sədri Frəngiz Bağırova:** "…Sizə "İlhamla irəli" devizi ilə "Dəmir yumruq" kimi möhkəm cansağlığı arzulayırıq. Bizə həsrətində olduğumuz Qələbə, tarixdə tayı-bərabəri olmayan Zəfər sevinci yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Biz həmişə Sizinləyik".

**Dövlətimizin başçısına Çex Respublikasının tanınmış ziyalılarını, elm xadimlərini, təhsil işçilərini, iş adamlarını, soydaşlarımızı özündə birləşdirən Çexiya-Azərbaycan Elm və Mədəniyyət Mərkəzi adından müraciət edən qurumun sədri Azər Kərimov yazır:** "Biz Azərbaycan xalqının birliyi, həmrəyliyi, xoşbəxt gələcəyi naminə müəyyən etdiyiniz, həyata keçirdiyiniz səmərəli daxili və xarici siyasəti dəstəkləyirik.

Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycanın daha da inkişafı, xalqın rifahı naminə şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq".

**İtaliyanın Milan şəhərində diaspor fəaliyyəti ilə məşğul olan Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri Mais Nuriyev Assosiasiyanın üzvləri adından Prezident İlham Əliyevə ən səmimi təbriklərini və xoş arzularını çatdırır. O qeyd edir:** "Sizin daxili və xarici siyasətinizin uğurlu nəticələrini böyük maraqla və iftixar hissi ilə izləyirik. Uzaqgörən siyasətiniz və müdrik liderliyiniz sayəsində Azərbaycanın regionda, eləcə də dünyada artan nüfuzunu görməkdən böyük məmnunluq duyuruq, hər bir addımınızı qürurla dəstəkləyirik".

**Rusiyanın Ulyanovsk vilayəti qubernatorunun milli məsələlər üzrə müşaviri, "Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatının sədri İslam Hüseynov:** "Azərbaycan Respublikası Sizin uzaqgörən və müdrik rəhbərliyinizlə inamla inkişaf edir. Yüksək peşəkarlıq, qətiyyət və məqsədyönlülük sayəsində ölkədə iqtisadi, sosial, mədəni tərəqqi, sabitlik təmin edilir… Əminik ki, Sizin peşəkarlığınız və həyat təcrübəniz qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsinə kömək edəcəkdir".

"Alicənablıq, insanpərvərlik, mərdlik kimi ali insani dəyərləri özündə birləşdirən şərəfli və məsuliyyətli fəaliyyətinizdə Sizə uğurlar arzulayıram. Sizin uzaqgörənliyiniz və humanizminiz, milli və bəşəri dəyərlərə söykənən müdrikliyiniz, yüksək təşkilatçılıq və idarəetmə bacarığınız dünya liderləri üçün örnəkdir". **Bu fikirlər isə "QALA" Yunanıstan–Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun müraciətində yer alıb.**

**Gürcüstandakı "Azərbaycan Evi"-nin direktoru Məhəbbət İmanov** məktubunda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir müstəqil Azərbaycanın böyük inkişaf yolunun, qüdrətlənməsinin, eyni zamanda dünyada etibarlı tərəfdaş kimi qəbul olunmasının Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırır.

**Niderlandda fəaliyyət göstərən Beynəlxalq Azərbaycanlı Qadınlar Birliyinin rəhbəri Kəmalə Cəlilova:** "Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası böyük inkişaf yolu keçmiş, ölkə həyatının bütün sahələrində mühüm nailiyyətlər əldə edilmişdir.

2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində Sizə müvəffəqiyyətlər diləyirik. Biz, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı qadınlar Sizin siyasətinizi dəstəkləyirik".

**XQ**

# Fransa Azərbaycanın qələbəsini qətiyyən həzm edə bilmir

**Fransa Azərbaycanın qələbəsini qətiyyən həzm edə bilmir.**



Bu barədə Fransanın "Le Monde" qəzetinə müsahibəsində Fransa–Azərbaycan münasibətlərinin gərginləşməsi ilə bağlı məqalənin müəllifi, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bildirib. O qeyd edib ki, hazırda müşahidə olunan ikitərəfli münasibətlərin pisləşməsi Ermənistan–Azərbaycan qarşıdurmasında Fransanın tamamilə ədalətsiz, qərəzli ermənipərəst mövqeyi ilə bağlıdır.

E.Əmirbəyov sonda deyib: "Aydındır ki, Fransa tarixi ədaləti bərpa etmiş, Qarabağda və özünün digər ərazilərində otuzillik erməni işğalına son qoymuş Azərbaycanın qələbəsini həzm edə bilmir".

**XQ**

# Azərbaycan Ordusunda ilin yekunu ilə əlaqədar iclaslar keçirilib

**Azərbaycan Ordusunun Baş Qərargahı, Müdafiə Nazirliyinin baş idarə, idarə, xidmət və müstəqil şöbələri, eləcə də bütün qoşun növləri və xüsusi təyinatlı təhsil müəssisələrində 2023-cü ilin yekunları ilə əlaqədar iclaslar keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, iclaslarda Azərbaycan Ordusunun cari ildəki fəaliyyəti geniş təhlil edilib. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu qarşısında qoyduğu tapşırıqlar bir daha şəxsi heyətə çatdırılıb.

Hərbi qulluqçuların döyüş hazırlığının və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğu bildirilib. Şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, hərtərəfli təminatı, o cümlədən, qoşunların peşəkar kadrlarla komplektləşdirilməsi sahəsində görülən işlərdən danışılıb.

Azərbaycan Ordusunda aparılan uğurlu islahatlar nəticəsində qazanılan nailiyyətlər qeyd edilib və şəxsi heyətin bundan sonra da Ali Baş Komandanın istənilən tapşırığına hər an hazır olduğu xüsusi vurğulanıb.

İclaslarda növbəti ildə şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili, sosial-məişət şəraitinin yaxşılaşdırılması, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması istiqamətində həyata keçiriləcək tədbirlər və perspektiv planlar müzakirə olunub.

Sonda cari ilin yekununa əsasən hərbi xidmətdə fərqlənən hərbi qulluqçular təltif ediliblər.

**XQ**

# Özbəkistanda universitetlərin əlaçı tələbələrinə "Heydər Əliyev təqaüdü" təqdim olunub



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Ulu öndərin adına Özbəkistanda universitetlər arasında təsis edilən "Heydər Əliyev təqaüdü"nə layiq görülən əlaçı tələbələrin adlarını elan edib.**

Mədəniyyət Mərkəzində keçirilən mərasimdə təqaüd Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutu, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti, Daşkənd Dövlət Şərqşünaslıq Universiteti, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti, Ürgənc Dövlət Universiteti, Daşkənd Dövlət Nəqliyyat Universiteti və Termez Dövlət Universitetinin tələbələrinə verilib.

Qeyd edək ki, qaliblərin müəyyənləşdirilməsi universitetlərin rektorlarının Mədəniyyət Mərkəzinə göndərdikləri təqdimat əsasında həyata keçirilib.

**XQ**

"Özbəkistan–Azərbaycan" Dostluq Cəmiyyəti – 25

# Daşkənd – Bakı qardaşlıq körpüsü

**"Özbəkistan–Azərbaycan" Dostluq Cəmiyyəti Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti ilə birgə bu qurumun 25 illik yubileyi münasibəti ilə "Qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi yolunda" adlı yubiley konfransı keçirib.**

Toplantıda dövlət və hökumət nümayəndələri, deputatlar, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) və universitetin rəhbərləri, professor-müəllim heyəti, tələbələr, ictimaiyyətin nümayəndələri, Azərbaycandan gələn qonaqlar iştirak ediblər. Onlar əvvəlcə universitetin foyesində təşkil olunan "Dostluğumuz əbədidir" adlı fotosərgi ilə tanış olublar. Sərgidə ötən illər ərzində cəmiyyətin iki ölkə arasında dostluq və əməkdaşlığın genişləndirilməsi sahəsindəki fəaliyyəti, keçirilən tədbirlər öz əksini tapıb.

Universitetin rektoru, professor Abduqafar Qırğızbayev Özbəkistan–Azərbaycan dostluğu haqqında danışıb, bu əlaqələrin bu gün strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini söyləyib. O deyib ki, dostluq cəmiyyəti iki ölkə arasında dostluğun və hərtərəfli əməkdaşlığın inkişafına böyük diqqət yetirir, AMM ilə birgə reallaşdırılan təşəbbüslərin faydalı olduğunu vurğulayıb.

Özbəkistan Mədəniyyət Nazirliyi yanında Millətlərarası Münasibətlər və Xarici Ölkələrlə Dostluq Əlaqələri Komitəsinin sədri Rüstəm Qurbanov Özbəkistanda bütün millətlərin dinc yanaşı yaşadığını, öz adət və ənənələrini, mədəniyyətlərini qoruyub saxladığını və ictimai işlərdə aktiv fəaliyyət göstərdiyini qeyd edib.

AMM-nin direktoru Samir Abbasov iki ölkə arasında münasibətlərin dövlət başçılarımızın uğurlu siyasəti nəticəsində yüksək səviyyəyə çatdırıldığını qeyd edib, rəhbərlik etdiyi Mədəniyyət Mərkəzinin Dostluq Cəmiyyəti ilə sıx əməkdaşlığı nəticəsində son 10 ildə iki ölkə arasında dostluq və əməkdaşlığa dair yüzlərlə tədbir və layihənin reallaşdırıldığını bildirib.

Cəmiyyətin icraçı direktoru, professor Erkin Nuriddinov qurumun yaranma tarixindən, 25 illik fəaliyyətindən, Özbəkistan-Azərbaycan münasibətlərinin möhkəmlənməsində, elmi, ədəbi, mədəni əlaqələrin qurulmasında həyata keçirdiyi layihələrdən söz açıb.

Özbəkistan Ali Məclisinin deputatları Gülbahar Saidqaniyeva və Oydin Abdullayeva, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin dosenti Gülbahar Aşurova, Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı, dosent Əzizağa Nəcəfov dövlətlərimiz arasında mədəni, ədəbi, elmi əlaqələrdən söz açıb, cəmiyyətin xalqlarımız arasında dostluq və əməkdaşlığın inkişaf etdirilməsi istiqamətindəki fəaliyyətindən danışıblar.



Çıxışlardan sonra Samir Abbasov DC-nin rəhbəri Erkin Nuriddinova üzərində Azərbaycan və Özbəkistan prezidentlərinin portretləri olan Azərbaycan xalçası hədiyyə edib.

Tədbirdə Dostluq Cəmiyyətinin 25 illik fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib, DDPU-nun tələbələri iki qardaş ölkənin dostluq münasibətlərinə həsr olunmuş şeirlər səsləndiriblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

# Maliyyə sabitliyi davamlı inkişafı stimullaşdırır

## Bu il valyuta ehtiyatları 16,6 faiz yüksəlib




(əvvəli 1-ci səhifədə)

Eyni zamanda, bu dövrdə inflyasiyanın hədəf intervalına qaytarılmasına yönəldilən pul siyasəti həyata keçirilib. Bunun nəticəsində hesabat dövründə illik inflyasiya həm xarici, həm də daxili amillərdən təsirlənərək 25 aylıq fasilədən sonra azalıb. Başqa sözlə, valyuta bazarında tarazlığın qorunması, manatın məzənnəsinin möhkəmlənməsi, pul siyasəti qərarları və hökumətin həyata keçirdiyi tədbirlər sayəsində inflyasiya təzyiqləri zəifləyib.

Gələn il ərzində də Mərkəzi Bankın pul siyasəti ölkədə qiymət sabitliyinin təmin olunmasına, yəni inflyasiyanın aşağı və sabit səviyyədə saxlanılmasına yönəldiləcək. İnflyasiyanın "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ilə elan edilən hədəf intervalında saxlanılması pul siyasətinin əsas məqsədi olacaq. Qiymət sabitliyini dəstəkləməklə Mərkəzi Bank ölkə iqtisadiyyatının dayanıqlı artımını şərtləndirəcək. Bütün bunlarla bərabər, pul siyasəti qərarları gələn ildə də inflyasiya mühitində xarici və daxili amillərin dəyişməsi və yenilənən makroiqtisadi proqnozlar əsasında veriləcək. Ümumiyyətlə, pul siyasətinin strateji və əməliyyat çərçivəsinin təkmilləşdirilməsi və pul siyasətinin kommunikasiyanın genişləndirilməsi istiqamətlərində islahatlar davam etdiriləcək.

Mərkəzi Bankın bəyanatında vurğulandığı kimi, geosiyasi münaqişələr və geoiqtisadi parçalanmalar, pandemiyanın təsirlərinin davam etməsi, kəskin iqlim anomaliyaları, maliyyə şəraitinin sərtləşməsi cari ildə qlobal iqtisadi artıma mənfi təsir göstərib. Bu, bir sıra indikatorlarda nəzərə çarpıb. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri üzrə biznes sektorunda iqtisadi fəallığ göstəricisi olan "biznesə inam" indeksi azalıb. Qlobal iqtisadiyyatda baş verən proseslər beynəlxalq təşkilatların proqnozlarına da təsir edib. Belə ki, Beynəlxalq Valyuta Fondunun (BVF) son hesabatına əsasən, qlobal iqtisadi artımın 2022-ci ildəki 3,5 faizdən 2023-cü ildə 3 faizə enəcəyi proqnozlaşdırılıb.

Ümumiyyətlə, mürəkkəb qlobal iqtisadi mühitin ölkə iqtisadiyyatına təsirlərinə baxmayaraq bir sıra mühüm uğurlar qazanılıb. Məsələn, Azərbaycanın əsas ixrac məhsullarının qiymətləri əlverişli olaraq qalıb. Bu da ölkənin tədiyə balansına, valyuta bazarında tarazlığa və iqtisadi fəallığa müsbət təsir göstərib. Hesabat dövründə tədiyə balansının başlıca komponenti olan xarici ticarət balansı profisitliliyi ilə diqqət çəkib. Belə ki, ilin 11 ayında xarici ticarət balansında 15,7 milyard dollar məbləğində müsbət saldo yaranıb. 2023-cü ilin 9 ayı üzrə cari əməliyyatlar hesabının profisiti isə 6,7 milyard dollar və ya ümumi daxili məhsulun (ÜDM) 12,5 faizi səviyyəsində qeydə alınıb. Profisitli tədiyə balansı şəraitində ölkənin strateji valyuta ehtiyatları 2023-cü ilin 11 ayında 16,6 faiz artaraq 68,2 milyard dollara yüksəlib.

Mərkəzi Bankın bəyanatında həyata keçirilən tədbirlər nəticəsində hesabat dövründə digər müsbət göstəricilərin də əldə edildiyi, iqtisadi artımın davam etdiyi bildirilib. Məsələn, 2023-cü ilin yanvar–noyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ÜDM real ifadədə 0,8 faiz, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 3,2 faiz yüksəlib. Dövr ərzində məşğulluğun səviyyəsində də artım müşahidə edilib. Bundan başqa cari ilin 11 ayında ötən ilin eyni dövrünə nəzərən pərakəndə ticarət dövriyyəsi 3,6 faiz, qeyri-neft-qaz investisiyalarının həcmi isə 12,5 faiz çoxalıb.

Cari ildə inflyasiyanın bütün komponentləri üzrə azalma meyli müşahidə olunub. Keçən ay illik ərzaq inflyasiyası 1,5 faizə enib. Qeyri-ərzaq məhsulları üzrə qiymətlər illik 3,1faiz artıb, xidmətlər son 1 ildə 4 faiz bahalaşıb. Ümumilikdə, illik inflyasiyaya 0,7 faiz ərzaq, 0,7 faiz qeyri-ərzaq, 1,2 faiz isə xidmətlərin qiymət və tarif dəyişimi müsbət təsir göstərib.

Valyuta bazarında tarazlıq da inflyasiya idxalının məhdudlaşmasında xüsusi rol oynayıb. Belə ki, bu ilin ötən dövründə Mərkəzi Bankda keçirilən valyuta hərracının 95 faizində təklif tələbi üstələyib. Bu şəraitdə bəzi ticarət tərəfdaşlarında məzənnənin yüksək dəyişkənliyinə baxmayaraq, milli valyuta öz sabitliyini qoruyub saxlayıb. Ötən 11 ayda manatın məzənnəsi 19,5 faiz bahalaşıb ki, bu da idxal inflyasiyasına azaldıcı təsir göstərən amil kimi dəyərləndirilib. Beləliklə, inflyasiya mühitində azaldıcı amillərin güclənməsi və inflyasiya gözləntilərinin sabitləşməsi ilin sonuna illik inflyasiyanın hədəf intervalının aşağı hissəsində formalaşacağını proqnozlaşdırmağa əsas verib.

Gələn il Azərbaycan iqtisadiyyatının real sektorunda artımın davam edəcəyi gözlənilir. Mərkəzi Bankın məlumatına görə, qarşıdakı dövrdə iqtisadi artım tempinin 3-3,5 faiz, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 5-5,5 faiz həddində olacağı proqnozlaşdırılır.

Növbəti ildə də işğaldan azad edilən ərazilərdə irimiqyaslı bərpa-quruculuq işləri iqtisadi artıma müsbət impulslar verəcək. Ölkədə makroiqtisadi sabitliyin qorunması iqtisadi artım proqnozunun reallaşmasının əsas şərtlərindən biri olaraq qalacaq. Eyni zamanda, maliyyə sektorunun sabitliyinin qorunması və onun daha da inkişaf etdirilməsi pul siyasətinin səmərəliliyinə müsbət təsir edən amillərdən biri kimi diqqətdə saxlanılacaq. Xüsusən də qanunvericilikdə edilən son dəyişikliklərin nağdsız ödənişlərə verəcəyi töhfə pul siyasətinin təsir dairəsini genişləndirəcək.

***Vaqif BAYRAMOV***
**XQ**

## Gələn il Qarabağ və Şərqi Zəngəzurda 12 SES istismara buraxılacaq

**İşğaldan azad edilmiş ərazilərdə 2023-cü ildə "AzərEnerji" tərəfindən 12 yarımstansiya və su elektrik stansiyası istifadəyə verilib.**



Qurumdan verilən məlumata görə, Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan – Türkiyə – Avropa ölkələrarası beynəlxalq enerji dəhlizi layihəsi çərçivəsində tikilən 330 kilovoltluq "Cəbrayıl" qovşaq yarımstansiyası istismara verilib. Həmçinin "yaşıl enerji" strategiyasına uyğun olaraq il ərzində Kəlbəcər rayonunda "Çıraq-1", "Çıraq-2", "Qamışlı", "Soyuqbulaq" və "Meydan", eləcə də Laçın rayonunda "Mişni" və "Alxaslı" kiçik su elektrik stansiyaları yenidən qurularaq istismara buraxılıb.

Yola salmağa hazırlaşdığımız 2023-cü ildə "AzərEnerji" tərəfindən Laçında yeni tikilən 110 kilovoltluq "Qorçu" yarımstansiyasının və "Laçın" şəhər qovşaq yarımstansiyasının açılışı həyata keçirilib. Bununla yanaşı, Prezident İlham Əliyev "AzərEnerji"nin yeni tikilən 10,5 meqavat gücündə "Cahangirbəyli" su elektrik stansiyasının açılışında iştirak edib. Dekabr ayında isə 110 kilovoltluq "Ağdam" qovşaq yarımstansiyasının açılışı həyata keçirilib. İlin ən yaddaqalan hadisələrindən biri isə, heç şübhəsiz, 19-20 sentyabr antiterror tədbirlərindən cəmi 4 gün sonra Xankəndi və digər ərazilərin Azərbaycanın enerji sisteminə qoşulması olub.

İşğaldan azad edilmiş ərazilərdə il ərzində "AzərEnerji"nin 9 elektrik stansiyasının tikintisinə başlanılıb. Bununla yanaşı, hazırda Qarabağ və Şərqi Zəngəzurda ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edəcək 3 elektrik stansiyasının tikintisi davam edir. Artıq bir neçə stansiyanın tikintisi başa çatdırılıb. Bütövlükdə isə 2024-cü ildə işğaldan azad edilmiş ərazilərdə 12 stansiyanın isə istismara verilməsi nəzərdə tutulub.

**XQ**

## Özəl sektorun ÜDM-də payı çoxalıb



**Azərbaycanın ümumi daxili məhsulunda özəl sektorun payı 86,5 faiz, məşğulluqdakı payı isə 78 faizdən çoxdur. Bunu iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bir sıra biznes nümayəndələrinə "Dayaq" mükafatının təqdim edilməsi mərasimində deyib.**

Ölkəmizdə sahibkarlıq subyektlərinin 99,6 faizinin kiçik və orta biznes qurumlarının payına düşdüyünü vurğulayan nazir müavininin sözlərinə görə, cari ilin yanvar-noyabr aylarında iqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 3,2 faiz artıb. Qeyd olunub ki, iqtisadiyyatın şaxələndirilməsi və ixrac potensialının artırılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində qeyri neft-qaz sektorunun ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,5 faiz artaraq 3 milyard ABŞ dollarına çatıb.

**XQ**

## "Asan vergi" xidməti istifadəyə verilib

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti "BEST Solutions" şirkəti ilə birlikdə elektron SİM əsaslı (eSİM) yeni nəsil gücləndirilmiş mobil rəqəmsal "Asan imza" xidmətini təqdim edib.**

DÖVLƏT VERGİ XİDMƏTİ

Dövlət Vergi Xidmətinin məlumatında bildirilir ki, yeni nəsil eSİM "Asan imza"nın bir sıra üstünlükləri mövcuddur. Bu, ilk növbədə, elektron sənədlərin etibarlı şifrələnməsi və deşifrə olunmasını, müasir kriptoalqoritmlər vasitəsilə təhlükəsizliyi təmin edir. Eyni zamanda, virtual eSİM kartının tətbiqi fiziki SİM-kartın oğurlanması və ya itirilməsi riskini aradan qaldırır.

Smartfonlara quraşdırılan yeni nəsil texnologiyaya əsaslanan eSIM fiziki SİM-kartı əvəz edir. eSİM-in üstünlüklərinə yalnız yüksək təhlükəsizlik deyil, həmçinin ekoloji cəhətdən səmərəli, plastik kartlardan imtina konsepsiyasına uyğunluq və təkmilləşdirilmiş funksionallıq xüsusiyyətləri daxildir. eSİM istifadəçisi telefonunda bir neçə nömrəni aktiv saxlamaq imkanına da malikdir.

Xatırladaq ki, 2024-cü il yanvarın 1-dən vergi ödəyicilərinin məlumatlarının təhlükəsizliyi və mühafizəsinin təmin edilməsi məqsədilə İnternet Vergi idarəsinə istifadəçi kodu, parol və şifrə vasitəsilə daxil olmaq imkanı məhdudlaşdırılacaq.

**XQ**

# "SOCAR Green"in "yaşıl" layihələri

## 2030-cu ilədək istilik effekti yaradan qazlar 35 faiz azaldılacaq

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) Müşahidə Şurasının qərarı ilə təsis edilmiş "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) Azərbaycanda və xaricdə "yaşıl enerji", dekarbonizasiya və aşağı karbonlu layihələrin həyata keçirilməsinə müsbət töhfələr verəcək.**



SOCAR-ın mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamından irəli gələn tapşırıqlar çərçivəsində təsis olunan şirkətin əsas məqsədi SOCAR-ın strateji bərpaolunan enerji layihələrinin effektiv idarə edilməsi, bu sahədə beynəlxalq tərəfdaşlarla əməkdaşlıq imkanlarının genişləndirilməsi, habelə neft-qaz əməliyyatlarında dekarbonizasiya proseslərinə dəstək göstərməkdən ibarətdir.

Bərpaolunan enerji, "yaşıl" hidrogenin istehsalı, karbonun tutulması, utilizasiyası və saxlanılması kimi layihələrin icrası, ölkə üzrə karbon emissiyasının azaldılması üçün strateji yol xəritələrinin hazırlanmasında müvafiq köməyin göstərilməsi şirkətin əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilib. Eyni zamanda, yeni yaradılan şirkət qeyd olunan sahələrdə beynəlxalq təcrübələrin öyrənilməsini və ölkəmizdə tətbiqini həyata keçirəcək.

"SOCAR Green" MMC Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə birgə "Meqa" layihəsinin ilkin mərhələsində quruda 1 qiqavat gücündə külək və günəş enerjisi, BP şirkəti ilə birgə "Şəfəq" layihəsi çərçivəsində Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş enerjisi layihələrini icra edəcək. Həmçinin şirkət tərəfindən "ACWA Power" (Səudiyyə Ərəbistanı), "Masdar" və "Energy China" (Çin) şirkətləri ilə birgə Naxçıvan Muxtar Respublikasında günəş və külək enerjisi layihələrinin icrası nəzərdə tutulur.

Adı çəkilən nüfuzlu şirkətlərlə əməkdaşlıq etməklə "SOCAR Green" MMC "yaşıl enerji", dekarbonizasiya və aşağı karbonlu layihələrin Azərbaycanda və xaricdə həyata keçirilməsində, SOCAR üçün yeni biznes imkanlarının yaradılmasında, bu sahələrdə kadr bazasının formalaşdırılmasında və mövcud potensialın gücləndirilməsində, həmçinin "Xalis sıfır" emissiya hədəflərinə çatmaqda öz müsbət töhfəsini verəcək.

Xatırladaq ki, SOCAR xarici şirkətlərlə bərpaolunan enerji və dekarbonizasiya sahələrində əməkdaşlığına ötən ildən start verib. Məlum olduğu kimi, 2022-ci il iyunun 4-də Bakı Enerji Forumu çərçivəsində Şuşada təşkil edilmiş "Xalis sıfıra aparan yol: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl enerji potensialının inkişafı" mövzusunda xüsusi sessiyada SOCAR və BP şirkəti arasında yeni əməkdaşlıq müqaviləsi imzalanmışdı. Sözügedən sənəd ölkəmizdə bərpaolunan enerji potensialının öyrənilməsini, bu sahədə əməkdaşlıq məsələlərini və birgə layihələrin həyata keçirməsini nəzərdə tutur. Sessiya çərçivəsində, həmçinin SOCAR ilə "Masdar" şirkəti arasında anlaşma memorandumu da imzalanmışdı. Hər iki sənədin imzalanmasında məqsəd neft-qaz əməliyyatlarının karbonsuzlaşdırılması və enerji səmərəliliyi sahəsində qabaqcıl texnologiyaların tətbiqi və bərpaolunan enerji mənbələrinin birgə inkişafının təmin edilməsidir.

Yola saldığımız 2023-cü ili "yaşıl enerji" əməkdaşlığı baxımından daha uğurlu hesab etmək olar. Belə ki, yanvarın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində SOCAR ilə "Masdar" şirkəti arasında Azərbaycan Respublikasında 2 qiqavat gücündə dənizdə külək və hidrogen layihələrinin, həmçinin 1 qiqavat gücündə günəş fotovoltaik və quruda eyni gücdə külək layihələrinin işlənməsinə dair birgə sazişlər imzalanıb.

Yeri gəlmişkən, "Masdar" şirkəti artıq ölkəmizdə bərpaolunan enerji sahəsində ilk uğura imza atıb. Belə ki, cari ilin oktyabr ayında şirkətin Azərbaycanda inşa etdiyi 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyası istismara verilib. Stansiya hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal etməklə yanaşı, atmosferə atılan tullantıların da 200 min tondan çox azaldılmasına imkan yaradacaq.

Oktyabrın 26-da isə ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti və Birləşmiş Ərəb Əmirliklərinin "Abu Dhabi Future Energy Company – Masdar" şirkəti arasında sənədlərin imzalanması mərasimi keçirilib. Xatırladaq ki, investisiya müqavilələri çərçivəsində Neftçala rayonunun Bankə qəsəbəsində və Biləsuvar rayonunda günəş elektrik stansiyaları, eləcə də Abşeron – Qaradağ rayonunda quruda külək enerjisi stansiyalarının inşası nəzərdə tutulur.

Yeri gəlmişkən, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Hazırda həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Bunda da məqsəd 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılması ilə bağlı Azərbaycan dövlətinin müəyyənləşdirdiyi hədəfə çatmaqdır.

Son illər dünyanın irəli sürdüyü "yaşıl keçid" platformasının fəal iştirakçısına çevrilmiş Azərbaycan "yaşıl enerji" növlərinin yaradılması və beynəlxalq bazarlara nəqlini özünü enerji siyasətinin prioriteti kimi müəyyənləşdirib. Bu məqsədlə ölkəmiz elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Bu da son illərin etibarlı enerji tərəfdaşı kimi nüfuz qazanmış Azərbaycana inamı bir qədər də artırır. Elə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin ölkəmizdə keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi də bu inamın bariz nümunəsidir.

***Mirbağır YAQUBZADƏ***
**XQ**

## Ölkəmizdə 96 yeni dövlət standartı qəbul edilib

**Cari ilin yanvar-noyabr aylarında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyindəki Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) 96 yeni dövlət standartı qəbul edib.**




Qurumdan verilən məlumata görə, hesabat dövründə, həmçinin 687 beynəlxalq, dövlətlərarası və xarici ölkələrin standartlarının müvəqqəti tətbiqinə icazə verilib.

**XQ**

# “Fəxr edirəm ki, 8 il boyunca Türk Dünyasının mədəniyyətini və irsini təbliğ etdim”

*Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun ilk prezidenti Günay Əfəndiyevanın müsahibəsi*

(Əvvəli ötən sayımızda)

**– Bu illər ərzində fond tərəfindən çox sayda kitablar da nəşr olunub.**

– Bəli, Türk Dünyasının zəngin irsinin beynəlxalq miqyasda təbliğ edilməsi yönündə nəşr layihələrinin həyata keçirilməsi fondun fəaliyyətinin prioritet istiqamətlərindəndir. Biz Azərbaycanda Abayla bağlı ədəbi irsi toplayıb nəşr etdik, eyni zamanda, Qazaxıstan ədəbiyyatını, mədəniyyətini Avropada sərgilədik. Qədim "Manas"ı dərindən araşdırarkən Qırğızıstanın irsini, adət-ənənələrini öyrəndik. Bu illər ərzində yayımladığımız kitablar vasitəsilə Nəvayi və Fitrətin Azərbaycan dilində, Ömər Seyfəddin və Aşıq Veysəl almanca, Natəvan və Nəsimi italyanca, Nizami polyak dilində oxundu. Yunus Əmrə, Aşıq Ələsgər və Jambıl Jabayevi qovuşduran “3 ozan bir arada” layihəsi çərçivəsində poçt markaları çap edərək, kitab hazırlayıb, türk irsinin vahidliyini əks etdirdik.

Fondda müşahidəçi statusu ilə yer alan Macarıstanın böyük irsini Bartokun musiqisi və Radnotinin poeziyası timsalında layiqincə təbliğ edə bildik, eləcə də bu yaxınlarda macar ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılıqlarını “Macar ədəbiyyatı antologiyası” adlı yeni nəşrimizdə cəmləşdirdik. Qeyd edim ki, Azərbaycanın və bütövlükdə, Türk dünyasının ədəbi-mədəni, elmi-fəlsəfi, ictimai-siyasi tarixində nadir simalardan olan Əhməd bəy Ağaoğlunun Maltada sürgündə ikən yazdığı xatirələrini, fikir və düşüncələrini, ideoloji baxışlarını ehtiva edən “Sürgündən məktublar” kitabı fond tərəfindən bu yaxınlarda işıq üzü görəcək.

**– Başqa hansı səpkidə layihələr gerçəkləşdirilib?**

– Bu illər ərzində konfranslar, dəyirmi masalar, sərgilər və konsertlər kimi çoxsaylı müxtəlif tədbirlər təşkil etdik, Türk Dünyasının maddi-mənəvi dəyərlərinin təbliğinə yönəlmiş bir çox layihələr həyata keçirdik, Türk xalqlarının böyük şəxsiyyətlərinin yubileylərini qeyd etdik. Müxtəlif dillərdə, müxtəlif ölkələrdə, müxtəlif qitələrdə... Avropada, Asiyada, Latın Amerikasında, Şimali Amerikada.

“Yeddi gözəl”dən başqa Türk kökənli ölkələrin musiqiçilərindən ibarət “Dədə Qorqud” Kamera Orkestrını yaratdıq. Orkestr bir sıra ölkələrdə çıxışları ilə Türk Dünyası musiqisinin tanıdılmasına öz töhfəsini verdi.

Dahi Üzeyir bəyin “Arşın mal alan” musiqili komediyasını, böyük Fikrət Əmirovun “Min bir gecə” baletini Bolqarıstanın müxtəlif teatr səhnələrində tamaşaya qoyduq.

Nəhayət, yalnız ötən ildən beynəlxalq büdcəmizi almağa nail olduqdan sonra Oşda, Otrarda, Bakıda, İstanbulda, Konstansada keçirilən bir-birindən rəngarəng festivalların təşkilinə maliyyə dəstəyi verdik.

**– Fondun fəaliyyəti çərçivəsində təhsil sahəsi də yer alırmı?**

– Əlbəttə. Bu illər ərzində biz həm üzv dövlətlərin, həm də bir sıra başqa xarici ölkələrin universitetləri ilə memorandumlar imzaladıq və müxtəlif ortaq layihələr həyata keçirməyə başladıq.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası ilə birgə ümumtürk musiqisinin daha ətraflı araşdırılmasını təşviq edən, “Türkdilli ölkələrin milli musiqi alətləri” adlanan önəmli nəşr layihəmiz hazırda çap olunmaqdadır. Kitabda türk xalqlarının musiqi alətləri, onların xarakterik xüsusiyyətləri, tarixi haqqında maarifləndirici bilgilər Azərbaycan, türk, rus və ingilis dillərində oxuculara təqdim edilir. Bu il Qazaxıstanın Lev Qumilyov adına Avrasiya Milli Universiteti ilə də Memorandum imzaladıq və türk dillərinin birgə lüğətinin hazırlanması barəsində razılığa gəldik.

Eyni zamanda, biz, Polşanın Varşava Universiteti ilə uğurlu iş birliyi əlaqələri qurduq və ötən il bu universitetin ev sahibliyində gerçəkləşən VI Beynəlxalq Türkologiya Konqresində əsas tərəfdaş qismində çıxış etdik. Konqres çərçivəsində çoxsaylı panellərdə Türkologiyaya həsr olunan müxtəlif mövzular müzakirə olundu.

Sevinclə deyə bilərəm ki, Bakı Dövlət Universiteti, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dillər Universiteti, Hoca Ahmet Yasəvi adına Beynəlxalq Qazax–Türk Universiteti, Yusif Balasaqunlu adına Qırğızıstan Milli Universiteti, Türkiyənin Bursa Uludağ Universiteti, Macarıstanın Ötvöş Lorand Universiteti ilə gözəl əməkdaşlıq münasibətlərimiz mövcuddur. Bizim məqsədimiz bu universitetlərdə sahə üzrə Türk Dünyası Mərkəzləri yaradaraq onlardan ibarət böyük şəbəkə qurmaqdır.




**– Bu yaxınlarda Yusif Balasaqunlu adına Qırğızıstan Milli Universitetinin fəxri professoru adına layiq görüldünüz...**

– Doğrudur. Əlbəttə, bu mənim üçün böyük şərəfdir. Biz Qırğızıstan Milli Universitetinin nəzdində “Türkdilli Ölkələrin Jurnalistika Mərkəzi”ni yaratdıq. Biz istəyirik ki, gənclərimiz ümumi türk inteqrasiyasında daha yaxından iştirak etsinlər.

**– Görünür ki, sizin Türk Dünyasında qarşılıqlı münasibətlərin daha da dərinləşdirilməsi yönündə çoxşaxəli fəaliyyətləriniz türk dövlətləri tərəfindən qiymətləndirilir. Qazaxıstan Respublikasının Ali diplomatik medalı və Qırğız Respublikasının Prezidentinin Fəxri Fərmanı ilə təltif olunmağınız bunun yüksək təcəssümünü ifadə edir. Bu münasibətlə sizi ürəkdən təbrik edirik.**

– Təbrikiniz üçün təşəkkür edirəm. Bilirsiniz, bu ilk növbədə, müasir dövrdə türk dövlət başçıları tərəfindən Türk Dünyasında tarixi dostluq və qardaşlıq bağlarının, həmrəylik ideologiyasının gücləndirilməsinə verilən dəyərin, dəstəyin göstəricisidir. Qazaxıstan və Qırğız respublikalarının xarici işlər nazirləri tərəfindən mənə bu fəxri mükafatlar təqdim olunarkən mənəvi olaraq böyük hisslər yaşadım, şərəf duydum. Eyni zamanda, Türk Dünyasının birlik və bərabərlik içərisində gələcəyinin inşa olunmasına töhfə vermək özü də xoşbəxtlikdir.

**– Maraqlıdır ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu türk xalqlarının qədim tarixi ilə də məşğul olub.**

– Bəli, biz qədim türk tarixiylə bağlı böyük layihələr gerçəkləşdirmişik. Onlardan biri Avropanın müxtəlif paytaxtlarında təşkil etdiyimiz qədim türk yazıları - petroqliflərə, tamqalara və runikalara həsr olunmuş sərgidir. Bu sərgidə Qazaxıstanın, Qırğızıstanın və Azərbaycanın tanınmış tətbiqi sənət ustalarının qədim türk yazılarının və simvollarının daş və keramika üzərindəki bədii oymalarından ibarət müxtəlif əl işləri, sənətkarlıq nümunələri təqdim olundu, tarixi işarələrlə bağlı mühazirələr oxundu. Bu nədir? Bu, keçmişlə bugünü birləşdirən körpüdür. Eyni zamanda, bu il Bakıda Türk Akademiyası və UNESCO üzrə Azərbaycan və Türkiyə milli komissiyaları ilə birgə qədim türk yazısının oxunmasının 130 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirdik.

Digər tərəfdən fondun fəaliyyətinin ilk illərindən “Türk dövlətləri Böyük İpək Yolu üzərində” adlı genişmiqyaslı layihə başlatdıq. Mütəmadi olaraq, konfrans, dəyirmi masa, simpozium təşkil edərək, bizi birləşdirən amil – Böyük İpək Yolu mövzusu ətrafında türk dövlətlərinin türkoloqlarını, elm xadimlərini bir araya gətirdik, müzakirələr apardıq. Həmçinin layihə çərçivəsində Azərbaycanın tanınmış alimləri tərəfindən hazırlanan “Azərbaycan İpək Yolu üzərində” adlı akademik kitabı Azərbaycan, ingilis və rus dillərində nəşr etdik. İnanıram ki, bu layihə davam edəcəkdir.

Digər tərəfdən, Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutu ilə əməkdaşlıq çərçivəsində Gəncə keramikası ilə bağlı Azərbaycan və özbək alimləri ilə birlikdə hazırladığımız kitab bugünlərdə işıq üzü görür.

**– Həqiqətən, fondun fəaliyyəti olduqca geniş miqyasdadır.**

– Düzünü deyim ki, bunlar sadalaya biləcəyim layihələrin, tədbirlərin yalnız bir hissəsidir və hamısı da təşkilatın nizamnaməsində qeyd olunduğu kimi, fondun məqsədləri çərçivəsinə daxildir.

Biz təkcə Türk dövlətləri ilə deyil, eyni zamanda azsaylı türk etnik kökənli xalqlarla, o cümlədən Litvada məskunlaşmış tatar və karaimlərlə, Polşa və Rumıniya tatarları ilə, Moldovada yaşayan qaqauzlarla münasibətlər quraraq əməkdaşlığımızı genişləndirdik. Təsis etdiyimiz “Dədə Qorqud” mükafatını ilk dəfə Litva karaimlərinin tanınmış nümayəndəsi, diplomat, tərcüməçi Halina Kobeckaiteyə təqdim etdik.

Yaxın zamanda nümayiş etdirəcəyimiz türk təsviri sənətinin qorunmasına və tanıdılmasına yönəlmiş “Miniatürlərin sirli dünyası” sənədli filmində Türk Dünyasının müxtəlif miniatür məktəblərinin nümunələrini, onların oxşar cəhətlərini əks etdirdik. Bu il ilk dəfə restavrasya sahəsinə birbaşa daxil olduq və Qırğızıstan tərəfinin müraciətinə əsasən, böyük qırğız şairi və dramaturqu Alıkul Osmonovun ev-muzeyindən başladıq. Eyni zamanda “Türk Dünyası 2040 Vizyonu” çərçivəsində fondun üzərinə qoyulan Ümumtürk mədəni irsinin qorunması haqqında Konvensiyanın hazırlanmasına başladıq.

**– Günay xanım, fondda Azərbaycanın sədrliyi bitib və Qazaxıstana ötürülüb.**

– Bəli, bu hər bir beynəlxalq təşkilata məxsus olan rotasiya qaydasıdır. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti təşkilata üzv dövlətlərin başçıları tərəfindən dörd il müddətinə təyin edilir. Təşkilatın nizamnaməsinə uyğun olaraq, yalnız fondun qurucu prezidenti növbəti dördillik dönəmdə yenidən bu vəzifəyə seçilə bilər. Mən təşkilatın rəhbərliyini ikinci dəfə icra etdim və Azərbaycan fonda 8 il sədrlik etdi. İndi isə növbə Qazaxıstanındır.

Mən göstərdikləri etimada görə fonda üzv ölkələrin dövlət başçılarına, ilk növbədə, bilavasitə təşəbbüsünə və inamına görə Prezident İlham Əliyevə, həmkarlarıma, beynəlxalq birlik və əməkdaşlığı təşviq edən türk təşkilatlarının rəhbərlərinə, bərabər çalışdığımız səfirlərə böyük sevgi və həvəslə tamamladığımız ortaq işlər üçün təşəkkür etmək istəyirəm. Fondun mənimlə birlikdə çalışan bütün əməkdaşlarına, ötən ildən etibarən beynəlxalq tərkib qazanan heyətimə təşəkkür edirəm. Onlar söylədiyim və söyləmədiyim bütün bu işlərdə fədakarcasına əllərindən gələni əsirgəmirdilər və əminəm ki, bundan sonra da belə olacaq.

Mənim babam İlyas Əfəndiyev bir atalar sözünü hərdən təkrar edirdi: “Hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmır!” Mən də bəzən düşünürəm, bu səkkiz il necə gəlib keçdi? Fond yarandığı vaxtdan bu günə kimi keçən illər çətinliklərə, əziyyətlərə baxmayaraq, mənim həyatımın ən işıqlı illərindəndir. Sizdən gizlətmirəm, bu barədə düşünərkən mən mənəvi rahatlıq hiss edirəm və ən əsası isə ümumtürk mədəniyyəti ilə, irsi ilə fəxr edirəm. Fəxr edirəm ki, bu mədəniyyət, bu irs milli məhdudiyyətə yox, bəşəri dəyərlərə tuşlanıb. Ümumtürk mədəniyyəti və irsi nə qədər millidirsə, o qədər də bəşəridir. Kiçikliyindən-böyüklüyündən asılı olmayaraq, qədim və zəngin türk mədəniyyətinin və irsinin mahiyyətində bütün xalqlara məhəbbət və sevgi mövcuddur.

Artıq fonda Qazaxıstan nümayəndəsi fəaliyyətə başlayıb. O, Qazaxıstanın keçmiş mədəniyyət naziri, tanınmış ictimai və dövlət xadimi Aktotı Raimkulovadır. Mən, əlbəttə, ona böyük uğurlar arzu edirəm və inanıram ki, fond yeni nailiyyətlərə imza atacaq.

Bu gün geriyə baxarkən, gözəl bir hiss keçirirəm ki, bu səkkiz illik missiyamı yerinə yetirə bildim. Fəxr edirəm ki, 8 il boyunca Türk mədəniyyətini və irsini təbliğ etdim. Türk Dünyasını təmsil etdim. Bir Azərbaycanlı qadın olaraq, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun, ümumiyyətlə Beynəlxalq təşkilatın ilk rəhbəri kimi nə etdimsə, sevgi ilə, ürəkdən etdim.

**XQ**



# DİN-də ali dövlət mükafatlarının təqdimatı

**Dekabrın 29-da Daxili İşlər Nazirliyində Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında şəhidlik zirvəsinə ucalmış əməkdaşların ailə üzvlərinə, həmçinin qarşıya qoyulan tapşırıqların icrasında fərqləndiklərinə görə ölkə başçısının müvafiq sərəncamları ilə təltif edilmiş bir qrup əməkdaşa dövlət mükafatlarının təqdim olunmasına həsr edilmiş tədbir keçirilib.**

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Müzəffər Ali Baş Komandan İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının Vətən müharibəsində şərəfli döyüş yolu keçdiyini vurğulayıb. Hərbi qulluqçularımızın Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiyini qeyd edən nazir torpaqların azad olunması zamanı şəxsi heyətdən 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını qeyd edərək, 4 hərbi qulluqçunun “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görüldüyünü, minlərlə hərbi qulluqçumuzun isə orden və medallarla təltif olunduğunu diqqətə çatdırıb.

General-polkovnik V.Eyvazov Vətən müharibəsində olduğu kimi, bu ilin sentyabr ayında lokal xarakterli antiterror tədbirləri zamanı Daxili İşlər Nazirliyinin 20 əməkdaşının şəhid olduğunu, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi zamanı hərbi qulluqçuların, eləcə də polis əməkdaşlarının yüksək peşəkarlıq göstərdiklərini, şəxsi heyətin bundan sonra da Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazır olduğunu bildirib.

Sonra nazir V.Eyvazov antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış polis əməkdaşlarının və hərbi qulluqçuların ailə üzvlərinə, döyüş tapşırıqlarının icrası zamanı fədakarlıq göstərən, eləcə də xidməti vəzifələrin öhdəsindən layiqincə gələn əməkdaşlara ali mükafatları təqdim edib.

Nazir hər bir təltifin, eyni zamanda, məsuliyyət doğurduğunu xatırladıb, öz andına həmişə sadiq olan daxili işlər orqanları əməkdaşlarının bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcəyinə, bu yolda qüvvə və bacarığını əsirgəməyəcəyinə əminliyini bildirib.

**XQ**

# Naxçıvanda seçki hüququ ilə bağlı seminar

**Naxçıvanda seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan seminar keçirilib.**




Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təşkil olunan tədbirdə Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarova və Hüquq və İnsan Haqları İnstitutunun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin müdiri Vüsalə Muradxanlı çıxış ediblər.

Çıxışlarda vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan müraciət və şikayətlərinin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılmasından, bilik, bacarıq və işgüzar vərdişlərin daha da təkmilləşdirilməsindən, Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququndan danışılıb.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazovun və institutun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin təlimçi-eksperti Hamlet Babayevin seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsipləri, seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılmasına dair çıxışları dinlənilib, slayd vasitəsilə mövzular barədə ətraflı məlumat verilib.

Seminara qatılan dairə seçki komissiyalarının Ekspert qrupu üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan, şikayət və müraciətlərin araşdırılması müddətləri, ardıcıllığı, qaydaları və sübutların qiymətləndirilməsi, habelə rəylərin və qərar layihəsinin hazırlanması prosedurlarını aydın və əhatəli əks etdirən yeni “Yaddaş kitabçası” təqdim olunub.

Qeyd edək ki, seminarda Naxçıvan Muxtar Respublikası üzrə 6 dairə seçki komissiyasının sədr, katib və ekspert qrupunun 36 üzvü iştirak edib.

**XQ**

# İcma prezident seçkiləri ilə bağlı bəyanat yayıb

**Dekabrın 29-da Qərbi Azərbaycan İcmasının növbədənkənar ümumi yığıncağı keçirilib. Toplantı 2024-cü il fevralın 7-də Azərbaycan Respublikası Prezidenti seçkilərində İlham Əliyevin namizədliyinə dəstək mövzusuna həsr edilib.**

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli fevralın 7-də keçiriləcək prezident seçkilərinin Azərbaycan Respublikasının tarixində mühüm hadisə olacağını qeyd edərək ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş və Qərbi Azərbaycana qayıdış məsələsini beynəlxalq gündəliyə gətirmiş Müzəffər Ali Baş Komandanın – Prezident İlham Əliyevin namizədliyinə dəstək ifadə edib.

Daha sonra Müşahidə Şurasının sədri, professor Misir Mərdanov, Ağsaqqallar Şurasının sədri, deputat akademik Əhliman Əmiraslanov, Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid Novruzov və başqaları çıxış edərək ulu öndər Heydər Əliyevin irsini şərəf və ləyaqətlə davam etdirən, bütün dünya azərbaycanlılarının ümid və dayaq yeri olan Prezident İlham Əliyevin namizədliyinə dəstək ifadə ediblər.

Çıxışlardan sonra bəyanat qəbul edilib. Sənəddə “Qərbi Azərbaycan İcmasında birləşən yüz minlərlə icma üzvü olaraq gələn il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkilərində İlham Əliyevi dəstəklədiyimizi bəyan edirik,” – deyə bildirilir.

**XQ**

# Azərbaycan kartoqrafları Ermənistanın dağ-mədən sənayesi xəritəsini hazırlayırlar

**2024-cü ildə ilk dəfə Ermənistanın dağ-mədən sənayesi xəritəsi buraxılacaq və bununla bütün dünyaya bu müəssisələrin regionun ekologiyası üçün necə böyük təhlükə törətdiyi əyani şəkildə nümayiş olunacaq. Bunu “Azərbaycan Kartoqrafları” İctimai Birliyinin sədri Müqabil Bayramov açıqlayıb.**

O bildirib ki, layihə rəhbərlik etdiyi QHT-nin ilk işi olacaq: “40 ilə yaxındır ki, peşəkar kartoqrafiya işi ilə məşğulam. Bu ilin yayında Prezident İlham Əliyev keçirdiyi müşavirədə Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin bölgənin ekoloji mühiti üçün yaratdığı təhlükəni ətraflı şəkildə izah etdi və bunu dünyaya çatdırmağın vacibliyi haqqında danışdı. Bu ideya da həmin çıxışdan sonra yarandı. Bu xəritəni hazırlamaq üçün bütün gücümü ortaya qoymuşam".

"2024-cü il COP29 ilidir, biz bu xəritəni Azərbaycana gələn xarici QHT-lərə də təqdim edəcəyik ki, onlara Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin Cənubi Qafqazın ekologiyası üçün yaratdığı təhlükə daha aydın olsun", – QHT rəhbəri əlavə edib.

**XQ**




# Şəhid ailələri, Yeni iliniz mübarək!

## Sizin verdiyiniz qurbanlar ölkəmizə əmin-amanlıq gətirib

**Qırılı kəndi Ağstafa rayonunun ən böyük kəndlərindən biridir. Hazırda bu kəndin əhalisinin sayı 4 min 668 nəfərdir. Bir sıra mühüm neft və qaz kəmərləri kəndin ərazisindən keçərək dünya bazarına yol alır. Kənd öz tarixi şəxsiyyətləri, görkəmli nümayəndələri ilə daim fəxr edib.**



Son illər, xüsusilə, Birinci və İkinci Qarabağ müharibələrindən sonra bu adların sırasına kəndin şəhidlərinin də adı yazılıb və hazırda onların sayı 12 nəfərə çatıb. Kənddə kimdən soruşsan, onların hər birinin adını, keçdiyi həyat və döyüş yolunu əzbər söyləyər. "Onlar bizim şərəf və ləyaqətimiz, qürur mənbəyimizdir", – deyirlər. Sirac Əliyev, Nəriman Həsənov, Vüsal Rzayev, Xəyyad Abbasov, Bakir Abbasov… Daha sonra Vətən müharibəsində Elvin İmaməliyev, Əliheydər Hüseynli, Emin Əmrahov, Təbriz Quliyev, Elgün Abdullayev, Rəhman Musayev və ən nəhayət, Xankəndinin terrorçulardan azad olunmasında qəhrəmancasına həlak olan Samir Sadıqov.

**Samirin atası Cəbrayıl Sadıqovun evinə gəlmişik. Geniş həyəti və bir neçə otaqdan ibarət evi var. Cəmi 3 ay qabaq şəhidlik zirvəsinə yüksələn oğlunun adını çəkəndə səsi titrəyir və qeyri-ixtiyarı əlini tez-tez onun ölüm xəbərindən sonra bir dəfə də qırxmadığı, tük basmış üzünə çəkir.**

– Çox vətənpərvər uşaq idi, – deyir. – Tovuzda iyul hadisələri zamanı general Polad Həşimov və digərləri həlak olandan sonra evdə təsadüfən musiqi səsi eşidəndə əsəbiləşirdi, əməlli-başlı dava salırdı. Heç kimin xəbəri yox idi, bir də eşitdik ki, səsi Füzulidən, Cəbrayıldan gəlir, Vətən müharibəsində iştirak edir. Könüllü getdiyi 44 günlük müharibədən sağ-salamat evə qayıtdı və təbii ki, çox sevindik. Özü də sevinirdi, torpaqlarımızın azad olunmasında iştirakı onu qürurlandırırdı. Bir müddət sonra dedi ki, hərbçi olmaq istəyirəm.Təkidlə bizi də razı saldı və müddətdən artıq xidmətdə işə düzəldi. Yenicə toyunu eləmişdik. Ata olmağa hazırlaşırdı. Amma övladını görmək ona nəsib olmadı. Daxili qoşunlarda xidmət göstərən Samirin antiterror tədbirlərində iştirakı zamanı qəhrəmancasına həlak olduğu xəbərini aldıq…

Sözlərinin ardını deyə bilmir. Bir qədər susduqdan sonra rayon icra hakimiyyətinin onun ailəsinə göstərdiyi diqqəti qeyd etməklə yanaşı, kənddəki bulaqlardan birinin oğlunun adına verilməsini xahiş edir.

**Bizə bələdçilik edən kənd icra nümayəndəsinin müavini söhbətə müdaxilə edir:**

– Rayon icra hakimiyyəti Samirin dəfninin təşkilində, qəbirüstü abidəsinin düzəldilməsində, hətta bu evə gələn yolun təmir olunmasında nə lazımdırsa edib. Şəhid övladının adına bulaq çəkilməsi isə təzə söhbətdir. Güman edirəm ki, yaxın günlərdə atanın bu arzusu da həyata keçər.

Qırılı kəndinə başqa bir şəhidin, hamının "Düşmənə dərs keçən şəhid müəllim" adlandırdığı, əlindəki qələmini silaha dəyişən məktəb direktoru Elvin İmaməliyevin də ata evinə gəlirik. Elvin müəllim 2019-cu ildə direktorların işə qəbulu üzrə müsabiqəyə qatılıb və yüksək bal toplayaraq Ağstafa şəhəri 1 nömrəli tam orta məktəbinə direktor təyin edilib. Rayonun ən gənc məktəb direktoru olaraq tanınıb.




– O, Vətən müharibəsində Füzuli, Cəbrayıl və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Ailəli olub, iki oğul övladı Vətənə əmanətdir.



Bundan başqa, YAP Gənclər Birliyi Ağstafa Rayon Təşkilatının sədri olub. Rayon icra hakimiyyətinin başçısı Seymur Orucov bu vəzifəyə təyin olunmamışdan əvvəl YAP Gənclər Birliyi respublika təşkilatının sədri, Elvin İmaməliyev isə rayon təşkilatının sədri olub, yəni bir-birini yaxşı tanıyıblar. Elvin haqqında söz düşəndə S.Orucovun bir cümləsi onun kimliyini gözlərim önündə canlandırdı: "Olduqca intizamlı, məsuliyyətli, Vətənini sevən oğlan idi..."

**Şəhidin atası Elsevər İmaməliyev təkidlə bizi evə dəvət edir, qolumuzdan yapışıb, "bir stəkan çayımızı için" deyir. Elvinin döyüşlərə könüllü getdiyini, Şuşa şəhərində şəhidlik zirvəsinə ucaldığını bildirir. Şəhidin həyat yoldaşı Əsmər İmaməliyeva söhbətə qoşulur:**

Uşaqlarımı onun adına layiq böyütməyə çalışıram. Elvin hər zaman şagirdlərinə vətənpərvərlik hissi aşılayırdı. Evdə iki balasına bayrağı, Vətəni sevdirirdi. İndi uşaqlar bayrağımızı görəndə deyirlər ki, atamızın bayrağıdır.

Elvin İmaməliyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

**Şəhidin atası əlavə edir:**

– Bu yaxınlarda məni Bakıya çağırmışdılar. İkiotaqlı mənzilin açarını verdilər. Dedilər ki, "Jurnalistlərin binası" deyilən ərazidə yenicə inşa olunan 3-cü binadan Elvinin ailəsi üçün mənzil ayırıblar. Düzü, çox sevindim.

Ardınca Elsevər kişi ölkə Prezidentindən, yerli icra strukturlarından hədsiz razılıq edir. Deyir, hətta adi bir sözə, xahişə dərhal reaksiya verirlər, işin həll olunduğunu bildirirlər. Elvinin direktoru olduğu məktəbin önündə böyük abidə kompleksi ucaldılıb. Sağ olsunlar, açılışında bütün rayon ictimaiyyəti iştirak etdi.

**Qeyd edək ki, Elsevər İmaməliyevin məktəbdə təsərrüfat işləri üzrə direktor müavini işinə düzəlməsinə də rayon rəhbərliyi yaxından kömək göstərib.**

– Yeganə arzum işlədiyi məktəbə oğlum Elvinin adının verilməsidir. Bilirəm, bu, elə-belə olmur, Nazirlər Kabineti səviyyəsində həll edilir. Hər halda, ata kimi istəyimi bildirirəm. Həyata keçsə, elə bilərəm Elvinim sağdır və yenə həmin məktəbə gedib-gəlir...

Poylu kəndində, Vurğun qəsəbəsində də şəhid atalarının necə qürurlu olduqlarınu gördük. Söhbətlərində yalnız övladlarının Vətən yolunda, torpaq uğrunda canlarından keçdiklərini dilə gətirdilər. Şəhidlər Vasif Nəzərlinin, Xəyal Əlizadənin, Amil Tanrıverdiyevin, Məhəmmədəli Ələkbərovun və başqalarının qəhrəmanlıq salnaməsi gözlərimiz önündə canlandı.

Poyluda olarkən icra nümayəndəsi Elçin Aslanov söhbət zamanı bildirdi ki, inanmıram, hansısa bir şəhid ailəsi icra orqanlarından narazı qalsın. Nə istəkləri var, dərhal reaksiya veririk, kömək etməyə çalışırıq. Nəyə də gücümüz çatmır, rayon icra hakimiyyətinə müraciət edirik. Şəhid valideynləri övladlarını Vətənə qurban veriblər, bizim də borcumuz onların bütün qayğılarını həll etməkdir.

***H.ZEYNALOĞLU,***
***XQ-nin bölgə müxbiri***

**Ağstafa rayonu**

# Tarixi "İmarət" Ağdamın bugününə qayıdır

## Qarabağ xanlarının ata ocağı və əbədiyyət ünvanına mediaturdan reportaj

**(əvvəli 1-ci səhifədə)**



Ötən müddətdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin və Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun səyyar ekspedisiyaları Qarabağ və Ağdamın son 3 əsrlik tarixinin canlı yadigarı olan bu qiymətli tarixi məkanda geniş elmi-tədqiqat və arxeoloji axtarış işləri aparıb, Qarabağ xanları ailəsinin tarixi ilə bağlı bir çox qiymətli faktları aşkara çıxarıblar. Eyni zamanda, ərazidə elmi-bərpa işləri də aparılıb və hazırda davam etdirilir.

Dövlət başçısının "İmarət" Kompleksinə ötən həftəki səfərindən sonra Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu bir neçə gün sonra mərkəzi media təmsilçilərinin "İmarət" kompleksinə mediaturunu təşkil etdilər.

Qarabağa jurnalist səfərlərinin start məntəqəsinə çevrilmiş Səbail rayonundakı Su İdmanı Sarayının qarşısından səhər saat 7-də yola çıxan avtobus 4 saatlıq məsafəni aşıb Ağdam ərazisinə daxil oldu. İşğaldan azad edilmiş ərazidə aparılmış bərpa-quruculuq işlərinin ilkin nişanələri olan yeni salınmış 4 cərgəli avtomobil və dəmiryol xətti nə qədər xoş duyğular oyadırdısa, erməni vandalların 30 il müddətində ölü zonaya çevirdikləri yolkənarı yaşayış məntəqələrinin miskin görkəmi bir o qədər kədər doğurur, bu cəhənnəmi yaradanlara qarşı barışmaz bir nifrət doğururdu.

Yeni yolun sonunda nəhəng tikinti meydanını xatırladan Ağdama yetişməyimiz öyünclü-fərərəhli duyğularımızı coşdurdu. İnsanlıq simasını itirmiş düşmən bir güllə atılmadan Qarabağın baş qapısı sayılan Ağdamdan qovulub çıxarılmış və son 3 ildə burada regionun ən böyük şəhərinin sıfırdan ucaldılmasına başlanıb. Bu qədim torpağın üstündə onun keçmişinin yeganə nişanələrindən sayılan "İmarət" Kompleksinin bərpa olunması Ağdamın məhv edilmiş keçmişi ilə Azərbaycanın ən gözəl yeni şəhəri arasında canlı körpü kimi salınır.

Şəhərin ilk diqqətçəkən tikililərindən olan "Qarabağ" çoxmərtəbəli yaşayış kompleksi ilə "Muğam mərkəzi"nin arasından keçib "İmarət"ə yetişdik. Burada bizi ölkə Prezidentinin Qarabağ nümayəndəliyinin və səfərin təşkilatçısı olan Mədəniyyət Nazirliyinin, həmçinin AMEA-nın əməkdaşları qarşıladılar.



Xatırladaq ki, işğaldan azad edilmiş Ağdam şəhərinə jurnalistlərin ilk 2 səfərini 2021-ci ilin mart və aprelində Media Agentliyi təşkil etmişdi. O zaman gördüyümüz mənzərə – Qarabağın müqəddəs məkanlarından birinin qəddarcasına təhqir edilməsi və murdarlanması qəlbimizi nə qədər ağrıtmışdısa, indi boy göstərən ağappaq bir görsəniş bizi bir o qədər sevindirdi və məmnun etdi.

Ötən müddətdə dağıdılmış, sökülmüş tikili və türbələr bərpa edilib, Ağdamın ağ əhəng daşının bəyaz rənginə bürünüb. Ərazi arxeoloji tədqiqat məkanı kimi diqqəti cəlb edir. Torpağın altının 2–3 əsrlik mənzərəsi üzə çıxarılıb. Yer altından çıxarılmış qəbir daşları və yazılı lövhələr səliqə ilə bir yerə toplanıb sərgilənir. Tezliklə muzey kompleksinə çevriləcək ərazinin mənzərəsini əks etdirən bərpa eskizləri və layihə mənzərələri xoş ovqatımızı bir az da artırdı.

Burada aparılmış işlər və ərazinin yaxın gələcəyi barədə turun təşkilatçılarının verdikləri məlumat "İmarət" barədə təsəvvürlərimizi dolğunlaşdırdı. Bildirildi ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayı kimi tanınan tikililər və xan ailəsinə mənsub nekropol-türbələr olub. Əsas tikili olan XVIII əsrə aid tarix-memarlıq abidəsi Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli ev xüsusiyyəti daşıyıb. İşğal altında olmuş ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də işğalçılar tərəfindən təhqir edilib, dağıdılıb.

Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar – İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, sonuncu hakim Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarı olub. Qarabağ xanlarının nəslindən olan digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn ediliblər. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra məzarlıq da erməni vandalizminə məruz qalıb. İbrahimxəlil xanın türbəsi və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi ermənilər tərəfindən dağıdılıb.



Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq 2021-ci ilin ortalarından Pənahəli xan sarayının yerləşdiyi "İmarət" Kompleksinin bərpa edilməsi üçün işlərə başlanılıb. Kompleksin bərpası ilə bağlı xarici mütəxəssislər tərəfindən hazırlanmış konsepsiya 2022-ci il oktyabrın 4-də dövlətimizin başçısına təqdim olunub və müvafiq işlərə start verilib. Konsepsiyaya əsasən, kompleksin Pənahəli xanın sarayı, türbələr və Qarabağ atları parkından ibarət tarixi məkan kimi öyrənilməsinə və bərpa edilməsinə başlanılıb. Xanın sarayı bərpa edildikdən sonra interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Daha sonra qeyd edildi ki, xarici mütəxəssislərin Ağdama səfərləri çərçivəsində sahənin inspeksiyası və çəkilişləri aparılıb, arxiv materialları araşdırılıb, beynəlxalq təcrübəyə əsaslanaraq bərpa və dizayn layihələri hazırlanıb. Kompleks, ümumilikdə, 3,3 hektar ərazini əhatə edib.

"İmarət" Kompleksindəki tarixi qəbiristanlıqda mövcud 5 türbə qalığı tədqiqat sahəsinə daxil edilib. Türbələrin içi və ətrafı erməni işğalçılarının bu abidələrin daxilində qurduğu donuzçuluq təsərrüfatının tullantılarından və digər qalıqlardan təmizlənib. Tədqiqat nəticəsində burada çox sayda müsəlman qəbirləri, daş abidələrin fraqmentləri – başdaşıları, sinədaşları, antik dövr sütun bazası, antropomorf büt aşkarlanıb.

Ərazidə, xüsusilə, kəllə və alt çənə sümükləri, çox sayda insan skeletinin fraqmentləri tapılıb. Onların arasında xan nəslinə aid olan qədim sərdabə tipli qəbirlər də yer alıb. Burada sovet dövründə dəfn edilənlərin qəbirlərinin böyük bir hissəsi vandalizmə məruz qalıb. Ərazidə aşkarlanan sümüklərdən DNT nümunələri götürülüb, qəbirlərin identifikasiyası üzərində araşdırmalar davam etdirilir.

Erməni işğalçılar tərəfindən məzarların sinədaşı və başdaşıları sındırılıb, bir çoxu müxtəlif məqsədlə istifadə üçün qəbiristanlıq ərazisindən çıxarılıb.

Kompleksin ərazisində arxeoloji tədqiqatların aparılmasını AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun mütəxəssislərdən ibarət elmi ekspedisiya gerçəkləşdirib.Tədqiqatlar zamanı tapıntıların foto və videoçəkilişləri həm fotoaparat, həm də kvadrokopterlə aparılıb. Müəyyən edilib ki, "İmarət" Kompleksinə aid olan tarixi qəbiristanlığın ərazisi 6 min kvadratmetrdir. Hazırda kompleksin ərazisindəki tarixi qəbiristanlıqda arxeoloji tədqiqat işləri davam etdirilir. Kompleksin tədqiqi və bərpası Qarabağ Dirçəliş Fondunun vəsaiti ilə aparılır.

**Bu ümumi məlumatdan sonra jurnalistlər ərazi ilə ayrı-ayrı detallar üzrə tanış edildilər. Gördüklərimizlə bağlı suallarımızı cavablandıran Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva bildirdi:**

–Dayandığımız bu ərazi Qarabağın keçmişi ilə bağlı çox qiymətli bir tarixi yadigardır. Bu ərazinin bəxti sovet dövründə də gətirməyib. "Sinfi düşmən" sayılan Qarabağ hakimlərinin adı və xatirəsi ilə bağlı bu məkana ögey münasibət bəslənilib, 1920-ci illərin sonunda ərazidəki tikililərlə bağlı yarımçıq tədqiqat aparılsa da, işlər davam etdirilməyib. Stalinizmdən sonrakı yumşalma illərində ərazidə stadion salınanda yerli əhalinin arzu-istəyi nəzərə alınıb, tikili və türbələr dağıdılmayıb. Məzarlıq baxımsız qalaraq bərbad hala düşüb. Erməni vandallar isə türbələrdən ikisini dağıdıb, Xan qızı Natəvanın bərpa edilmiş məzarını dağıdıb, saray tikililərini donuz tövləsinə çeviriblər.

Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın müstəsna diqqəti sayəsində bu tarixi məkan ən yüksək səviyyədə dirçəldilir. Hər şey tarixi görkəminə qaytarıldıqdan sonra burada qoruq-muzey fəaliyyət göstərəcək. Ərazinin stadion hissəsi isə tarixi funksiyasına uyğun Qarabağ atlarının cıdır meydanına çevriləcək. Bütün bu işlərdə bizim xidmət yaxından iştirak edir. Tezliklə layihə üzrə işlər başa çatdırılacaq və ölkənin turizm marşrutuna daxil ediləcək.

**AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru Fərhad Quliyev isə aparılmış tədqiqat işlərindən və onun elmi cəhətdən araşdırılmasından söz açdı:**

–Ərazidə aparılmış tədqiqat bizə zəngin məlumat verdi. Türbələrdə dəfn edilənlərin məzarlarından götürülmüş DNK materialları onların konkret kimliyini və qohumluq əlaqələrini öyrənməyə imkan verəcək. Hətta kəllə quruluşuna görə simalar da bərpa ediləcək. Ərazidə 214 məzar aşkar etmişik. Onların da kimliyi öyrənilir. Torpaq altından çıxan digər daş abidə və eksponatlar da tədqiq edilir. Erməni vandalizminin dağıdıcı izlərini yox etmək üçün ciddi araşdirmalar aparılır. Bütün bunlardan elmi-bərpa işlərində istifadə edilir.

Müsahiblərimizin dediklərinə əlavə olaraq bildirək ki, "Pənahəli xan sarayı", "İmarət məzarlığı", "İmarət stadionu" adları ilə bugünümüzə gəlib çıxmış bu tarixi məkan barədə elmi-tarixi mənbələrdə və Ağdam ziyalılarının yaddaşlarından dövrümüzə gəlib çatan məlumatlarda müəyyən fərqli məqamlar olsa da, bu bilgiləri bir ortaq cəhət – ərazinin müqəddəsliyi və misilsiz tarixi dəyəri barədə söylənənlər birləşdirir.

Tarixi mənbələr göstərir ki, ərazidəki əsas bina birinci Qarabağ xanı Pənahəli xanın Ağdamda yay sarayı olmuş XVIII əsrə aid tarix-memarlıq abidəsidir. Pənahəli xanın Ağdamdakı sarayı xan nəslinin ən birinci mülklərindən olmaqla 2 binadan ibarətdir. Çox güman ki, ilkin çağında bu kompleksə daha çox bina daxil olub. Həmin kompleks Pənahəli xanın 1738-ci ildə Xorasandan qayıdıb, Qarabağda xanlıq quruculuğuna başladığı ilk illərdə inşa edilib.



Saray yaxınlığında yerləşən "İmarət" qəbiristanlığında Qarabağ xan nəslinin bir çox nümayəndələri dəfn edilib. Pənahəli xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də bu qəbiristanlıqda yerləşir.

Başqa bir məlumatda deyilir ki, XVIII əsrin birinci yarısında qarabağlı Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr verib. Həmin imarət uzun müddət ətraf kənddən ağ görkəmi ilə diqqəti cəlb edib. Ağdam adı da buradan yaranıb. "Ağdam" – günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev mənasını ifadə edib. Bina Pənahəli xanın imarəti də adlandırılıb. Ağdam xan sarayı hakimiyyətin zirvəsinə gedən yolda irəliləyən gənc xan Pənahəlinin mülk yerindəki qərargah rolu oynayıb.

Sarayın ilk memarlıq təsviri isə 1928-ci ilə təsadüf edir. "Arxeoloji oçerkə" görə, keçmiş xan sarayından yalnız dağıntılar qalıb. Sarayın fasadının qarşısında, təxminən, 50 metr məsafədə, düz xətt boyunca bir sıra nəhəng, qamətli, hündür çinar ağacları yerləşib. Görünür, Pənahəli xan Qarabağlı (1754-1759) sarayın inşası ilə eyni vaxtda bu çinarların da əkilməsini əmr edib. Sarayın, məscid evinin və çinarların xətləri sarayın qarşısında, demək olar ki, nizamlı olaraq dördbucaqlı, çox gözəl bir meydan yaradır.

"İmarət stadionu" barədə isə deyilir ki, bu, ərazidəki cıdır meydanında 1952-ci ildə salınıb. "İmarət" adını qoruyub saxlayan ağdamlılar onun giriş qapısına bu sözü milli ornamentlərlə həkk ediblər.

Stadionun direktorları olmuş Əli Hüseynov və Asif Mustafayev ərazidəki tarixi abidələrin qorunmasına da qayğı iə yanaşıblar. Ümumiyyətlə, ağdamlılar Qarabağ xanlarının bu axirət ünvanına müqəddəs məkan kimi yanaşıblar və onun təntənəli "İmarət" adını repressiyalardan qoruyub yaşadıblar.

**Qarabağ tarixinin bir çox məqamları barədə jurnalist tədqiqatlarının müəllifi, "Şuşa" qəzetinin baş redaktoru Vasif Quliyev tarixi mənbələri araşdırmaqla "İmarət" barədə yazılıb-deyilənlərə xeyli dürüstlük gətirib:**

–"İmarət"in ərazisi orta əsrlərdən Cavanşirlər nəslinə məxsus olub. Nadir şah öləndən sonra Qarabağa qayıdan Pənahəli ata mülkündə müxtəlif bağlar saldırıb. Bunlardan biri onların nəsil qəbiristanlığı olan ərazidəki "Barlı bağ" olub. Xan bu bağın məhsulunu ehtiyacı olanlara payladarmış. Şuşadan tez-tez Ağdama enən xan burada da özünə bir iqamətgah tikdirir və bu tikili xan sarayı, xan imarəti adı ilə tanınır.

Ata-babalarının xatirəsini əziz tutan Pənahəli vəsiyyət edir ki, öləndə onu bu halal mülk yerlərindəki məzarlığında dəfn etsinlər. Beləliklə, bu yer Cavanşirlər nəslinin yeni məzarlığı kimi ikinci həyat qazanır. İlk türbədə Pənahəli xan, ikinci türbədə İbrahim xan, ücüncüdə isə Mehdiqulu xan dəfn olunub. Şairə Xan qızı Nətəvan da ata-babaları kimi burada dəfn olunmağını vəsiyyət edib və atasının türbəsinin yanında dəfn edilib.

Həmkarımızın dediyinə əlavə olaraq qeyd edək ki, "Cıdır düzü" şuşalılar üçün nə olubsa, "İmarət" də ağdamlılar üçün həmişə eyni dəyər daşıyıb. Sovet dövrünün son illərində "İmarət" stadionunda sivil Azərbaycan qadınının timsalı olaraq şairə Natəvanın şərəfinə hər il Ağdamda ümumrespublika "Natəvan" qızlar bayramı təşkil edilirdi. 1989-cu ildə isə Şuşa mühasirədə olduğundan "Xarıbülbül" beynəlxalq musiqi festivalı Ağdamda–"İmarət"də keçirildi. Həmin bayramın videogörüntüləri ağdamlılar üçün qiymətli yadigardır.



Nəhayət, bildirək ki, "İmarət"dəki stadionun tarixi cıdır meydanına çevrilməsi ilə əlaqədar ölkə Prezidenti İlham Əliyevin göstərişi ilə yenidən qurulan Ağdamda onun yeni simasına uyğun müasir idman kompleksi və futbol meydançası da tikiləçək. "İmarət"adı daşıyacaq stadionun tamaşaçı tutumu 30 min nəfərdən çox olacaq.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov qəzetimizə müsahibəsində bununla bağlı bildirmişdir: "Futbol azarkeşlərinə demək istəyirəm ki, biz "İmarət" stadionunun tikintisini nəzərdə tuturuq. Düzdür, stadion əvvəlki yerdə deyil, yəni Pənahəli xanın "İmarət" kompleksində deyil, şəhərin digər daha böyük, geniş infrastrukturlu guşəsində olacaq. Bu idman məhəlləsində tək futbol stadionu deyil, böyük Olimpiya İdman Kompleksi, müxtəlif idman yarışları üçün qapalı-açıq meydançalar, idman təmayüllü orta məktəb, bundan əlavə, uşaqlar üçün idman yay düşərgəsi olacaq".

Beləliklə, Ağdama–tarixi "İmarət" kompleksinə 1 günlük media turumuz Qarabağ tarixinə bələdlik və sevgimizə yeni rənglər qatmaqla başa çatdı. Öyrəndiklərimizi və bildiklərimizi qısaca oxucularımıza çatdırdıq. Şübhəsiz, "İmarət"də gerçəkləşdirilən layihə tezliklə yekunlaşacaq və növbəti mediatur oxucularımıza bu tarixi məkan barədə əlavə məlumat çatdırmağa imkan yaradacaq.

*Tahir AYDINOĞLU,*
*Elşən AĞALAR (foto)*
*XQ*

**Bakı – Ağdam – Bakı**

# Azərbaycan Demokrat Firqəsi Milli Hökumət idealını yaşadır

**Güney Azərbaycanda 1945–1946-cı illərdə Milli Hökumət qurmuş Azərbaycan Demokrat Firqəsinin fəaliyyəti imperialist dairələri yarandığı zaman olduğu kimi, sonrakı dövrlərdə də daim narahat etmişdir. Qərb imperializmi Azərbaycanın güneyində müstəqil dövlət qurmuş bir partiyanı qanlı yolla ölkədən vurub çıxartdırdığı kimi, özünü məzlum xalqların dayağı elan etmiş Sovet imperiyası da Güney istiqlalçılarınının süqutuna göz yummuş, sonrakı dövrdə isə ADF-ni İrandakı əlaltısı olan Tudənin yedəyində görmək istəmişdi.**



Söhbət 1960-cı ildə Azərbaycan Demokrat Firqəsinin İran Xalq Partiyasına (Tudə) məcburi birləşdirilməsi ilə başa çatan konfransdan gedir. Moskvanın və Tudə rəhbərliyinin ADF-nin əksər üzvlərinin razılığı olmadan reallaşdırdığı bu aksiyanın – tarixi səhvin aradan qaldırılması üçün təşkilatımıza on illəri itirmək lazim gəldi. Kənardan elə görünürdü ki, sanki, ADF deyilən bir partiya yoxdur, sadəcə, Tudənin əl-qolu bağlı Azərbaycan təşkilatı var, onun da fəaliyyəti qətiyyən diqqəti çəkmir.

Bəs, əslində, vəziyyət necə idi? İllərin və hadisələrin canlı şahidi kimi bundan danışmaq istəyirəm. Çünki ADF-nin fəaliyyəti ölkə daxilində bir gün də dayanmayıb. Düzdür, Vəhdət konfransından sonra yaranan ideoloji baryerlər, istər-istəməz ADF-nin fəaliyyətinə, Azərbaycan xalqının milli hüquqlar uğrunda mübarizəsinə mənfi təsirlərini göstərməyə bilməzdi. Xalqın yaddaşında Seyid Cəfər Pişəvəri və onun silahdaşlarının yaratdıqları möhtəşəm partiyanın ideoloji təməlləri, proqram hədəfləri yaşayırdı.

Onlar bütün İran və Azərbaycan mühitinin tələblərinə cavab verən həmin proqramın həyatiliyini birillik Milli Hökumət dövründə əyani görmüş, bəhrəsini dadmışdılar. Bu baxımdan ölkə sakinlərinə sinfi və bölücü ideologiyanı qəbul etmək qətiyyən məqbul sayıla bilməzdi. Hər halda, bu xalq hərəkətsiz dayanmağı da özünə rəva bilməzdi. Odur ki, xalqımızın demokratik hüquqları uğrunda mübarizəsi geniş vüsət aldı. Çünki İranı hərbi-siyasi diktatura, qəddar Pəhləvi rejimi idarə edirdi. Güc birlikdə olduğundan partiyalar arasında "Vahid antidiktatura cəbhəsi"-nin yaranması günün tələbi idi.

Bundan əlavə, konfransın "soyuq müharibə"nin gərgin vaxtlarına təsadüf etməsi, müəyyən tələblər ortaya çıxarmışdı. Şərtlərdən biri bu idi ki, Tudə partiyasının III qurultayına qədər onun Mərkəzi Komitəsində ADF-nin 7 nəfər üzvü olmali idi. Firqə Azərbaycanın yeganə milli-siyasi təşkilatı kimi tanınmalı idi. Lakin bu baş vermədi. Sinfi ideologiyaya əsaslanan bir partiya olan Tudə SSRİ-nin dağılması ilə eyni taleyi yaşadı. 1992-ci ildə isə ADF İran Tudə Partiyasının III qurultayına qatılmadı, bununla Vəhdət konfransının qərarları avtomatik ləğv edildi.

Xatırladaq ki, Vəhdət konfransı İran hüdudlarından kənarda baş vermişdi. Bu hadisə ADF həyatında mənfi rol oynasa da, hətta onu iflic vəziyyətinə salsa da, ölkə daxilində təsiri bir o qədər duyulmurdu. Firqəçilər öz işlərində idilər. Firqə tərəfdarları ölkə daxilində mobil qruplar şəklində təşkilatlarını yaradıb 1960-cı ildən sonra da şah diktaturasına qarşı mümkün olan mübarizəni ardıcıl surətdə davam etdirirdilər.

İstərdik həmin qrup və təşkilatlardan bir qisminin adını çəkək. Bu gün onlardan "Əyyub Kələntəri, Əli Kolahi, Əli Əzimi, Zehtabi, Cavad Furuği", "Zülfüqari, Bilal, Məşədi Bayram", "Əliqulu, Əmirbadur", "Bulut Qaraçorlu, Məmmədəli Fərzanə", "Yəhya Şeyda", "Çərxrçi", "İctimaiyyun-amiyyun" qruplarını və başqarını ehtiramla xatırlayırıq. Əlbəttə, müştərək fəaliyyət göstərən, tərkibində Firqə–Tudə tərəfdarları olan qrupların da adlarını çəkmək mümkündür. Onlar 1979-cu il inqilabınadək fəaliyyətlərini davam etdiriblər.



Nəhayət, azadlıq və türk düşməni olan şah devrilərək ölkəni tərk etməyə məcbur oldu. Zindanlardan çıxdıq. İnqilab zəfər çaldı və biz dərhal Təbrizdə ADF-nin iqamətgahını açdıq. Səfərxan Qəhrəmani zindandan birbaşa mübarizə meydanına atıldı. Firqə rəhbərlərinin mühacirətdən Təbrizə gəlmələri fəaliyyəti daha da canlandırdı. ADF-nin orqanı "Azərbaycan" qəzetini Təbrizdə buraxmağa başladıq. Firqənin mühacirətdə olan Mərkəzi Komitəsinin üzvlərindən sədr müavini Ənuşirəvan İbrahimi, Seyidağa Onullahi, Məhəmməd Hüseyn Xoşginabi, Tağİ Musəvi, Mirvahab Əfğəm, Məhəmməd Əli Fərid, Məhəmmədəli Müciri, Fəqih, İrandoxt İbrahimi, Fridun Kazimi və başqaları ilə çiyin-çiyinə mübarizə apardıq.

İnqilab ərəfəsində Təbrizdə firqəçi yoldaşlarımızla məhəllələrdə və fabriklərdə şuralar qurduq və fəhlə sinfi içərisində sinkikalar təşkil etdik. "Fabrikdə nə xəbər" adlı gündəlik bulleten buraxdıq. "Yoldaş" və "Dədə Qorqud" jurnalları ADF təəssübkeşləri tərəfindən işıq üzü gördü. 300-dən artıq üzvü olan Azərbaycan Şair və Yazıçılar Cəmiyyətini yaratdıq .

Bu yarım leqal dövrdə fəaliyyətimiz 4 ildən artıq çəkmədi. Firqə yenidən basqılara məruz qaldı. 3 mindən çox firqə üzvü həbs olundu. ADF-nin sədr müavini Ənuşirəvan İbrahimi, fəallardan Rəsul Əmiri, Məhəmməd Hüseyn Əmirhaşimi, Məhəmməd Hüseyn Qədəmgahi, Mirvahab Əfğəm oldürüldülər. Bir çoxları yenidən mühacirət etməyə məcbur oldu. Digərlərimiz üçün yenidən çətin dövr başlandı. Lakin çox çəkmədi ADF-nin yenidən mobil qrupları, təşkilatları yarandı . "21 Azər"," Səttarxan", "Heydər Əmoğlu" , "Cavidan", "Sərriyə" qrupları və "Firqə tərəfdarı" təşkilatları mübarizəni davam etdirdilər.

Fəaliyyətimizin davamında məhbusların azadlığı, konstitusiyanın 15 , 19-cü və digər maddələrinin tətbiqilə, İran – İraq müharibəsinin dayandırılması, İnsan Hüquqları Komissiyasının başçısı Qalindopola məhbusların azadlığı üçün məktublar və imza toplanması, digər məsələlər gündəlik diqqət mərkəzindəolan məsələlər idi. Eyni zamanda, "Azərbaycan" qəzeti və jurnalının ölkə daxilində çoxaldılıb yayılması, mədəni fəaliyyətlər, milli dildə kitabların nəşri, şəhidlərin xatirə mərasimlərinin keçirilməsi, şair və yazıçılarmızın yubileylərinin, ədəbi-bədii gecələrin təşkili, dağçı qruları yaradıb gəzintilərin tərtibi kimi fəaliyyətlər davam etdirildi.

1992-ci ildə ADF-nin ölkə hüdudlarından kənarda passiv fəaliyyəti ilə rastlaşanda hamımız kədərləndik. Ona görə Avropaya üz tutduq. Qoca qitədə ADF-ni tanıtmaq üçün çoxsaylı seminarlar təşkil etdik, beynəlxalq təşkilatlarla görüşlər keçirdik, "21 Azər hərəkatı" barədə, Milli Hökümətimiz, mədəniyyətimiz, ana dilimiz, Urmu gölünün qurumasının qarşısının alınması ilə bağlı saysız-hesabsız aksiyalar həyata keçirdik. Firqə şəhidləri barədə sənədləri, Azərbaycanın ostanlara bölünməsi və şəhərlərinin, kəndlərinin, çayların və dağların adlarının dəyişdirilməsinə etiraz məktublarını yaydıq. Fəaliyyətimiz davam edir, hələ görülməli işlər çoxdur.

***Abdulla ƏMİRHAŞİMİ CAVANŞİR,***
***ADF publisisti***
***İsveç, Stokholm***

# "21 Azər həftəsi"

**Azərbaycan Demokrat Firqəsinin "21 Azər həftəsi" çərçivəsində təşkil etdiyi silsilə tədbirlər "Heydər Əliyev və Güney Azərbaycanda milli azadlıq hərəkatı" mövzusunda konfransla başa çatıb.**




Məclisdə məruzə ilə çıxış edən professor Eynulla Mədətli ulu öndər Heydər Əliyevin liderlik fəaliyyətinin Güney Azərbaycanla bağlı səhifələrindən, Ulu öndərin azərbaycançılıq və Dünya azərbaycanlılarının mənəvi birliyi ideyasının formalaşmasında misilsiz xidmətlərindən söhbət açıb. ADF MK-nın beynəlxalq əlaqələr üzrə məsulu Abdulla Əmir Haşimi, Cavanşir, Ayda Əmir Haşimi, ADF-nin Vaşinqton nümayəndəsi Rəhim Şahbazi və digərləri məruzələr ətrafında çıxışlarında Ümummilli liderin siyasi fəaliyyətində milli-mənəvi varlığımızın qorunması və yaşadılmasının önəmli yer tutduğunu vurğulamışlar.

Xatırladaq ki, "21 Azər həftəsi" çərçivəsində konfranslarda ADF-nin sədri Rəhim Hüseyinzadənin, tarix üzrə fəlsəfə doktoru, dosent Pərviz Kaziminin, Sədrəddin Soltanın, Məhəmmədrza Bagban Kəriminin məruzələri dinlənilmiş, fəlsəfə doktoru, dosent Subhan Talibinin Təbriz şəhərində çap olunmuş "İnsanlıq əleyhinə cinayətlər (XX əsr)" kitabının təqdimatı keçirilmişdir.

Konfransların materialları Azərbaycan və ingilis dillərində çap olunacaq.

**Kamal NİKBİN**

# Əyləncə əleyhinə çağırış

**Əli Xaməneinin Cənubi Xorasan əyalətindəki nümayəndəsi Əlirza İbadi ölkədə bütün əyləncələrin qadağan edilməsinə çağırıb. O, bu barədə İran mediasına müsahibəsində açıqlama verib.**

İbadi əyləncə proqramlarının yerinə müxtəlif siyasi və dini məsələlərin təhlilinə həsr olunmuş verilişlərin yayımlanmasını təklif edib: "Əyləncə inqilabi cəmiyyətin məhv olması deməkdir, bu sahəyə ayrılan vəsait israfçılıqdır".

Onun sözlərinə görə, musiqi, kino, teatr və başqa mədəniyyət sahələrinə ayrılan büdcə inqilabı hərəkətlərə və cəmiyyətin islamiləşdirilməsi üçün xərclənməlidir.



***Hüseyn RƏHİMZADƏ***

## Güneyli şairlər

### Vüsal körpüsü



Körpü olmaq istəyirəm
Arazın üstündə bir körpü.
Əsrlərlə ölçülsün onun ömrü...
Bir körpü olmaq istəyirəm,
Ayrı düşənləri qovuşdura bilim.
Arazın üstündən sovuşdura bilim.
Bir körpü olmaq istəyirəm,
Hicran daşlarından hörsünlər onu,
Daha hicran olmasın.
Kəsməsin insanların yolunu,
Adı "Vüsal körpüsü" olsun
İnsanlar keçsin üstündən,
Vətəndən Vətənə.
Kaş o körpüdən keçmək,
Qismət ola bir gün mənə.

***Balaş AZƏROĞLU,***
***Xalq şairi***

### Yaxşılıq



Bir Allah var – yaxşılıqdır gözümdə
O var olub hər adamın özündə
Gəz Allahı sən yaxşılıq sözündə,
İnsanların pənahıdır yaxşılıq.
Allahların Allahıdır yaxşılıq.

Yaxşı olma yaxşılıqdan ötəri,
Yaxşılıq et qoy olmasın xəbəri.
Ək, dünyaya birə yüzdür səməri
Qızıl taxıl dənəsidir yaxşılıq.
Zəmilərə dönəsidir yaxşılıq.

O ürəyin fəryadıdır, harayı,
O, bəşərin qızıl xislət sarayı,
Bu dünyada hər adamın öz payı,
Xalqa yaxşı oğulluqdur yaxşılıq,
Salamatlıq, "sağol"luqdur yaxşılıq.

Aldım onun sorağını tanışdan,
Gizlənmişdi bir mehriban baxışda.
Kömək oldu mənə o hər qarışda
Kömək olsun, borc olmasın yaxşılıq.
Borc olsa da mərc olmasın yaxşılıq.

Boş əllə də yaxşı olar adamlar,
Xəsisləşər əli dolu olanlar
Ələ baxar, dilə baxar qalanlar,
Aç əlini, ovcundadır yaxşılıq
Danış, dilin ucundadır yaxşılıq.

***Söhrab TAHİR ,***
***Xalq şairi***

### Yaddan bizə ana olmaz



**Bizə anadan yaxın dayə lazım deyil**
**S.C.Pişəvəri**

Səni tək bir ana deyil,
Səni xalqın özü doğub.
Sənin fikrin, əqidənsə
Bizi doğub.

"Yaddan bizə ana olmaz",
"Dayələrin" yoxdur yeri.
Öz yurduna ana dedin,
Öz xalqına ana dedin,
Seyid Cəfər Pişəvəri!

Zülmət qorxub çəkdi köçün,
Günəşdən nur daşıdın sən.
Yaşamadın özün üçün,
Xalqın üçün yaşadın sən.

Azadlığa çağırardın
Hüquqsuz olan milləti.
Zaman özü verdi sənə
Bu qüruru, bu hünəri,
Seyid Cəfər Pişəvəri.

Hər cümləni, hər yazını,
Dönə-dönə öyrənirik.
Sən tutduğun yol – yolumuz
Səninlə bir yol gedirik.

Düşmənlərin yığın-yığın,
Yarpaqlar tək xəzan oldu
Sənin zirvən, ucalığın
"21 Azər" oldu.
Aparırıq Gələcəyə
Qəlbimizdə bu səhəri,
Seyid Cəfər Pişəvəri.

***Tariyel ÜMİD,***
***İranlı Mühacirlər***
***Ədəbi Birliyinin sədri***

# "Anamın kitabı" Təbriz səhnəsində

**Təbrizdə Milli Hökumətin hakimiyyəti dövründə ADF orqanı "Azərbaycan" qəzetinin 8 aprel 1946-cı il tarixli sayında Həmid Nikpur adlı müəllifin çap olunmuş bu yazısını oxucularımıza təqdim etməklə xəyalən o xoşbəxt günlərə qayıdırıq. Yazıda böyük Cəlil Məmmədquluzadənin Azərbaycanın tarixi faciəsindən bəhs edən məşhur pyesinin Təbriz səhnəsində uğurla tamaşaya qoyulmasından söz açılıb.**



Cümə günü, aprel ayının 5-də (1946-cı il) Azərbaycan Dövlət Teatrında Azərbaycanın dəyərli dramaturqu Cəlil Məhəmmədquluzadənin (Molla Nəsrəddin) yazdığı məşhur əsərlərindən olan "Anamın kitabı" adlı pyesi tamaşaya qoyuldu. Öncədən hörmətli oxucularımızın nəzərinə pyesin mahiyyətini çatdırmaq istəyirəm.

Bu gün bütün dünyanın tanıdığı Azərbaycanın məşhur yazıçısı Cəlil Məhəmmədquluzadə özünün bir çox ölməz əsərlərilə xalqın düşüncə və idrakının inkişafında böyük və hesabagəlməz xidmətlər etmişdir. "Anamın kitabı" pyesini yazmaqda müəllifin məqsədi nədir? Əlbəttə, bu suala çox asanlıqla açıq cavab vermək olar. Azərbaycanımızın tarixdə dünyanın qüdrətli ölkələrindən biri olmağına baxmayaraq, tarixin müəyyən bir pilləsində güclü istilaçı dövlətlər tərəfindən parçalanmasını hamımız bilirik. Belə ki, bu parçalanma sayəsində uzun illər Azərbaycanın şimal hissəsi çar Rusiyasının, cənub hissəsi isə istilaçı fars təcavüzkarlarının işğalı altına alınmışdır.

Fars istilaçıları bizim ana Vətənimiz Cənubi Azərbaycanı öz əsarətləri altına saldıqdan sonra onlara qarşı müqavimət və mübarizə ruhiyyəmizi öldürmək, millətimizi aradan aparmaq, ana dilimizi və milli mədəniyyətimizi yox etmək üçün işlətdikləri siyasətin eynisi də Şimali Azərbaycanda çar Rusiyası tərəfindən irəli sürülürdü. O zaman çar Rusiyası Azərbaycanda yerli dildə məktəblərin açılmasını qadağan etdiyindən azərbaycanlıların ziyalıları özgə ölkələrdə təhsil almaq məcburiyyətində qalırdılar.

Buna görə də Cəlil Məhəmmədquluzadə özünün "Anamın kitabı" pyesində oğlanlarının biri Peterburqda, o biri İstanbulda, digəri isə Nəcəfdə təhsil almış bir azərbaycanlı ailəsinin sərgüzəştini şərh edir.

İsbata ehtiyac yoxdur ki, ayrı-ayrı ölkələrdə təhsil görmüş cavanlar müxtəlif əqidə və ruhiyyəyə malik olarlar. Belə ki, pyesdə iştirak edən bu üç qardaş arasında daima əqidə üstündə mübahisə gedir və hər birisi öz əqidəsini və yaşadığı mühitin ona buraxdığı təsiri digərlərinə təhmil etmək istəyir.

Onların arasında gedən nifaqdan anaları dığ naxoşluğuna mübtəla olub ölür, qardaşlar isə bir-birindən ayrılır və ailələrinin pozulması ilə nəticələnir. Lakin o zaman Azərbaycanda milli mədəniyyətin inkişafına imkan olsaydı, Azərbaycan ailələrində nəinki ayrılıq, bəlkə də möhkəm birlik əmələ gələrdi.

Pyesdən açıq-aydın görünür ki, tarixdə təcavüzkar dövlətlər bir milləti yox etmək və daimi əsarət altında saxlamaq üçün yeganə tədbir olaraq o millətin ana dilini və milli mədəniyyətini aradan aparmağa çalışmışlar.

Pyesdə o üç qardaşın arasındakı ziddiyyətlərin aradan qaldırılması üçün bacıları Gülbahar onların başdan-başa puç mahiyyətə malik olan özgə dillərdə yazılan kitablarını yandırır və aralarında vəhdət yaranması üçün anaları o müxtəlif dillərdə yazılan kitabların əvəzində öz ana dillərində kitab oxumalarını onlara tapşırır.

İndi bu dəyərli pyesin bizim Azərbaycan Dövlət Teatrının artistləri tərəfindən necə oynanılmasına gəlsək, mən pyesdəki rolları ifa edən artistlərin məharət və yaradıcılıqlarını sözlərlə izah etməkdə özümü aciz görürəm. Çünki artistlərin hər biri öz rollarının ifasında cavanlıqlarına və milli teatr aləminə yeni atılmaqlarına baxmayaraq, uzun müddət təcrübə görmüş artistərdən heç də dala qalmırlar.

Xüsusilə, pyesin baş rollarını ifa edən Qəmər xanım Nikpur, Leyla xanım Möhsünpur, Səməd Səbahi, İsmayıl Muzduri, Əli Əsgər Rizvan, Əhmədzadə obrazlarının yaradıcılığında xalqın rəğbətini qazana biləcək qədər özlərinə görkəmli yer tuturlar. Rejissorluq və musiqi hissəsinin bədiiliyi, dekorasiyanın gözəl və təbiiliyi pyesi daha da canlandırırdı. Teatr salonunun tamaşaçılarla dolu olması pyesin xalq tərəfindən bəyənilməsinin ifadəsi idi.

Mən milli teatrımızın istedadlı artistlərinə bundan daha da artıq və yüksək müvəffəqiyyətlər arzu edirəm.

***Təqdim etdi:***
***Səməd BAYRAMZADƏ,***
***AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı***

Təqvim yada salır

# Rəfibəylilərin jurnalist oğlu

## Yaxud 70 illik ömrün "Xalq qəzeti"ndə keçən 44 ili

**İnsanlar mətbuatın nə demək olduğunu dərk edəndən bəri bu müqəddəs dəyərimizin "həyatında" dövri olaraq çoxsaylı yeniliklərin, dəyişikliklərin şahidi olublar. Əvvəlcə bir, iki və ya dörd səhifəlik qəzetlə ərsəyə gələn mətbuat sonra öz yolunu çoxsəhifəli jurnal, radio, daha sonra televiziya və nəhayət, elektron informasiya vasitələri ilə davam etdirməli olmuşdur.**



Ancaq mətbuatın həyatındakı dəyişikliklər bununla da bitmir. Əvvəllər mətbuat vasitəsi üçün yaza bilən müəllif və hərfləri tanıyan oxucu lazım idi. Sonra bunlarla yanaşı, himayədar (sponsor ) da lazım oldu. Daha sonralar abunəçilərə, müxtəlif istiqamətli texniki işçilərə və nəhayət, reklamçılara ehtiyac duyuldu. Bu yazımızın qəhrəmanı da məhz həmin sonuncuların – reklam mütəxəssislərinin ən üzdə olan simalarındandır.

O vaxtlar ölkədə yeganə olan Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsini bitirən, seçdiyi peşənin ən incə məqamlarını dərindən öyrənən, təxminən, 44 il eyni kollektivdə çalışan, müxbir olaraq "Kommunist" kimi aparıcı rəsmi qəzetin bir neçə şöbəsində uğurla fəaliyyət göstərmiş bir həmkarımız haqqında olan sətirlərdə onun şöbə müdiri vəzifəsində çalışdığı otuz ili xatırlatmağımız təsadüfi deyil. Çünki SSRİ-nin çökməsindən sonra postsovet məkanının bütün rəsmi qəzetləri özünü maliyyələşdirən və ya təsərrüfathesablı quruma çevrildiyinə görə həmin redaksiyaların mühüm vəzifələrindən biri də məhz kollektiv üzvlərinin maraqlarını qoruya biləcək qədər reklam cəlb etmək idi. Bəri başdan deyək ki, Ruslan Rəfizadə bütün fəaliyyəti dövründə bu işin öhdəsindən uğurla gəlmişdir. Bu arqumentimizi əsaslandırmaq üçün əlimizdə çoxsaylı faktları sadalamaq fikrinə düşsək, uzun bir siyahı alınar. Təkcə onu deyim ki, mənə etdiyi unudulmaz yaxşılıq 2006-cı ildə Həcc ziyarətində olarkən müqəddəs Allah evinin – Kəbənin təvafı zamanı gözümün qarşısına ilk növbədə gələn Ruslanın təmənnasız köməyi oldu, ona və övladlarına sidq-ürəkdən dualar dilədim.

O, indi çalışdığı "Xalq qəzeti"nə 1980-ci ildə – o vaxtlar ali rəhbər orqan olan Azərbaycan KP MK-nın təyinatı ilə göndərilmişdi. Sonradan isə taleyini birdəfəlik bu nüfuzlu redaksiya ilə bağlamış və hələ də kollektivin sıralarındadır. Biz onu kamil reklam mütəxəssisi kimi təqdim etsək də, hər gün qəzetdə gedən yazıların hamısına diqqətlə nəzər salır və bir çox məsələlərə öz münasibətini bildirir. Xüsusən, kimlərinsə Azərbaycan dilinə sırımaq istədiyi yad ifadələrin qəzet səhifəsinə gətirilməsinə ciddi şəkildə etiraz edir. Həmin məsələ mənim də "yaralı yerim" olduğuna görə, Ruslan müəllimin bütün irad və etirazlarını dəstəkləyirəm.

Az qala, hər gün ondan "bizim müəllimlərimiz belə öyrətməyiblər" – ifadəsini eşidirəm. Yeri gəlmişkən, mən BDU-nu və jurnalistika fakültəsini bitirməsəm də, həmin fakültənin müəllimlərini bəlkə də oranın məzunları qədər tanıya bilmişəm. Çünki Ruslan Rəfizadə hər gün universitet müəllimləri haqqında bir əhvalat danışır, hansısa maraqlı məqamı və ya ustad saydığı insanların tövsiyələrini yada salır. Elə bir gün olmur ki, respublikanın tanınmış, millətsevər ziyalıları olan Mir Cəlal, Nəsir İmanquliyev, Nurəddin Babayev, Seyfulla Əliyev, Şirməmməd Hüseynov, Famil Mehdi, Tofiq Rüstəmov, Əliş Nəbili, Yalçın Əlizadə, Cahangir Məmmədli, Akif Rüstəmov, Mahmud Mahmudov və Nəsir Əhmədli kimi müəllimləri haqqında nə isə danışmasın.

Elə artıq vəfat etmiş və ya burada çalışmayan iş yoldaşlarını da daim ehtiramla xatırlayır və maraqlı xatirələr danışır. Etiraf edir ki, Rəşid Mahmudov, Alp Ağamirov, Kazım Ələkbərov, Cəmil Əlibəyov, Ramiz Əhmədov, Şamil Şahməmmədov, Rafael Nağıyev, Cəlil Xəlilov, Əşrəf Hacıyev, Telman Heydərov, Telman Əliyev, Firdovsi Zamanov, Firudin Rəsulov, Rafiq Həsənov, İlham Rəhimli, Ziyəddin Sultanov və jurnalistikanı müqəddəs peşə sayan, qədir-qiymətə çatdıran digər insanlardan həm yaradıcılıq, həm də həyat dərsi almışdır.

Bir məqamı da xüsusilə vurğulamaq istəyirəm. Ruslan Rəfizadə bəlkə də ölkə mətbuatında barmaqla sayıla biləcək jurnalistlərdəndir ki, həm redaksiyanın, həm də əməkdaşların üzləşdiyi hansısa çətinliklərin aradan qaldırılmasına cidd-cəhdlə çalışır və istəyinə nail olur. Bu işdə onun prinsipiallığına və qanunları yaxşı bilməsinə həsəd aparmaq olar. Üstəlik, uzun illərdir ki, "Xalq qəzeti" redaksiyası həmkarlar ittifaqı komitəsinin sədridir. Maraqlıdır ki, onun otuz ildən çox rəhbərlik etdiyi həmin posta yiyələnməyə başqa kiminsə iddialı olduğunu görməmişik. Hər halda, mənim burada çalışdığım 27 ildə belə bir söz eşitməmişəm. Çünki, əvvəla, kimsə o vəzifəni Ruslan müəllim kimi apara biləcəyinə əmin deyil. İkinci, onun redaksiya həmkarlar ittifaqı komitəsinin sədri olması kollektiv üzvlərinin hamısına sərf edir. O, iş yoldaşlarının məişət qayğılarından tutmuş istirahətinə, narahatlıqlarına qədər hər məsələdə ürək genişliyi ilə əlindən gələni əsirgəmir.

Hörmətli oxuculara bu sətirlərin qəhrəmanı haqqında xatırlatmaq istədiyimiz başqa bir fakt isə ondan ibarətdir ki, Ruslan Rəfizadə ötən əsrin əvvəllərində istiqlal mübarizəsində, erməni soyqırımlarına və xalqımıza yönəlmiş digər qəsdlərə qarşı mübarizədə öndə getmiş Rəfibəylilər nəslinə mənsub ailədə doğulub, tərbiyə alıb. Onun bir çox üstün keyfiyyətləri məhz bu nəslin xalq işinə sədaqətindən, insanlara xeyirxah münasibətindən qaynaqlanır.

Danışır ki, otuzuncu illərdə bütün nəslimizi repressiyaya məruz qoyub, pərən-pərən salıblar. Hələ də qohumlarımızın çoxu qürbətdə yaşayır: "Nənəm, anam və üç dayım sürgün taleyi yaşayıblar. Atam-anam (hər ikisi Rəfibəylilərdəndir) ömürləri qorxu, təlaş və səksəkə içərisində keçib. Bütün bunlara baxmayaraq, Vətəndə qalan qohum-əqrəbam hər sahədə namusla çalışıb, xalqa gərəkli olub. Mən nəslimlə öyünməkdən çox, onun adına layiq olmağa çalışmışam. Düzü, o qədər ağrı-acılar çəkmişik ki, Rəfibəyli olmağımla öyünmək arxa planda qalıb".

Peşəkar jurnalist, təəssübkeş kollektiv üzvü, gözəl ailə başçısı, səmimi dost, "Tərəqqi" medallı Ruslan Rəfizadəni anadan olmasının 70 illiyi münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı və yeni-yeni uğurlar arzulayırıq!

*İttifaq MİRZƏBƏYLİ*
*XQ*

---

34 il əvvəl Gəncənin adı özünə qayıtdı

**Elə ki, 1804-cü ildə Rus imperiyasının qoşunları Gəncəni darmadağın etdi, Cavad xan və oğlu öldürüldü, dərhal qədim şəhərin adı da dəyişdirilib Yelizavetpol adlandırıldı. 1918-ci ildə Gəncə adı yenidən bərpa edilsə də, təəssüf ki, bu da uzun sürmədi. 1935-ci il fevralın 22-də şəhərin adı yenidən dəyişdirilərək Kirovabad oldu.**

Gəncə ziyalıları illərlə şəhərin öz adının qaytarılmasına çalışdılar. Sovetlər dönəmində bu, böyük cəsarət tələb edirdi. Bu zaman ulu öndər Heydər Əliyevin dühası, zəkası köməyə gəldi. Məhz böyük şəxsiyyətin qətiyyəti ilə 1980-ci ildə Gəncə şəhəri 2 rayona bölündü və bu rayonlardan birinə Kəpəz, digərinə isə Gəncə adı verildi. Məhz Ulu öndərin müdrikliyi və uzaqgörənliyi sayəsində Gəncə adının hafizələrdən silinməsinə imkan verilmədi və bu ad yenidən səslənməyə başladı.

# Nizami şəhərinin "bəraət" günü



Ulu öndər, həmişə olduğu kimi, Gəncəyə və gəncəlilərə olan ehtiramını özünəməxsus səmimiliklə ifadə edirdi: "Gəncə Azərbaycan xalqının qədim, zəngin tarixini özündə əks etdirən diyardır, gözəl bir şəhərdir. Azərbaycan xalqının qədim tarixini, mədəniyyətini, ədəbiyyatını, şeirini Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar. Azərbaycana, Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər".

Sonrakı dövrlərdə də Ümummilli lider Gəncəyə xüsusi münasibət bəsləyib: "Bizim böyük şairimiz Nizaminin adı Bakıda çox yerlərdə var idi, amma mən istəyirdim ki, bir rayon da Nizaminin adını daşısın... O vaxt Gəncənin adını bərpa etmək böyük cəsarət tələb edirdi. Biz o rayonlardan birinin adını "Gəncə", o birisinin adını "Kəpəz" qoyduq.

Bu məlumdur, gərək ki, bir neçə dəfə deyiblər, – o vaxt buradan təkliflər verilmişdi, Moskvaya da artıq yazılmışdı, çünki o zaman biz bu rayonları özbaşına yarada bilməzdik, bunun üçün Moskvanın qərarı olmalı idi. Deyəsən, birinə "Zavod rayonu", birinə də "Proletar rayonu" adı verilmişdi. Yəni layihədə, Sovet hökumətinin qərar layihəsində bu vardı. Mən o layihəni dəyişdirdim və "Gəncə ", "Kəpəz" adları verdik. Bakıda yaranan yeni rayonu isə, - o vaxt Bakıda on rayon var idi, - "Nizami rayonu" adlandırdıq. Bizim böyük şairimiz Nizaminin adı Bakıda çox yerlərdə var idi, amma mən istəyirdim ki, bir rayon da Nizaminin adını daşısın. Bir vaxt da xalqımız üçün, eyni zamanda da Gəncə üçün, – çünki Nizami də gəncəlidir, Nizami deyəndə də Gəncə düşünürsən, – bir rayonun adı "Gəncə", o biri də "Kəpəz" qoyuldu, – Kəpəz də Gəncədir. Bəli, biz bu milli adları 1980-ci ildə qoyduq".

Əslində bu, qələbə şəhərin adını, keçmişini tarixdən silmək istəyənlərin üzərində qazanılan qələbə idi. Başqa sözlə, Heydər Əliyev siyasətinin qələbəsi idi.

Nəhayət, vətənsevər insanların illərlə uğrunda mübarizə apardığı, bu yolda təqiblərə, təzyiqlərə məruz qaldığı bir arzu uğurla nəticələndi, 1989-cu ilin 30 dekabrında zəngin tarixi keçmişə malik Gəncə öz adına qovuşdu.

Qeyd edək ki, 1989-cu il noyabrın 29-da Kirovabad Şəhər Xalq Deputatları Sovetinin sessiyasında sözügedən məsələ müzakirə olundu. Gəncə adının bərpası təklifi qəbul edildi və ertəsi gün qərar verildi. Dekabrın 30-da isə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti belə bir qərarı təsdiq etdi: "Gəncənin tarixi adını bərpa etmək haqqında şəhər vətəndaşlarının, əmək kollektivlərinin və respublikanın geniş ictimaiyyətinin çoxsaylı müraciətini, Kirovabad Şəhər Xalq Deputatları Sovetinin xahişini nəzərə alaraq və Azərbaycan SSR Konstitusiyasının 114-cü maddəsinə (18-ci bənd) uyğun olaraq "Kirovabad şəhəri Gəncə şəhəri adlandırılsın".

Beləliklə, Azərbaycan rəsmən müstəqil olmamışdan əvvəl Gəncənin tarixi adı özünə qayıdır, ədalət bərpa olunur, özü də bu dəfə əbədi olaraq.

Bu gün, dekabrın 30-da azadlıq, istiqlaliyyət uğrunda daim mübarizə aparan, qurbanlar verən qədim və qəhrəman Gəncə şəhərinin adının bərpasından 34 il keçir. Şəhərin adını da, ulu Nizamisini də, qəhrəman Cavad xanını da sevən insanların illərlə uğrunda mübarizə apardığı, bu yolda təqiblərə, təzyiqlərə məruz qaldığı bir arzu sonda uğurla nəticələndi.

Yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində bu gün Gəncə xoşbəxt şəhərlərdən biridir. Ümummilli liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı sayəsində şəhər öz görkəmini tamamilə dəyişib, elm, mədəniyyət mərkəzi olaraq dünya miqyasında tanınıb, qədimiliyi və müasirliyi, həm də gözəlliyi ilə göz oxşayır.

*Hamlet QASIMOV*
*XQ-nin bölgə müxbiri,*

**Gəncə**

---

# Nobelçi azərbaycanlı – Bəxtiyar Siracov

**Norveç Sülh Komitəsinin qərarı ilə 2005-ci ildə Nobel Mükafatına layiq görülən Atom Enerjisi üzrə Beynəlxalq Agentliyinin (AEBA) əməkdaşları sırasında soydaşımız Bəxtiyar Siracov da var. O, bu mükafatı alan Azərbaycan əsilli ilk alimdir.**



Bəxtiyar Siracovu xatırlamağımıza onun dostu – Gürcüstanda yaşayan **tədqiqatçı alim Mahmud Kamaloğlu** səbəb oldu. Uzun illərdən bəri Nobel mükafatçısı ilə dostluq edən professor Mahmud Kamaloğlunun söylədikləri məşhur həmyerlimizi daha yaxından tanımağa imkan verdi.

Bəxtiyar Tahir oğlu Siracov 1957-ci il ildə Bakıda ziyalıailəsində doğulub. Bakıdakı 82 saylı orta məktəbdə oxuyub, sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) "Tətbiqi riyaziyyat" fakültəsini bitirib. Əmək bioqrafiyasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Kibernetika İnstitutunun (indiki İdarəetmə Sistemləri İnstitutu), Rusiya Elmlər Akademiyasının, Slovakiyanın paytaxtı Bratislava şəhərindəki Slovakiya Elmlər Akademiyasının adları keçir. 1995-ci ildə Avstryada Vyana Beynəlxalq Mərkəzinin nəzdində yerləşən AEBA-da işə qəbul olunur. Bəxtiyar Siracov keçən əsrin 80-ci illərində SSRİ-də fərdi kompüterlər üçün proqram texnologiyaları sahəsində öndə dayanan tədqiqatçılardan olub, bu gün də AEBA-da çalışır və informasiya sistemlərinin proqram təminatı şöbəsinə rəhbərlik edir.

2005-ci ildə Norveç Sülh Komitəsinin qərarı ilə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik və onun baş direktoru Məhəmməd əl-Baradei nüvə enerjisinin hərbi məqsədlər üçün istifadəsinin qarşısının alınmasında və nüvə enerjisindən dinc məqsədlər üçün təhlükəsiz şəkildə istifadə edilməsinin təmin olunmasında göstərdikləri xidmətlərə görə Ali Sülh mükafatına layiq görülüblər. Agentliyin binasının girişində asılmış lövhədə bu mükafata layiq görülmüş heyətin tərkibində Bəxtiyar Siracovun da adı görünməkdədir. Beləliklə o, Bakıda dünyaya gəlmiş, XX yüzilliyin əfsanəvi fiziki Lev Landaudan sonra Nobel mükafatına layiq görülən 2-ci azərbaycanlı kimi tarixə düşüb.

Bəxtiyar Siracov elmi fəaliyyəti ilə yanaşı, mədəni-ictimai fəaliyyətlə də məşğuldur. O, Vyana Beynəlxalq Mərkəzinin nəzdində yaradılmış incəsənət klubunun üzvüdür, Avstraliya paytaxtında azərbaycanlı rəssamların sərgilərini təşkil edib.

Beynəlxalq Nobel Sülh mükafatçısı olan həmyerlimizin Eldar və Elşən adlı iki oğlu var. Eldar Vyana Texnologiya Universitetinin məzunudur, şəxsi kompüter şirkəti var və kompüter qrafikası ilə məşğuldur. Kiçik oğlu Elşən İngiltərənin Royal Holluey Universitetində və ABŞ-da ali təhsil alıb. Hazırda Vyanada yaşayır və işləyir.

*N.QƏDİMOĞLU*
*XQ*

---

# Hüseyn Cavid qiraəti



**Hüseyn Cavidin Ev muzeyində məktəblilər arasında "Hüseyn Cavid poeziyasından incilər" adlı ənənəvi bədii qiraət müsabiqəsi keçirilib.**

Müsabiqədə Bakının Nərimanov rayonundakı Azad Hümbətov adına 291 nömrəli Ekologiya liseyinin şagirdləri iştrak ediblər. Məktəblilər Hüseyn Cavidin şeirlərini, əsərlərindən parçaları səsləndirib, "Ana" mənzum dramından, "İblis" faciəsindən monoloqları oxuyublar. Müsabiqənin qaliblərinə görkəmli mütəfəkkirin əsərləri, sözlərinə bəstələnmiş musiqi əsərlərinin, eləcə də Ərtoğrul Cavidin bəstələdiyi mahnıların toplanıldığı CD və not kitabları hədiyyə edilib.

Hüseyn Cavidin Ev muzeyinin direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı dahi dramaturqun yaradıcılığına göstərdikləri sevgiyə görə iştirakçılara minnətdarlıq edib.

*XQ*

---

# "Qərbi Azərbaycan aşıqları"

**Azərbaycan Aşıqlar Birliyində (AAB) daha bir layihə uğurla başa çatdırılıb. Son illərdə bir sıra sanballı nəşrlər ərsəyə gətirən birlik bu dəfə Qərbi Azərbaycan aşıqlarının poetik yaradıcılıq nümunələrindən ibarət antologiyanı təqdim edib.**

AAB-nin katibi Musa Nəbioğlu bildirib ki, XVI əsrdən bu yana Qərbi Azərbaycanın ayrı-ayrı mahallarında – İrəvan, Zəngəzur, Dərələyəz, Göyçə, Qaraqoyunlu, Dərəçiçək, Loru və Ağbabada yaşayıb-yaratmış ustad sənətkarların zəngin ədəbi irsindən nümunələrin yer aldığı toplu soydaşlarımızın dədə-baba yurdu olan ərazilərdə sənət ənənəsi, tarixi-mədəni prosesin inkişaf dinamikası, coğrafi arealın hansı milli-mənəvi zənginliyə köklənməsi haqqında bilgi vermək baxımından mühüm bir qaynaqdır.




Antologiyanın hazırlanmasında əsas məqsəd regionun söz-sənət yükünü qoruyub gələcək nəsillərə çatdırmaq, eyni zamanda, sənətə yenicə qədəm qoyan yeniyetmə və gənclərin repertuar zənginliyini genişləndirməkdir.

Topluda XVI əsrdə yaşayıb-yaratmış Miskin Abdaldan üzübəri bir çox böyük saz-söz ustadlarının – Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Məhərrəm Alçalı, Ululu Kərim, Çobankərəli Cəfər kimi sənətkarlarla yanaşı, erməni təcavüzü nəticəsində öz dədə-baba yurdlarından didərgin düşüb, bu gün Azərbaycanın müxtəlif guşələrində yaşayan, Qərbi Azərbaycandakı aşıq sənəti ənənəsini davam etdirən çağdaş aşıqların yaradıcılıq nümunələrinə də yer ayrılıb.

Antologiyanı nəşrə professorlar Məhərrəm Qasımlı, Mahmud Allahmanlı, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu və filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli hazırlayıblar.

*XQ*




# "Rəngli inqilablar" serialının Serbiya variantı?

## Belqrad Qərbin məkrli planlarını qətiyyətlə pozur



**Məlum olduğu kimi, dekabrın 17-də Serbiyada növbədənkənar parlament və bələdiyyə seçkiləri keçirilib. Ölkə Prezidenti Aleksandar Vuçiçin lideri olduğu Serb Tərəqqi Partiyası seçkilərdə növbəti dəfə parlaq qələbə qazanıb.**

Bir çox nüfuzlu seçki texnoloqları etiraf edirlər ki, Serbiyadakı son seçkilərdə iqtidarın uğuru, ilk növbədə, A.Vuçiçin bir siyasətçi kimi qətiyyəti və xarizması sayəsində mümkün olub. Belə ki, o, 44 günlük seçkiqabağı kampaniya ərzində ölkənin təkcə milli televiziya kanallarında 45 dəfə çıxış edib və seçiciləri rəhbəri olduğu partiyanın ali məramının xalqın və dövlətin maraqlarına xidtmət etmək olduğuna inandıra bilib.

Qeyd edək ki, A.Vuçiçin partiyası ilə kəskin rəqabət aparan siyasi blok "Serbiya zorakılığa qarşı" adlanır. Bu, liberal, sosial-demokrat və ekoloji partiyaların koalisiyasıdır. Təəssüf ki, Serbiya müxalifəti son seçkilərin nəticələrini qəbul etməyərək, əhalini kütləvi etirazlara çağırıb. Etiraz aksiyaları zamanı iğtişaşlar törədənlər saxlanılıblar. Bu hadisələr ölkənin ictimai-siyasi həyatında xeyli gərginlik yaradıb.

Dünən "Serbiya zorakılığa qarşı" müxalifət koalisiyasının tərəfdarları Belqradda Respublika Seçki Komissiyasının qarşısında növbəti etiraz aksiyası keçiriblər. Sonra nümayişçilər şəhər boyu yürüş təşkil ediblər.

TASS xəbər verir ki, 400-ə yaxın etirazçı Serbiya Radio və Televiziyasının binasına tərəf gedib. Nümayişçilər şəhərin küçələri ilə yürüş edərək iğtişaşlara görə saxlanılanların hamısının azad edilməsi üçün çağırışlar ediblər. Bundan başqa, "Mübarizə" tələbə təşkilatının tərəfdarları dekabrın 29-da axşam saatlarında Belqradın mərkəzində 24 saat etiraz aksiyasına start veriblər. Tələbələr şəhərin əsas magistrallarını bağlamağa cəhd ediblər. Lakin polis ictimai asayişin pozulmasına imkan verməyib.

Serbiya Radikal Partiyasının lideri Voislav Şeşel deyib ki, ölkədəki etirazların arxasında, ilk növbədə, Almaniya, eləcə də ABŞ və Fransanın xüsusi xidmət orqanları dayanır. O qeyd edib ki, Serbiya hakimiyyəti güc tətbiq etməli olub, lakin bunu vaxtında etmək lazım idi: "Siz şəhərin mərkəzində istədiyiniz qədər etiraz edə bilərsiniz, lakin həyati əhəmiyyətli nəqliyyat qovşaqlarını təhlükə altına almaq olmaz. Bu halda güc tətbiqinə haqq qazandırmaq olar".

V.Şeşel ölkədə daxili siyasi vəziyyəti şərh edərkən deyib ki, Serbiyada sabitliyi pozmağa cəhd etməkdə Qərbin əsas məqsədi Prezident Aleksandar Vuçiçə təzyiq göstərməkdir.

Qeyd edək ki, Serbiyanın hazırkı iqtidarı Qərb dövlətlərinin Rusiyaya qarşı sanksiyalarına qarşı çıxır. Avropa İttifaqı (Aİ) və ABŞ daim təkrar edir ki, Belqrad öz xarici siyasətini Aİ rəhbərliyi ilə razılaşdırmalı və Rusiyaya qarşı sanksiyalara qoşulmalıdır. Bundan əlavə, Çinin Serbiyada artan investisiyaları da Aİ-ni narazı salır.

***M.HACIXANLI***
***XQ***

### Ekspert rəyi



**Mübariz MƏMMƏDLİ,**
**siyasi şərhçi**

**– Serbiyadakı iğtişaşlar Qərbin indiyədək bir çox ölkələrdə sınaqdan çıxardığı "rəngli inqilab" ssenarisidir. Təsadüfi deyil ki, Prezident Vuçiç deyib ki, bir çoxları Belqradın anti-Rusiya sanksiyalarına qoşulmasında israr edərək Serbiyaya öz iradələrini yeritməyə çalışır, lakin Belqrad bundan sonra da müstəqil siyasət yürütməyə davam edəcək.**

**Qərb istəyir ki, Serbiyanın əvvəllər olduğu kimi, siyasi iradəsi olmayan adi bir oyuncaq kimi idarə etsin, hökuməti və nazirləri seçə bilsin, Rusiyaya qarşı sanksiyalar tətbiq etsin. A.Vuçiç iqtidarı isə bu təzyiqlərə baş əymir.**

**Qərb, həmçinin Serbiyanı Kosovonun müstəqilliyini tanımağa məcbur etmək istəyir. Ötən il oktyabrda Fransa, Almaniya liderləri açıq şəkildə Belqradı Kosovonu tanımağa çağırmışdılar.**

**Eyni siyasəti vaxtilə Ukraynada həyata keçiriblər və hazırda bu ölkəni faktiki olaraq məhv olmaq təhlükəsi ilə üz üzə qoyublar**

**Yeri gəlmişkən, Qərb "rəngli inqilab" texnologiyasını ilk dəfə elə Serbiyada sınaqdan çıxarıb. 2000-ci ildə Slobodan Miloşeviçi hakimiyyətdən uzaqlaşdırıblar. İndi yenidən eyni ssenari işə düşür. Görünən budur ki, Belqrad qətiyyətlə Qərbin planlarını pozur.**

# "2023-cü il – iztirablar, zorakılıq və iqlim xaosu"

**BMT-nin Baş katibi Antonio Quterreş cümə axşamı günü 2024-cü ildən nələri gözlədiyini dilə gətirib və qlobal miqyasda etimadı bərpa etmək üçün birliyə çağırıb.**



Baş katib deyib: "2023-cü il yaddaşlarda böyük iztirablar, zorakılıq və iqlim xaosu ilə qalacaq. Bəşəriyyət ağrılar içindədir. Planetimiz təhlükədədir. 2023-cü il rekord səviyyədə ən isti il oldu".

"İnsanlar artan yoxsulluq və aclıqdan əziyyət çəkir", – deyən Quterreş müharibələrin sayının və zorakılıq hallarının artdığını və gələcəyə inamın azaldığını əlavə edib. O vurğulayıb: "Ancaq öz inadını yeritmək və silahlardan istifadə etmək bizi heç bir yerə aparmır. Biz birlikdə olduğumuz zaman bəşəriyyət daha güclüdür. 2024-cü il etimadın və ümidin bərpası ili olmalıdır. Biz iqlim fəaliyyətində ortaq həllər üçün fikir ayrılıqlarının öhdəsindən gəlməliyik. İqtisadi fürsətlərdən istifadə etmək və daha ədalətli olmaq, hamı üçün təminat verən qlobal maliyyə sistemini yaratmaq əsas vəzifələrdir".

BMT-nin rəhbəri bildirib ki, dünya ictimaiyyəti ölkələr və icmalar arasında münasibətləri zəhərləyən ayrı-seçkilik və nifrətə qarşı çıxmalıdır, habelə süni intellekt kimi yeni texnologiyalar xeyirxahlıq üçün istifadə edilməlidir.

***XQ***

## "Maştağa Aqrotexservis" ASC səhmdarlarının nəzərinə!

12 fevral 2024-cü il saat 14.00-da "Maştağa Aqrotexservis" ASC-nin inzibati binasında səhmdarların növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. "Maştağa Aqrotexservis" ASC-nin 2023-cü ilin sonuna ilkin hesabatlara baxılması, maliyyə vəziyyətinin təhlili, öhdəliklərin və kapitalların inventarlaşdırılmasının aparılması.
2. "Maştağa Aqrotexservis" ASC-nin əsas vəsaitlərinin, avadanlıqlarının, digər əmlak dəyərlilərinin vəziyyətinin təhlili və inventarlaşdırılmasının aparılması.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu – 012 455-35-55, 050-324-30-07
Ünvan – Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Nizami küçəsi 4.

## "Tovuz Məişət" ASC səhmdarlarının nəzərinə!

13 fevral 2024-cü il saat 11.00-da "Tovuz Məişət" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Cəmiyyətin 2023-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekununa aid icra orqanının hesabatı.
2. Cəmiyyətə məxsus və müxtəlif fiziki şəxslər tərəfindən uzun illər əvvəl zəbt olunmuş obyektlərin icarəyə verilməsi və ya özəlləşdirilməsi məsələsinin müzakirəsi.
3. Digər məsələlər.

Ünvan-Tovuz şəhəri, R.Məmmədov küçəsi 14.

Əlaqə telefonu: (051) 851-46-86.

***Müdiriyyət***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 287 (30403) 30 dekabr 2023-cü il, şənbə


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Regionlar

# Cocuq Mərcanlıda bayram şənliyi



**Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə şənlik keçirilib.**

Yeni il personajlarının iştirak etdiyi mərasim uşaqların bayram əhvali-ruhiyyəsini daha da artırıb, bu günü onlar üçün unudulmaz edib. Sonda uşaqlara hədiyyələr paylanıb.

**XQ**

İdman xəbərləri

# 2 boksçumuz beynəlxalq turnirin qalibi olub

**Bakıda ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq boks turniri başa çatıb.**



Yarışda Azərbaycan idmançıları ilə yanaşı, Rusiya və Qazaxıstan təmsilçiləri də qüvvələrini sınayıblar. Turnirdə, ümumilikdə, 6 peşəkar döyüş baş tutub.

Komandamızın üzvlərindən Elvin Qənbərov (76 kq) və İsmət Eynullayev (79 kq) rəqiblərini məğlub edərək qalib adını qazanıblar.

# Parataekvondoçuların seçim turniri



**Parataekvondo üzrə seçim turnirinin qalibləri müəyyənləşib.**

Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, K-44 kateqoriyası üzrə 5 çəki dərəcəsində mükafatçılar bəlli olub.

Belə ki, Sabir Zeynalov (Neftçi İK, 58 kq), Amin Şıxəliyev (Neftçi İK, 63 kq), İmaməddin Xəlilov (Neftçi İK, 70 kq), Əbülfəz Abuzərli (Neftçi İK, 80 kq), Şahmar Quliyev (Xəmsə TK, +80 kq) birinci yeri tutublar.

# Ən güclü taekvondoçular



**Taekvondo üzrə Azərbaycan birincilikləri və çempionatı başa çatıb.**

Bakı İdman Sarayında keçirilən və ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan yarışda komanda hesabında "Təhsil" RİM (Sumqayıt) birinci yeri tutub. İkinci yerdə Ağcabədi OİK, üçüncü pillədə "Gömrükçü" İC qərarlaşıb.

İlin perspektivli məşqçiləri Cəlil Abdullayev, Hüseyn Mehrəliyev, Sadiq Ağayev, Günay Zeynalova, Zahid Nadirov, İmran Zalov və Zahid Nadirov seçiliblər.

Yarışın ən yaxşı hakimi adına Ramal Əskərov, Vasif Qurbanov və Dilarə Həsənova seçiliblər. Rza Məcidova Besti Quliyeva isə ilin ən fəal hakimi nominasiyasının qalibi olublar.

*Leyla SABİRQIZI*
**XQ**

# Süni intellektə təhlükəsiz həyat!



**Sinqapurun Nanyang Texnoloji Universitetinin (NTU) tədqiqatçıları "ChatGPT", "Google Bard" və "Microsoft Copilot" da daxil olmaqla bir neçə süni intellekt çatbotlarının təhlükəsizliyinin pozulmasının qarşısını almaq üçün proqram hazırlayıblar.**

Bu barədə "Computer Science" elmi jurnalında məqalə dərc olunub.

Kompüter alimləri ağıllı chatbotların əsasını təşkil edən böyük dil modeli (LLM) əsasında öz neyron şəbəkələrini hazırlayıblar. Onların yaratdıqları "Masterkey" adlı alqoritm çatbotların kompüter virusunun necə yazılması, partlayıcı qurğu və ya narkotik vasitələrin hazırlanması ilə bağlı təlimatların alınması, həmçinin onların köməyi ilə nifrət nitqi və digər qeyri-qanuni materialların yaradılmasının qarşısını alacaq.

Universitetin alimləri proqramın etik məhdudiyyətlərindən yayınan və müəyyən sözləri senzuradan keçirən sorğulardan istifadə edərək süni intellektdən qadağan olunmuş məlumatları çıxarmağın yollarını da tapıblar.

*Rizvan FİKRƏTOĞLU*
**XQ**

Texnologiya



# "Xiaomi"nin ilk elektromobilləri

**"Xiaomi" şirkəti Çində növbəti təqdimatını keçirərək özünün ilk elektrik avtomobilini – "SU7" və "SU7 Max" markalarını təqdim edib. Bu barədə "Rozetked" portalı xəbər verib.**

Bildirilib ki, "Xiaomi SU7" elektrik avtomobili "Tesla Model 3" və "Porsche Panamera" modellərinə bənzəyir. Bu da səbəbsiz deyil. Onun dizaynını bəzi BMW, "Mini" və "Rolls-Royce" modelləri üzərində işləmiş tanınmış rəssam Kris Benql hazırlayıb. Başlanğıcda alıcılara üç rəngdə elektrik avtomobilləri təqdim edilir: mavi, boz və yaşıl. Bu markalı avtomobillərdə modifikasiyasından asılı olaraq 3 fərqli "Xiaomi" markalı mühərrikdən istifadə edilir: "Super Motor V6" (299 at gücü), "Super Motor V6s" (374 at gücü) və "Super Motor V8" (578 at gücü).

Şirkətdən bildirilib ki, "Super Motor "V8"ə malik SU7 versiyası 265 km/saat sürət yığır. Onun sıfırdan 100 km/saat sürət yığması üçün isə 2,78 saniyə kifayət edir .

"SU7"nin bütün versiyaları 101 kVt/saatlıq özəl "Xiaomi" batareyası ilə təchiz edilib. Bir dəfə elektrik yüklənməsi ilə 800 kilometr yol gedə bilir. Yeni elektrik avtomobillərinin "Hyper Charge" sürətli enerji doldurma dəstəyi var. 15 dəqiqə kifayətdir ki, onlara 510 kilometri qət etmək üçün "yanacaq doldurulsun". "Xiaomi" şirkəti qiyməti və satışların başlama tarixini açıqlamayıb.

*P.ƏFƏNDİ*
**XQ**

Kainat

# Kainat daim genişlənir



**Elmlə bağlı ən heyrətamiz faktlardan biri kainatın genişlənməsidir. Bu, o deməkdir ki, bütün qalaktikalar, ulduzlar və planetlər zamanla bir-birindən uzaqlaşır. Bunu 1920-ci illərdə qalaktikaların hərəkətini müşahidə edən amerikalı astronom Edvin Hubble kəşf edib. O, nəhəng teleskopla göy üzünü araşdırarkən ulduzların və qalaktikaların bir-birindən sürətlə uzaqlaşdığını müşahidə edib. Bu, astronomiya tarixinin ən böyük kəşflərindən biri sayılır.**

Ulduzlar və qalaktikalar ancaq bizdən deyil, bir-birindən də uzaqlaşırlar. Kainatın genişlənməsi sonrakı illərdə də qəti olaraq təsdiq edildi. Mövzunu daha yaxşı başa düşmək üçün kainatı doldurulmaqda davam edən bir şarın səthi kimi təsəvvür etmək olar. Şarın üstündəki nöqtələr şar dolduqca bir-birindən uzaqlaşdığı kimi, kainatdakı cisimlər də kainat genişləndikcə bir-birindən uzaqlaşır. Əslində, bu həqiqət XX əsrin ən böyük elm adamlarından biri sayılan Albert Eynşteyn tərəfindən də nəzəri olaraq kəşf edilmişdi. Lakin Eynşteyn həmin dövrdə qəbul edilən "statik kainat modeli"nə zidd çıxmamaq məqsədi ilə bu kəşfini bir kənara qoymuşdu. Alim sonralar bu hərəkətini karyerasının ən böyük səhvi adlandırmışdı.

İnanmaq bəlkə çətindir, amma kainat başqa bir şeyin içində olmadan genişlənir.

*Pünhan ƏFƏNDİYEV*
**XQ**

Sağlamlıq

# Oturan ağrı tapar...



**Alimlər insanın ömrünü qısaldan, insult, infarkt riskini artıran iş və peşələri araşdırıblar. Çin alimləri növbəti dəfə ən təhlükəli işin ofis işi, oturaq işlər olduğunu sübut ediblər.**

Tədqiqatlar göstərib ki, gündə 8 saata yaxın oturaq iş infarkt, insult riskini 50 faiz artırır. Alimlər, hətta oturaq işin insan üçün ölümcül təhlükəli olduğunu müəyyənləşdiriblər.

Ofis işçiləri, mühasiblər, bank, idarə işçiləri, ümumiyyətlə, oturaq işdə çalışanlar daxili orqanlar, damarlar, ürək problemlərindən əziyyət çəkirlər.

10 il ərzində oturaq işdə çalışan insan öz ömrünü digər peşələrdən fərqli olaraq, 20 faizə qədər azaldır.

Mütəxəssislər bildirirlər ki, insan üçün optimal oturma müddəti gündə 4–5 saatdır. Bu zaman 40 dəqiqədən bir fasilə olmalı, bədən vəziyyəti dəyişilməli, insan oturduğu yerdən qalxıb mütləq gəzməlidir.

Tədqiqatçılar son olaraq belə qərara gəliblər ki, ofis işçilərinin sağlamlığı ciddi təhlükə altındadır.

*Z.HÜSEYNLİ*
**XQ**

Hava




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 30-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 4-7°, gündüz 12-17° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunundan 765 mm civə sütununa enəcək, nisbi rütubət gecə 60-70 , gündüz 40-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 12-17° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q. QASIMOV*
**XQ**

# ALLAH RƏHMƏT ELƏSİN

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev və universitetin professor-müəllim heyəti Azərbaycan Dövlət Neft və Sənayesi Universitetinin rektor vəzifəsini icra edən Vazeh Əskərova atası

**ELDƏNİZ ƏSKƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3427
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00